Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin
2017-ci il ərzində gördüyü işlər haqqında

HESABATI

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2017-ci il ərzində incəsənət, teatr, musiqi, kino, təsviri sənət, tarix və mədəniyyət abidələri, kitabxana, muzey, xalq yaradıcılığı, qeyri-maddi mədəni irs və turizm sahələrinin inkişafı, həmçinin ölkəmizin milli mədəniyyətinin və turizm potensialının dünyada təbliği, tanıdılması istiqamətində müxtəlif beynəlxalq və respublika əhəmiyyətli forumlar, konfranslar, simpoziumlar, sərgilər, festivallar, mədəniyyət günləri və digər tədbirlər keçirilmişdir. Dövr ərzində həyata keçirilən tədbirlər, reallaşdırlan layihələr Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mədəniyyət və turizm sahələrinin inkişafı ilə əlaqədar müəyyən etdiyi dövlət siyasəti, ölkə rəhbərliyi tərəfindən imzalanan fərman və sərəncamların icrası, qarşıya qoyulan vəzifələrin və yeni dövrün tələblərinə uyğun səmərəli fəaliyyətin yüksək səviyyədə təşkilinə xidmət etmişdir.

İNCƏSƏNƏT

Teatr

Hesabat dövründə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramının icrasını təmin etmək məqsədi ilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Azərbaycan teatrının zəngin bədii irsinin və yaradıcılıq ənənələrinin qorunması, teatrların maddi-texniki bazalarının modernləşdirilməsi, informasiya və maliyyə resurslarından səmərəli istifadə edilməsi, günün tələblərinə uyğun repertuarın formalaşdırılması istiqamətində məqsədyönlü layihələr həyata keçirilmişdir.

Nazirliyin 2017-ci il üçün təsdiq olunmuş Repertuar planına əsasən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında C.Cabbarlının "Almaz", C.Rodarinin "Çipollino", R.Əlizadənin "Kosanın qızı", Elçinin "Cəhənnəm sakinləri", Azərbaycan Dövlət Musiqili Teatrında İ.Əfəndiyevin "Mənim günahım", İ.Kalmanın "Şən dul qadın", Ü.Hacıbəylinin "Arşın mal alan" (bərpa), S.Barrinin "Bremen musiqiçiləri və Pen", Azərbaycan Dövlət Rus Dram Teatrında V.Denisovun "Sanset bulvarı", Y.Polyakovun "Xalam-bundu", V.Neverovun "İkisi birində", N.Pəsulzadənin "Meme", Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Ə.Əmirlinin "Ünvansız qatar", Y.Abramovun və L.Bəyimin aprel şəhidlərinə həsr olunmuş "Yarımçıq qalmış", T.Vəliyevanın "Cəza", "YUĞ" Dövlət Teatrında S.Haqverdiyevanın "Metamorfoza", K.Abdullanın "Səsimi unutma", Dövlət Pantomima Teatrında "Undeqraund", B.Xanızadənin "Qoca və Mələk", Azərbaycan Dövlət Kukla Teatrında rus xalq nağılları əsasında "Turp" və "Durna balığının əmri ilə", S.Marşakın "Pişiyin evi", Azərbaycan xalq nağılı əsasında "Cırtdan", İrəvan Dövlət Azərbaycan Dram Teatrında X.Hüseynlinin "Min möhtəşəm günəş", Hidayətin "İrəvanda xal qalmadı", Şuşa Dövlət Musiqili Dram Teatrında M.F.Axundzadənin "Müsyo Jordan və Dərviş Məstəli şah", C.Məmmədquluzadənin "Kamança", Gəncə Dövlət Dram Teatrında A.P.Çexovun "Nazənin", A.Şaiqin "Tıq-tıq xanım", Gəncə Dövlət Kukla Teatında Ş.Peronun "Qırmızı papaq", R.Əlizadənin "Dəli Domrul", Lənkəran Dövlət Dram Teatrında R.Ağayevin "Bir gecənin nağılı", H.Andersenin "Qar kraliçası", Şəki Dövlət Dram Teatrında H.Sayının "Davul səsi", Füzuli Dövlət Dram Teatrında Ş.Qurbanovun "Özümüz bilərik", Ağdam Dövlət Dram Teatrında İ.Soltanın "Kələkbazlar", Qusar Dövlət Ləzgi Dram Teatrında R.Tohidoğlunun "Birdə etmərəm", Salyan Dövlət Kukla Teatrında M.Seyidzadənin "Ata məhəbbəti", Qax Dövlət Kukla Teatrında N.Gəncəvinin "Xeyir və Şər", Qazax Dövlət Dram Teatrında Ə.Haqverdiyevin "Bəxtsiz cavan", Mingəçevir Dövlət Dram Teatrında M.F.Axundzadənin "Lənkəran xanının vəziri", Qax Gürcü Dram Teatrında P.Kiparoidzenin "Keçmişimlə görüş" tamaşalarının premyeraları baş tutmuşdur.

Mədəniyyət və incəsənət xadimlərinin yaradıcılıq fəaliyyətlərinin stimullaşdırılması məqsədilə fevralın 8-də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında xalq artistləri Ağaxan Salmanlının 75 və Yasin Qarayevin 70 illik yubileyi münasibəti ilə yubilyarların da iştirak etdiyi Ə.Orucoğlunun "Açarını itirənlər" tamaşası nümayiş olunmuşdur. 12 mart tarixində Azərbaycan Dövlət Rus Dram Teatrında Xalq Artisti Məbud Məhərrəmovun 60 illik yubileyi ilə əlaqədar K.Holdoninin "Senyor Todero" tamaşası səhnələşdirilmişdir.

Həmçinin, 26 yanvar tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında görkəmli teatr xadimi, SSRİ Xalq Artisti İsmayıl Dağıstanlının 110, 3 fevral tarixində Əməkdar Artist Hamlet Xanızadənin 75, 23 fevral tarixində Xalq Artisti Lütfi Məmmədbəyovun 90 illiyinə həsr olunmuş xatirə gecələri keçirilmişdir. 2 mart tarixində Teatr Xadimləri İttifaqında Xalq Artisti Eldəniz Zeynalovun 80, 5 may tarixində Əməkdar Artist Rəhman Rəhmanovun 60 illiyinə həsr olunmuş tədbirlər təşkil olunmuşdur. 22 aprel tarixində Əməkdar Artist Həsən Əblucun 75 illiyinə həsr olunmuş xatirə gecəsində "Ölülər" tamaşası, 19 may tarixində Xalq Artisti Məhluqə Sadıqovanın 100 illiyinə həsr olunmuş xatirə gecəsində "Nazirin xanımı" tamaşası nümayiş etdirilmişdir. 2 iyun tarixində Azərbaycan Dövlət Rus Dram Teatrında Xalq Artisti Dina Tumarkinanın 90 və Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Xalq Artisti Yusif Vəliyevin 100, 12 iyun tarixində Azərbaycan Dövlət Musiqili Teatrında Xalq Artisti Hacıbaba Bağırovun 85 illik yubileyləri yüksək səviyyədə qeyd edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən oktyabrın 17-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Xalq Artisti Məhluqə Sadıqovanın 100 illiyinə həsr olunmuş xatirə gecəsində "Almaz" tamaşası oynanılmış, noyabrın 8-də Xalq Artisti Ağasadıq Gəraybəylinin 120, noyabrın 29-da Xalq Artisti Mikayıl Mirzənin 70 və dekabrın 18-də Hüseyn Cavidin 135 illiyi ilə əlaqədar təntənəli yubiley tədbirləri ictimaiyyət tərəfindən xüsusi maraqla qarşılanmışdır.

Azərbaycan Teatr Xadimləri İttifaqı ilə birgə 10 mart tarixində Milli Teatr Gününə həsr olunan "ZAMAN və TEATR" adlı elmi-praktiki konfrans keçirilmişdir. Tədbirdə teatr sahəsində xüsusi xidmətlər göstərmiş sənətçilərə Nazirliyin təsis etdiyi "Fəxri mədəniyyət işçisi" döş nişanı, Nazirliyin və Teatr Xadimləri İttifaqının fəxri fərmanları təqdim olunmuşdur. Respublikada fəaliyyət göstərən teatr-tamaşa müəssisələrində Milli Teatr Günü ilə əlaqədar yeni tamaşaların premyeraları və "dəyirmi masa"lar keçirilmişdir.

18 mart tarixində YUNESKO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısına daxil edilmiş Novruz bayramı ölkə başçısının müvafiq Sərəncamına uyğun olaraq respublikada böyük təntənə ilə qeyd edilmişdir. Dənizkənarı Milli Parkda Azərbaycan Respublikası Prezidentinin, hökumət, dövlət xadimlərinin və geniş ictimaiyyətin iştirakı ilə Novruz bayramı şənliyi təşkil edilmişdir. Qız Qalasının ətrafından başlayaraq Dənizkənarı Bulvar boyu davam edən bayram tədbirində respublikamızın bütün bölgələri milli adət-ənənələri, mətbəx nümunələri, kənd təsərrüfatı məhsulları ilə təmsil olunmuşlar. Tədbirdə 3000-ə yaxın mədəniyyət və incəsənət xadimi iştirak etmişdir.

Dövlət Proqramının icrasını, habelə bölgə teatrlarının fəaliyyətini dəstəkləmək, Azərbaycan teatr sənətinin inkişafı, dünya miqyasında layiqincə təmsil və təbliğ edilməsi məqsədilə 13-18 yanvar tarixində Azərbaycan Dövlət Musiqili Teatrı Ü.Hacıbəylinin "Ər və arvad" tamaşası ilə İran İslam Respublikasında 35-ci "Fəcr" Beynəlxalq Teatr Festivalında qastrol səfərində olmuş, Gəncə Dövlət Dram Teatrı 18-27 mart tarixində Əli Əmirlinin "İyirmi ildən sonra" tamaşası ilə "T.C Merzifon Belediyyesi III Uluslararası Tiyatro Fesivalı"nda iştirak etmişdir. 19-30 aprel tarixində Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı Gürcüstanda, Şimali Osetiyanın Vladiqafqaz şəhərində və Çeçenistanda qastrol səfərində olmuşdur. Qastrol səfərində gənc yazar Pərvin Nurəliyevanın "Dəcəl keçi" əsəri əsasında hazırlanmış eyniadlı tamaşa nümayiş olunmuşdur. 20-26 aprel tarixində Əməkdar Artist Şövqü Hüseynov Rusiyanın İvanovo vilayətinin Kineşma şəhərində keçirilən "İsti ürək" Beynəlxalq Teatr Festivalında N.Qoqolun "Dəlinin qeydləri" tamaşasındakı ifasına görə "Ən yaxşı kişi ifaçısı" nominasiyasında qalib gəlmişdir. 1-16 may tarixində Mingəçevir Dövlət Dram Teatrı Türkiyənin Giresun şəhərində keçirilmiş Beynəlxalq Teatr Festivalında, 26-31 may tarixində Gənc

Tamaşaçılar Teatrının baş rejissoru Bəhram Osmanov Rusiya Teatr Xadimləri İttifaqının təşkil etdiyi Beynəlxalq Rejissorlar Laboratoriyasında, 5-9 iyun tarixində Azərbaycan Dövlət Kukla Teatrı Qazaxıstan Respublikasında keçirilən "Orteke" Beynəlxalq Teatr Festivalında iştirak etmişdir. İran İslam Respublikasında keçirilmiş Azərbaycan Mədəniyyət Günləri çərçivəsində 7-8 iyun tarixində Azərbaycan Dövlət Musiqili Teatrı Üzeyir Hacıbəylinin "Ər və arvad" tamaşası ilə çıxış etmişdir.

12-17 iyun tarixində Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı "Expo 2017" çərçivəsində Astana şəhərində ənənəvi "Səhnədən salam" V Beynəlxalq Teatr Festivalında (Festival görkəmli teatr xadimi Azərbaycan Mambetovun 85 illik yubileyinə həsr olunub) L.Nurenin "Mən gəldim, qızlar" tamaşası ilə, iyun ayının 27-dən iyulun 2-dək Belarusun Moqilyovsk vilayəti Bobruysk şəhərində keçirilmiş "Dostluq çələngi" adlı xalq yaradıcılığı Beynəlxalq Festivalında P.Zyuskindin "Kontrabas" tamaşası ilə iştirak etmişdir.

28 iyun-1 iyul tarixində Lənkəran Dövlət Dram Teatrı İran İslam Respublikasının Parsabad şəhərində qastrol səfərində olmuşdur. 30 iyun-2 iyul tarixində Azərbaycan Dövlət Kukla Teatrının "Oyuq" Teatr Studiyası Bolqarıstan Respublikasının Varna şəhərində keçirilən "Golden Spartles Europian Music Festival"ında I yerə layiq görülmüşdür.

Hesabat ilinin 30 iyun tarixində Qusar Dövlət Ləzgi Dram Teatrının 25 illik təntənəli yubiley tədbirində mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Qusar rayon rəhbərliyi, elm və incəsənət xadimləri, teatrsevərlər, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişdir.

2-8 avqust tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı Bolqarıstanın Varna Bələdiyyəsinin dəstəyi ilə keçirilən Beynəlxalq Monodram Teatr Festivalında A.Məmmədovun "İuda" tamaşası, 24-28 avqust tarixində Aktau şəhərində SSRİ və Qazaxıstanın Xalq Artisti Asanali Aşımovun 80 illiyinə həsr olunmuş Xəzəryanı türkdilli ölkələrin I Beynəlxalq Teatr Festivalında "YUĞ" Dövlət Teatrı V.Klimin "Medeya" tamaşası ilə çıxış etmişlər.

30 avqust - 4 sentyabr tarixində "YUĞ" Dövlət Teatrının direktoru Tərlan Rəsulov İranın Tehran şəhərində "Dramatik Arts Center" təşkilatı tərəfindən keçirilmiş V "Ritual və Ənənəvi Teatr" Beynəlxalq Teatr Konfransında məruzəçi qismində iştirak etmişdir.

7-14 sentyabr tarixində Ufa şəhərində türkdilli ölkələrin "Tuqanlıq" VI Beynəlxalq Teatr Festivalında Gənc Tamaşaçılar Teatrı Tamara Vəliyevanın "Cəza" mono tamaşası ilə çıxış etmişdir.

Sentyabr ayının 13-də R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyevin iştirakı ilə teatr və konsert müəssisələrinin yeni mövsümdə fəaliyyətinə həsr olunmuş görüş keçirilmiş qarşıya qoyulan məqsəd və vəzifələr müzakirə edilmişdir.

Sentyabr ayında Bakıda keçirilmiş Üzeyir Hacıbəyli IX Beynəlxalq Musiqi Festivalı çərçivəsində Musiqili Teatrda nümayiş olunmuş "Arşın mal alan" və "O olmasın, bu olsun" tamaşalarını İran İslam Respublikasından dəvət olunmuş dirijor Bərdia Kiyarəs idarə etmişdir. Musiqili Teatrının rəhbərliyinin dəvəti ilə Təbrizin tanınmış kino və teatr aktyoru Camal Saqinejad teatrın cari repertuarında olan "999-cu gecə" tamaşasında şah obrazını canlandırmışdır.

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının yaradıcı kollektivi sentyabr ayının 30-dan oktyabrın 6-dək Rusiya Federasiyasının Kalmıkiya Respublikasının Elista şəhərində keçirilmiş "Keyeda" adlı Uşaq və Yeniyetmələr üçün Beynəlxalq Teatr Festivalında Abdulla Şaiqin "Tıq-tıq xanım" tamaşası ilə uğurla çıxış etmişdir.

18-20 oktyabr tarixində Azərbaycan Dövlət Kukla Teatrı Türkiyənin Adana şəhərində keçirilmiş beynəlxalq teatr festivalında "Zəng" tamaşası ilə çıxış etmişdir.

30 oktyabr-10 noyabr tarixində Rus Dram Teatrının kollektivi Rusiyanın Velikiye Luki, Pskov və Smolensk şəhərlərində qastrol səfərində olmuşdur.

"Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramının 2.21 bəndinə əsasən xarici ölkələrin tanınmış teatr kollektivlərinin, teatr sənətçilərinin Azərbaycana dəvəti nəzərdə tutulmuşdur. Dövlət Proqramı çərçivəsində 7-9 aprel tarixində Azərbaycan Dövlət Gənc

Tamaşaçılar Teatrında Rusiyanın Şimali Osetiya-Alaniya vilayətinin Vladiqafqaz Dövlət Gənc Tamaşaçılar Teatrının “Жили-были” tamaşası ilə, 20 və 21 may tarixində isə N.Dumbadze adına Gürcüstan Dövlət Professional Gənc Tamaşaçılar Teatrı “Королевская корова” tamaşası ilə çıxış etmişlər. 14-15 noyabr tarixində Azərbaycan Dövlət Musiqili Teatrında Tbilisidə fəaliyyət göstərən Ş.Rustaveli adına Gürcü Dövlət Akademik Teatrının “Mariya Kallas. Dərs” tamaşası oynanılmışdır. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Rusiyanın Rostov şəhərinin “Maksimum” Teatrının bədii rəhbəri Yelena İvanova C.Rodarinin “Çipollino” tamaşasına, Azərbaycan Dövlət Rus Dram Teatrında sankt-peterburqlu rejissor Ərşad Ələkbərov E.İoneskonun “Mərasim” tamaşasına, Moskva teatrlarında fəaliyyət göstərən sənətçilər - rejissor Vladimir Smirnov və rəssam Olqa Kuznetsova N.Nekrasovun “Peterburqlu sələmçi” tamaşasına quruluş vermişlər.

Cari ilin 22-23 dekabr tarixində Rus Dram Teatrının səhnəsində Konstantin Raykinin iştirakı ilə Rusiyanın “Satirikon” Teatrının qastrol səfəri baş tutmuşdur. Beynəlxalq əməkdaşlıq çərçivəsində Musiqili Teatrın direktoru Əliqismət Lalayev 21-26 dekabr tarixində İran İslam Respublikasının Kirmanşah vilayətində “Zaqros” Teatrının V Regional Festivalında jürinin üzvü kimi iştirak etmişdir.

Dövlət Proqramına uyğun olaraq teatr sahəsindəki islahatlar Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən bu il də davam etdirilmişdir. Belə ki, nazirliyin müvafiq əmrinə əsasən bir neçə dövlət teatrında kadr dəyişikliyi həyata keçirilmişdir. İslahatlara uyğun olaraq Namiq Qaffarov Şəki Dövlət Dram Teatrının direktoru, Oruc Qurbanov Lənkəran Dövlət Dram Teatrının, Sərvər Əliyev İrəvan Dövlət Dram Teatrının, Novruz Cəfərov Ağdam Dövlət Dram Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi, rejissor Mehriban Ələkbərzadə “Yuğ” Dövlət Teatrının baş rejissoru vəzifələrinə təyin olunmuşlar.

Musiqi

Hesabat dövrünün 19 yanvar tarixində Azərbaycan Dövlət Filarmoniyasında 20 Yanvar-Şəhidlər Gününə həsr olunmuş gecə keçirilmişdir. Tədbirdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Dövlət Xor Kapellası və solistlər çıxış etmişlər. Gecədə C.Verdinin “Rekviyem” əsəri tamaşaçılara təqdim edilmişdir.

27 yanvar 2017-ci il tarixində Azərbaycan Dövlət Filarmoniyasında Əməkdar incəsənət xadimi, bəstəkar Nazim Əliverdibəyovun 90 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir. 26-29 yanvar tarixində Naxçıvan Muxtar Respublikasının rəqs kollektivləri və onların repertuarı ilə tanışlıq məqsədilə Rusiya Federasiyasının Xalq Artisti, görkəmli baletmeyster, pedaqoq, sənətşünaslıq namizədi Dikalu Muzakayev və Azərbaycan Respublikasının Əməkdar Artisti, tanınmış bəstəkar Vüqar Camalov (Camalzadə) Naxçıvan şəhərinə ezam olunmuşlar.

Azərbaycan Respublikası Hökuməti və Dağıstan Respublikası Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki, mədəni və humanitar əməkdaşlıq haqqında 4 oktyabr 2011-ci il tarixli sazişə, habelə Dağıstanın Mədəniyyət Nazirliyinin təşəbbüsünə əsasən 3 fevral 2017-ci ildə Azərbaycan Dövlət Filarmoniyasında Rusiyanın Xalq Artisti, Dağıstanın tanınmış dirijoru Valeri Xlebnikovun Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri ilə birgə konserti keçirilmişdir.

2017-ci il fevralın 5-də dahi Azərbaycan bəstəkarı Qara Qarayevin anadan olmasının 99 ili tamam olmuşdur. Bəstəkarın doğum günündə Fəxri Xiyabandakı məzarı musiqi ictimaiyyəti tərəfindən ziyarət edilmiş, fevralın 6-da isə Bakı Musiqi Akademiyasının zalında Mədəniyyət və Turizm Nazirliyi tərəfindən sifariş olunmuş Qara Qarayevin əsərlərinin orqan üçün işləmələrindən ibarət CD-nin təqdimat mərasimi keçirilmişdir. 7 fevral tarixində Azərbaycan Dövlət Filarmoniyasında sənətkara həsr olunmuş konsert keçirilmişdir. Eyni zamanda 2017-ci il fevralın 17-də Azərbaycan Dövlət Filarmoniyasında tanınmış bəstəkar, Əməkdar incəsənət xadimi, dahi Qara Qarayev məktəbinin layiqli davamçısı Məmməd Quliyevin 80 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.

Fevralın 24-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Xocalı soyqırımının 25-ci ildönümü münasibətilə faciə qurbanlarının xatirəsinə həsr olunan musiqili anım mərasimi keçirilmişdir.

3 mart 2017-ci il tarixində Heydər Əliyev Sarayında Rusiyanın Xalq artisti, görkəmli baletmeyster Dikalu Muzakayevin Azərbaycan Dövlət Rəqs Ansamblı üçün hazırladığı yeni konsert proqramı təqdim olunmuşdur

7 mart 2017-ci il tarixində Azərbaycan Dövlət Filarmoniyasında tanınmış bəstəkar, Əməkdar incəsənət xadimi, dahi Qara Qarayev məktəbinin layiqli davamçısı, professor Azər Dadaşovun 70 illik yubileyinin keçirilmişdir. 21 mart 2017-ci il tarixində Cenevrədə BMT bölməsinin "Millətlər Sarayı"nda Azərbaycan, Albaniya, Əfqanıstan, İraq, İran, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Pakistan, Tacikistan, Türkmənistan və Türkiyə daimi nümayəndəliklərinin birgə təşkilatçılığı ilə keçirilən "Beynəlxalq Novruz Günü"nə həsr olunmuş tədbirdə Xalq artisti, Prezident mükafatçısı, professor, muğam ustası Mənsum İbrahimov, Əməkdar artistlər – tarzən Elçin Həşimov və kamança ifaçısı Elnur Əhmədov iştirak etmişlər.

Bakı Musiqi Akademiyasının professorları, xalq artistləri Fidan və Xuraman Qasımovaların İtaliyanın Florensiya şəhərində ustad-dərslərinin və konsertlərinin keçirilməsi məqsədilə xalq artistləri, habelə konsertmeyster Rəna Ağayeva cari il mart ayının 21-dən 26-dək Florensiya şəhərinə ezam olunmuşlar.

6-8 aprel tarixində tanınmış pianoçu, Beynəlxalq müsabiqələr laureatı, Xalq artisti, professor Murad Hüseynov Niderland Krallığında "Amsterdam Royal Concertgebouw" salonunda Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi, Xalq artisti, professor Firəngiz Əlizadənin "Nasimi Passion" əsərinin premyerasında rəsmi qonaq qismində iştirak etmişdir.

Hesabat dövrünün 10 aprel tarixində Heydər Əliyev Sarayında Bakı Ticarət Festivalının təntənəli açılış mərasimində Rusiyanın Xalq artisti, görkəmli baletmeyster Dikalu Muzakayevin Azərbaycan Dövlət Rəqs Ansamblı üçün hazırladığı yeni konsert proqramı təqdim olunmuşdur. Gecədə Dövlət Rəqs Ansamblının "Azərbaycanım" adlı möhtəşəm konsert proqramı və "Koroğlu" bir pərdəli milli baletin premyerası böyük maraqla qarşılanmışdır.

Azərbaycan Respublikası Prezidentinin "Mstislav Rostropoviçin 90 illik yubileyinin keçirilməsi haqqında" 10 fevral 2017-ci il tarixli, 2663 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə 2017-ci il 23-27 aprel tarixində Heydər Əliyev Fondu, Mstislav Rostropoviç Fondu və Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Bakıda IX Beynəlxalq Rostropoviç Festivalı keçirilmişdir. Eyni zamanda Sərəncama uyğun olaraq 24 sentyabr tarixində Azərbaycanın Polşadakı səfirliyinin təşəbbüsü ilə Varşava şəhərində Kral Sarayının konsert zalında dünya şöhrətli musiqiçi Mstislav Rostropoviçin 90 illiyinə həsr olunmuş yubiley tədbir böyük maraqla qarşılanmışdır.

2 may 2017-ci il tarixində Azərbaycan Dövlət Filarmoniyasında görkəmli tarzən, Xalq artisti, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, Dövlət mükafatı laureatı, professor Ramiz Quliyevin - 70, 19 may 2017-ci il tarixində İslam Həmrəyliyi Oyunları çərçivəsində Azərbaycan Dövlət Filarmoniyasında Xalq artisti, Dövlət mükafatı laureatı, "Şöhrət" və "Şərəf" ordenli Aqşin Əlizadənin – 80, 30 may 2017-ci il tarixində görkəmli kamança ustası, Xalq artisti, Prezident təqaüdçüsü, Heydər Əliyev Fondunun mükafatçısı, "Şöhrət" və "İstiqlal" ordenli Habil Əliyevin – 90, 2 iyun 2017-ci il tarixində Azərbaycan Dövlət Filarmoniyasında görkəmli bəstəkar, Xalq artisti, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, dahi Qara Qarayev məktəbinin layiqli davamçısı Firəngiz Əlizadənin – 70 illik yubiley gecələri keçirilmişdir.

Cari ilin 12 iyun tarixində Azərbaycan Dövlət Filarmoniyasında Böyük Britaniyanın "Salamanka" hərbi orkestrinin və Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Orkestrinin birgə konserti keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Cövdət Hacıyevin 100 illik yubileyinin keçirilməsi haqqında" 7 fevral 2017-ci il tarixli, 2657 nömrəli Sərəncamının icrasının təmin edilməsi məqsədilə Mədəniyyət və Turizm Nazirliyinin 23 fevral 2017-ci il tarixli 42 nömrəli əmri ilə təsdiq

edilmiş Tədbirlər planına əsasən Cövdət Hacıyevin 100 illiyinə həsr olunmuş musiqi festivalı çərçivəsində 2017-ci il 25 may tarixində Cövdət Hacıyev adına 3 nömrəli onbirillik musiqi məktəbinin şagirdlərindən ibarət "Cövdət Hacıyev gənclərin ifasında" adlı konsert, 14 iyun tarixində Azərbaycan Bəstəkarlar İttifaqında Cövdət Hacıyevin həyat və yaradıcılığına həsr olunmuş konfrans və bəstəkarın kamera-instrumental əsərlərindən ibarət konsert, 16 iyun tarixində Azərbaycan Dövlət Filarmoniyasında yubiley gecəsi keçirilmişdir.

17 iyun tarixində Heydər Əliyev Sarayında görkəmli müğənni, Xalq artisti, Prezident təqaüdçüsü, "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenli, Dövlət mükafatı laureatı Fidan Qasımovanın 70 illik yubileyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.

28 iyul – 3 avqust 2017-ci il tarixində IX Qəbələ Beynəlxalq Musiqi Festivalı keçirilmişdir. Festivalda Azərbaycan incəsənət ustaları və kollektivləri ilə yanaşı xarici ölkələrdən dəvət olunmuş musiqiçilər də iştirak etmişlər.

9 sentyabr 2017-ci il tarixində İndoneziya Respublikasının Azərbaycandakı Səfirliyinin təşəbbüsü və Mədəniyyət və Turizm Nazirliyinin təşkilati dəstəyi ilə Heydər Əliyev Sarayında ikinci İndoneziya Mədəniyyət Festivalı keçirilmişdir. Festivalda İndoneziyanın məşhur caz musiqiçisi Diki Darmava çıxış etmiş, eyni zamanda azərbaycanlı tələbələr və İndoneziyanın professional rəqqasları bu ölkənin ənənəvi və milli rəqs nömrələrini təqdim etmişlər.

17 sentyabr tarixində Heydər Əliyev Sarayında F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının rəqs qrupu, muğam üçlüyü və koreyalı musiqiçilərin iştirakı ilə Koreya və Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinə həsr olunmuş tədbir keçirilmişdir.

18-26 sentyabr tarixində Heydər Əliyev Fondunun və Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Bakıda Üzeyir Hacıbəyli IX Beynəlxalq Musiqi Festivalı keçirilmişdir. Festivalda Rusiya, Fransa, Almaniya, İran, Türkiyə, Ukrayna, Bolqarıstan, Gürcüstandan tanınmış musiqiçilər və kollektivlər iştirak etmişlər.

Azərbaycan və Vyetnam arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyi ilə əlaqədar dirijor, Xalq artisti, Prezident mükafatçısı, professor Yalçın Adıgözəlov və Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, Xalq artisti, Prezident mükafatçısı Azər Zeynalov Vyetnama ezam olunmuş, 29 sentyabr 2017-ci il tarixində Hanoy Dövlət Konservatoriyasında simfonik orkestr ilə birgə təşkil olunmuş konsertdə ilk dəfə olaraq Azərbaycan musiqi nümunələri səslənmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarının icrasının təmin edilməsi məqsədilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən cari ilin 7 oktyabr tarixində Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycanın ilk qadın opera müğənnisi, SSRİ Xalq artisti, professor Şövkət Məmmədovanın 120, 28 oktyabr tarixində Heydər Əliyev Mərkəzində görkəmli müğənni, SSRİ Xalq artisti Müslüm Maqomayevin 75, 20 noyabr tarixindəgörkəmli dirijor, Xalq artisti Rauf Abdullayevin 80, 1 dekabr tarixində görkəmli bəstəkar Xalq artisti Emin Sabitoğlunun 80, 22 dekabr tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında Azərbaycan professional vokal məktəbinin banisi, SSRİ Xalq artisti Bülbülün 120 illik yubiley tədbirləri yüksək səviyyədə qeyd edilmişdir.

2017-ci il ərzində Azərbaycan musiqi sənəti nümunələri xarici ölkələrdə, o cümlədən Rusiya Federasiyasında yüksək səviyyədə təmsil olunmuşdur. Cari ilin 26 oktyabr tarixində Moskva şəhərində P.İ.Çaykovski adına Konsert Zalında Azərbaycan Dövlət Rəqs Ansamblının Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə hazırlanmış yeni konsert proqramının təqdimatı olmuş, oktyabr ayı ərzində Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi və "Kultura" telekanalı rəhbərliyinin dəvəti ilə Əməkdar artist, Müslüm Maqomayev adına Vokalçıların Beynəlxalq müsabiqəsinin Qran-Pri laureatı, Azərbaycan Dövlət Xor Kapellasının artisti İlham Nəzərov ilk dəfə olaraq "Bolşaya Opera" müsabiqəsində iştirak etmiş, 13 dekabr tarixində Moskvada P.İ.Çaykovski adına Konsert Zalında görkəmli Azərbaycan pianoçusu, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı, professor Fərhad Bədəlbəylinin 70 illiyinə həsr olunmuş tədbirdə pianoçu ilə birgə Xalq artisti Murad

Adıgözəlzadə, tanınmış Azərbaycan dirijorları Xalq artisti Yalçın Adıgözəlov, Əməkdar artistlər Əyyub Quliyev və Fuad İbrahimov çıxış etmişlər.

Eyni zamanda Azərbaycan və Almaniya arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyi münasibətilə də tədbirlər keçirilmiş, Nazirlik tərəfindən "Cəngi" etno-caz qrupu Azərbaycan Respublikasının Almaniyadakı səfirliyinin təşəbbüsü ilə cari ilin 4 dekabr tarixində Berlin şəhərində təşkil olunmuş konsertdə iştirak etmək üçün Almaniyaya ezam olunmuşdur.

Təsviri və dekorativ sənət

Hesabat dövrünün ən əlamətdar hadisələrindən biri fevralın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Bakının Niyazi küçəsində yerləşən parkda görkəmli dirijor, SSRİ Xalq Artisti, maestro Niyazinin abidəsinin açılış mərasimidir. Büründən hazırlanan heykəlin müəllifi Xalq rəssamı Ömər Eldarov, memarı isə Əməkdar memar Elbay Qasımzadədir. Hündürlüyü 3, pyedestalının hündürlüyü isə 1 metrə yaxın olan abidənin üst plitəsi royalın qapağı formasında, pyedestalı isə qara qranitdən hazırlanıb.

Azərbaycan Respublikasının müstəqilliyi uğrunda canlarını qurban verən 20 Yanvar şəhidlərinin xatirəsinin anılması məqsədi ilə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası, Azərbaycan Rəssamlar İttifaqı və Muzey Mərkəzinin birgə təşkilatçılığı ilə yanvarın 17-də Muzey Mərkəzində "Unudulmayanlar" adlı tədbir keçirimişdir. Həmçinin fevralın 24-də Xətai Sənət Mərkəzində Xocalı soyqırımının 25-ci ildönümünə həsr olunmuş "Şəhid şəhər" adlı rəsm sərgisi açılmışdır. Məktəblilərin əl işlərindən ibarət eyniadlı rəsm müsabiqəsinin yekun sərgisi Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Dövlət Rəsm Qalereyası, Xətai Rayon İcra Hakimiyyəti və Xətai Sənət Mərkəzinin birgə təşkilatçılığı ilə gerçəkləşmişdir. Sərgidə paytaxtımız və bölgələrimizdən 110 məktəblinin 118 rəsm əsəri nümayiş olunmuş, qaliblər mükafatlandırılmışdır.

Cari ilin 7-10 mart tarixində Heydər Əliyev Fondunun təşəbbüsü, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Milli İncəsənət Muzeyində Moskvada yaşayan həmyerlimiz, Rusiya Federasiyasının Əməkdar rəssamı Əsgər Məmmədovun "Qadın xoşbəxtliyi" adlı fərdi yaradıcılıq sərgisi keçirilmişdir. Sərgidə nümayiş olunan əsərlərdə sülh, dostluq və sevgi motivləri, başqa mədəniyyətlərə və sivilizasiyalara hörmət hisslərinin tərənnümü ilə yanaşı Azərbaycan folklorunun, çoxəsrlik miniatür sənətinin, al-əlvan xalçalarının və bənzərsiz təbiətinin təsiri duyulurdu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 11 oktyabr 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü ilə bağlı Tədbirlər Planı"nın icrası məqsədi ilə nazirliyin təsdiq edilmiş müvafiq Tədbirlər Planına əsasən 2016-cı il dekabr ayının 28-də keçirilmiş rəsm müsabiqəsinin yekunu olaraq cari ilin 1 mart tarixində "Rəngkarlıq, qrafika və heykəltəraşlıq sərgi-müsabiqəsi"nin və "Plakat müsabiqəsi"nin qaliblərinin mükafatlandırılması mərasimi keçirilmişdir.

Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunun komplektləşdirilməsi məqsədi ilə Moskvada yaşayan həmyerlimiz, tanınmış rəssam Abbas Kazımovun "Qaçqınlar" silsiləsindən olan 4 ədəd rəngkarlıq əsəri nazirlik tərəfindən alınmışdır.

Azərbaycanın Bolqarıstandakı Səfirliyi, Bolqarıstan Milli İncəsənət Qalereyası və bu ölkədə fəaliyyət göstərən "Rila Style" şirkətinin birgə təşkilatçılığı ilə cari ilin 4-6 aprel tarixində Azərbaycanla Bolqarıstan arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinə həsr edilmiş Bolqarıstan Milli İncəsənət Qalereyasında "Azərbaycan sehrli rənglər kainatı" adlı rəsm sərgisində tanınmış Azərbaycan rəssamlarının əsərləri nümayiş etdirilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Bakı İncəsənət Mərkəzi Yaradıcılıq Birliyi birliyinin birgə təşkilatçılığı ilə 2017-ci il 7-13 aprel tarixində "Azərbaycan bədii plakatı: 1995-2005-ci illər" adlı sərgi keçirmişdir. Sərgidə plakat kolleksiyasının 60-a yaxın mükafata layiq görülmüş nümunələri nümayiş olunmuşdur.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və "Xətai" Sənət Mərkəzinin birgə təşkilatçılığı ilə 2017-ci il 11-13 aprel tarixində Muzey Mərkəzinin Sərgi qalereyasında

rəssam Cəlal Ağayevin İslam Həmrəyliyi İlinə həsr olunmuş “Yeddi Gözəl” adlı fərdi yaradıcılıq sərgisi keçirilmişdir. Həmçinin rəssamın yaradıcılığının bütün istiqamətlərini əks etdirən sənət əsərlərindən ibarət nəfis tərtibatlı kataloq çap olunmuşdur.

Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə İtaliyanın Venesiya şəhərində keçirilən “Viva Arte Viva” adlı 57-ci Venesiya Biennalesində Azərbaycan Pavilyonu təşkil olunmuşdur. Azərbaycan Pavilyonu hesabat dövrünün may-noyabr ayları ərzində fəaliyyət göstərmişdir.

Cari ilin 2-8 may tarixində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Dövlət Rəsm Qalereyası tərəfindən Muzey Mərkəzində “İRS”. Respublikanın sərvəti. Ölkəmizin tarix səhifələri qrafika və heykəltəraşlıq əsərlərində adlı sərgi keçirilmişdir.

2017-ci il 5-13 iyun tarixində Ufa şəhərində keçirilmiş xalq sənəti və folklor festivalları təşkilatlarının Beynəlxalq Şurasına (CİOFF) daxil olan üzv ölkələrin fotoqraflarının “Başqırdıstan. Təbiət. İnsan. Mədəniyyət – 2017” XXVII Beynəlxalq aksiyasında Azərbaycanı təmsil etmək üçün Azərbaycan Fotoqraflar Birliyinin sədr müavini Rauf Umudov Başqırdıstanın Ufa şəhərinə ezam olunmuşdur.

Hesabat dövrünün mühüm hadisələrindən biri 2017-ci il iyulun 3-dən 9-dək İranda keçirilmiş Azərbaycan mədəniyyət günləri çərçivəsində Tehran, İsfahan, Ərdəbil şəhərlərində teatr tamaşaları, filmlər, konsert proqramları nümayiş olunmuş, fotosərgi açılmışdır. İranda keçirilən Azərbaycan mədəniyyəti günləri çərçivəsində 4 iyul tarixində Tehranın İran İncəsənət Akademiyasında ölkəmizin tarixini və müasir dövrünü əks etdirən “Azərbaycan dünən, bu gün, sabah” adlı fotosərgi təqdim edilmişdir. Sərginin açılışında Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, İranın mədəniyyət və islami irşad nazirinin müavini Əli Muradxani, akademiyanın rektoru, tanınmış bəstəkar, şair və rəssam Əli Müəllimi, incəsənət xadimləri, Tehran şəhər ictimaiyyəti, İranda yaşayan soydaşlarımız iştirak etmişlər. “Azərbaycan dünən, bu gün, sabah” fotosərgisi ziyarətçilər tərəfindən maraqla qarşılanmışdır.

Cari ilin 7 sentyabr tarixində Ağsu Heydər Əliyev Mərkəzində 26-30 sentyabr tarixində Azərbaycan Milli İncəsənət Muzeyində Xalq rəssamı Asəf Cəfərovun anadan olmasının 90 illiyi münasibətilə rəssamın əsərlərindən ibarət sərgilər təşkil edilmişdir.

2017-ci il oktyabr ayının 3-də BMT Cenevrə Bölməsinin yerləşdiyi Ariana parkında Azərbaycan Respublikasının BMT-yə üzvlüyünün 25 illiyinə həsr olunmuş “Düşüncələr və arzular” adlı Azərbaycan abidəsinin açılışı olmuşdur. Abidənin açılışında Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov, BMT-nin Cenevrə bölməsinin rəhbəri Mixael Möller, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, ölkəmizin BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Vaqif Sadıqov, mərkəzi qərargahı Cenevrədə yerləşən bir sıra beynəlxalq təşkilatların rəhbərləri, BMT-nin Cenevrə bölməsinin struktur rəhbərləri və əməkdaşları iştirak etmişlər. Abidə Azərbaycan Respublikası adından BMT Cenevrə bölməsinə hədiyyə olunmuşdur.

Xalq rəssamı, görkəmli heykəltəraş Tokay Məmmədovun 3-7 oktyabr tarixində Muzey Mərkəzində 90 illik yubiley sərgisi keçirilmişdir. Sərgidə heykəltəraşın Azərbaycan Dövlət Rəsm Qalereyasının fondundan, şəxsi kolleksiyasından seçilmiş heykəltəraşlıq, qrafika və arxivindən seçilmiş fotoşəkillər nümayiş etdirilmişdir.

Görkəmli Azərbaycan rəssamı Həsən Haqverdiyevin 100 illik yubileyi münasibətilə 2017-ci il oktyabrın 24-dən 28-dək Muzey Mərkəzinin Sərgi Qalereyasında “Davam” adlı sərginin açılış mərasimi keçirilmişdir. Sərgidə Həsən Haqverdiyevin Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyasının fondlarından, ailə və digər şəxsi kolleksiyalardan seçilmiş əsərləri ilə yanaşı böyük sənətkarın yaradıcılıq yolunu davam etdirən, Haqverdiyevlər ailəsindən olan Əli, Hüseyn, Saida, Ucal, Yelena, Bütünay, Sabina və Fərhadın yaradıcılığına aid əsərlər də nümayiş olunmuş, bundan əlavə rəssamın həyat və yaradıcılığından bəhs edən nəfis tərtibatlı kataloq çap olunmuşdur.

Cari ilin 31 oktyabr – 3 dekabr tarixində Rusiya Federasiyası ilə mədəni əlaqələrin genişləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin

təşkilatçılığı ilə Əməkdar rəssam İrina Eldarovanın Rusiya Rəssamlıq Akademiyasında “Qızlar neftçilərə üstünlük verir!” adlı fərdi yaradıcılıq sərgisi keçirilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə 3 noyabr 2017-ci il tarixində anadan olmasının 100 illiyi münasibəti ilə Azərbaycanın əməkdar rəssamı Həsən Haqverdiyevin əsərlərinin Balakən rayonundakı Heydər Əliyev Mərkəzində təqdimatı keçirilmişdir.

2017-ci ilin 6-11 noyabr tarixində Özbəkistanla Azərbaycan arasında mədəni əməkdaşlığın genişləndirilməsi və ölkəmizin incəsənətinin təbliği məqsədi ilə Özbəkistan Respublikasında keçirilmiş I Daşkənd Dekorativ-tətbiqi sənət Beynəlxalq Festivalında Azərbaycan Respublikasının Əməkdar rəssamı İnna Kostina iştirak etmişdir.

Cari il noyabr ayının 10-dan 15-dək Muzey Mərkəzində Xalq rəssamı Mirnadir Zeynalovun 75 illik yubileyinə həsr olunmuş sərgi keçirilmişdir. Ekspozisiyada Azərbaycan Dövlət Rəsm Qalereyasının fondundan və rəssamın şəxsi kolleksiyasından seçilmiş 100-dən çox əsər sərgilənmişdir. Eyni zamanda sənətkarın həyat və yaradıcılıq yolunu əks etdirən kitab çap olunmuşdur.

Hesabat dövründə noyabr ayının 28-dən dekabrın 3-dək Muzey Mərkəzinin Sərgi Qalereyasında Niyaz Nəcəfovun fərdi yaradıcılıq sərgisi keçirilmişdir. Sərgidə Müasir İncəsənət Muzeyinin fondundan və rəssamın şəxsi kolleksiyasından seçilmiş əsərlər nümayiş olunmuşdur. Rəssamın əsərlərinin fotolarından ibarət kataloq çap edilmişdir.

“Yarat!” Müasir İncəsənət Məkanı tərəfindən keçirilən sərgilərə, konfranslara Mədəniyyət və Turizm Nazirliyi tərəfindən zəruri dəstək verilmiş bir sıra yaddaqalan tədbirlər keçirilmişdir.

Dövr ərzində Azərbaycan rəssamlarının əsərləri alınaraq Azərbaycan Milli İncəsənət Muzeyi və Azərbaycan Dövlət Rəsm Qalereyasının fondlarına daxil edilmişdir.

Hesabat dövründə Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərən dövlət rəsm qalereyalarında çoxsaylı sərgilər təşkil olunmuş, ustad dərsləri keçirilmişdir. Azərbaycan Dövlət Rəsm Qalereyasının İnternet saytı və Azərbaycan Rəssamlarının Vahid İnformasiya Bazası yaradılaraq istifadəyə verilmişdir.

Dövlət əhəmiyyətli tədbirlərin təşkili

Hesabat dövründə Heydər Əliyev Fondu və Mədəniyyət və Turizm Nazirliyinin birgə təşkilatçılığı ilə bir sıra dövlət əhəmiyyətli tədbirlər təşkil olunmuşdur. Belə ki, 25-31 yanvar tarixində İsveçrənin St. Moritz şəhərində keçirilən Qar Polosu üzrə Dünya Kuboku yarışlarında Heydər Əliyev Fondu, Azərbaycan Atçılıq Federasiyası və Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanın iştirakı təmin edilmişdir. Yarışların bədii hissəsində iştirak etmək məqsədilə Azərbaycan Dövlət Rəqs Ansamblının kollektivi yanvar ayının 24-dən 31-dək İsveçrəyə ezam olunmuşdur. 28 fevral tarixində Heydər Əliyev Fondu və Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Moskva şəhərində Xocalı soyqırımının 25-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilmişdir. Anım tədbirində iştirak etmək məqsədilə Xalq artisti, vokal ifaçısı Samir Cəfərov və Əməkdar artist, vokal ifaçısı Afaq Abbasova fevral ayının 26-dan mart ayının 2-dək Moskva şəhərinə ezam olunmuşlar.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə 7 mart tarixində “JW Marriott Absheron” otelində keçirilən 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə tədbirin iştirakçıları üçün Mədəniyyət və Turizm Nazirliyi tərəfindən konsert proqramı təşkil edilmişdir.

Hesabat dövrünün 16-17 mart tarixində “Beynəlxalq münasibətlərin gələcəyi: güc və maraqlar” mövzusuna həsr olunmuş V Qlobal Bakı Forumu keçirilmişdir. 16 mart tarixində Heydər Əliyev Mərkəzində forum iştirakçıları üçün Azərbaycan Dövlət Simli Kvarteti və Xalq artisti Ənvər Sadıqovun rəhbərliyi ilə “Qaytağı” ansamblının ifasında konsert proqramı təşkil olunmuşdur.

Beynəlxalq Muğam Mərkəzində 7 aprel tarixində Azərbaycan memarı və rəssamı, Əməkdar memar, Dövlət mükafatı laureatı, Beynəlxalq Memarlıq Akademiyasının üzvü Rasim Əliyevin “Xatirələr” kitabının təqdimat mərasimi keçirilmişdir. Təqdimat mərasimi çərçivəsində

Beynəlxalq Muğam Mərkəzində konsert proqramı və Rasim Əliyevin kitablarından ibarət sərgi təşkil olunmuşdur.

Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində may ayının 21-də Azərbaycan Mədəniyyətinə həsr olunmuş "Qafqaz irsi" adlı festival keçirilmişdir. Tədbirdə müğənni Xəyyam Nisanovun iştirakı ilə konsert proqramı böyük maraqla qarşılanmışdır.

İsveçin Stokholm şəhərində cari ilin 23 may tarixində "Hogalid" kilsəsində Azərbaycan caz musiqisinin dünyada tanıdılması məqsədilə Əməkdar Artistlər saksofon ifaçısı Rain Sultanovun və pianoçu İsfar Sarabskinin iştirakı ilə konsert proqramı təşkil olunmuşdur.

ABŞ-nın Nyu York şəhərində Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatına üzv olmasının 25 illiyi münasibətilə rəsmi nümayəndələrin iştirakı ilə may ayının 25-də tədbir təşkil olunmuşdur. Tədbirin bədii hissəsində Ənvər Sadıqovun rəhbərliyi ilə musiqi kollektivi iştirak etmişdir.

Fransanın Evian şəhərində 2 iyul tarixində muğam triosunun iştirakı ilə (Rövşən Qurbanov, Toğrul Əsədullayev, Günay İmamverdiyeva) konsert proqramı keçirilmişdir.

Cari ilin 9 iyul tarixində Qazaxıstan Respublikasının Astana şəhərində "EXPO-2017 Gələcəyin enerjisi" Beynəlxalq Sərgisi çərçivəsində Azərbaycan Günləri keçirilmişdir.

Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Azərbaycan mədəniyyətini, tarixini, bütövlükdə ölkəmizi tanıtmaq məqsədilə 11-12 iyul tarixində Fransanın Kann şəhərində caz və milli musiqimizdən ibarət konsertlər təşkil olunmuşdur.

Koreya Respublikasının Seul şəhərində 6-10 sentyabr tarixlərində "Dünya Memarlar Konqresi" keçirilmişdir. Tədbirin bədii hissəsində "Mirvari" rəqs ansamblı və Şəhriyar İmanovun rəhbərliyi ilə caz qrupu iştirak etmişdir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Mədəniyyət Fondunun təşkilatçılığı ilə 20-28 oktyabr tarixində Bakı Beynəlxalq Caz Festivalı keçirilmişdir. Festivalda Rusiya, ABŞ, İspaniya, İsveç, Braziliya, Türkiyə, Avstriya, Almaniyadan dünya şöhrətli musiqiçilər, kollektivlər iştirak etmişlər.

Heydər Əliyev Mərkəzində 14 noyabr tarixində Yeni Azərbaycan Partiyasının 25 illiyinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirin bədii hissəsində "Dan ulduzu" ansamblı və solistlər iştirak etmişlər.

MUZEY İŞİ

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Azərbaycan xalqının tarixi-mədəni irsinin, maddi mədəniyyət nümunələrinin qorunması, onların tanıdılması məqsədilə geniş miqyasda daim təbliğat işi aparılır, muzey işinin inkişafı istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir.

Hesabat dövründə 20 Yanvar faciəsinin 27-ci və Xocalı Soyqırımının 25-cü ildönümləri ilə bağlı Bakı şəhərində fəaliyyət göstərən Azərbaycan Milli İncəsənət, Azərbaycan Xalça, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət, Azərbaycan İstiqlal muzeylərində, habelə respublikanın muzey və Heydər Əliyev mərkəzlərində silsilə tədbirlər, sərgilər, xatirə görüşləri, mühazirələr, tarix dərsləri, faciənin şahidləri ilə görüşlər keçirilmiş, şəhidlər xiyabanı, digər abidələr ziyarət edilmişdir. Belə ki, 2017-ci il fevralın 22-də Azərbaycan İstiqlal Muzeyinin ekspozisiyasında "Xocalı soyqırımı dünyanın gözü ilə" adlı tədbir-sərgidə 30 fotoşəkil nümayiş olunmuşdur. Tədbirdə Xocalı şəhəri 2 saylı tam orta məktəbin şagirdlərinin hazırladığı "Xocalıya ədalət" adlı kompozisiya təqdim olunmuşdur. Həmçinin fevralın 22-də Nəriman Nərimanovun Xatirə Muzeyində Xocalı faciəsinin 25-ci ildönümünə həsr olunmuş "Ədalət gözləyən Xocalı" adlı tədbir keçirilmişdir. Tədbir iştirakçıları muzeyin foyesində Xocalı soyqırımına həsr edilmiş kitab, jurnal, qəzet və fotolardan ibarət sərgi ilə tanış olmuşlar. Qanlı hadisələr zamanı əsir düşən Xocalı sakini Dürdanə Ağayeva çıxışı zamanı həmin dəhşətli gecədə baş verənləri ürək yanğısı ilə danışmış və 8 gün əsirlik həyatına həsr etdiyi "Erməni zindanında 8 gün" və yenicə çapdan çıxmış "Yarım qalmış ömürlər" kitabı haqqında məlumat

vermişdir. Tədbirdə həmçinin gənc rəssam Günay Mehdizadənin Xocalı soyqırımına həsr etdiyi "Bir baxışla Xocalı faciəsini yaşa" adlı rəsm əsəri təqdim olunmuşdur.

23 fevral tarixində Azərbaycan Dövlət Dəniz Akademiyasının akt zalında Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi və Azərbaycan Dövlət Dəniz Akademiyası ilə birgə Xocalı faciəsinin 25-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə "Azərbaycanfilm"in istehsalı olan "İgid" adlı sənədli film nümayiş olunmuşdur.

Azərbaycan Milli İncəsənət Muzeyində fevralın 24-də Xocalı faciəsinə həsr olunmuş silsilə tədbirlər keçirmişdir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının gənc rəssamları "İncəsənət Ədalət Naminə" mövzusunda bədii kompozisiyalar yaratmışlar. Faciə ilə bağlı Hərbi Dəniz Qüvvələrinin qərargahında Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılan əsərlərdən ibarət səyyar sərgi təşkil edilmişdir. Heydər Əliyev Fondu və "Xocalıya ədalət" beynəlxalq maarifləndirmə kampaniyasının hazırladığı təqdimat tamaşaçıların böyük marağına səbəb olmuşdur. Tədbirin iştirakçıları, yerli və xarici tamaşaçılar, eyni zamanda muzeyin fəxri qonaqlarına "Xocalıya ədalət" beynəlxalq maarifləndirmə kampaniyasının təmin etdiyi təbliğat-təşviqat materialları təqdim edilmişdir.

Tvinninq layihəsi çərçivəsində müxtəlif istiqamətlər üzrə fevral ayından başlayaraq mədəniyyət sektorunda təmsil olunan qurumlar üçün təlim kurslarına start verilmişdir. "Mədəniyyət sərvətlərinin qanunsuz ticarəti ilə mübarizədə istintaq texnikaları və beynəlxalq normalar", "Layihə Dövrünün İdarə olunması", "Mədəniyyət sektorunun idarə edilməsində dövlət və özəl sektor tərəfdaşlığı – İtaliya təcrübəsi" və məxsusi olaraq muzeylər üçün nəzərdə tutulmuş "Dəyişikliyin gətirdiyi çətinliklər: 21-ci əsrdə muzeyin idarə edilməsi", "Muzey kolleksiyalarının mühafizəsi: Pinakotekadi Brera Qalereyasında dəzgah rəssamlığı əsərlərinin konservasiyası" mövzuları üzrə təlim kursları keçirilmiş və Bakı şəhərində fəaliyyət göstərən muzey əməkdaşları bu kurslarda iştirak etmişlər.

18 mart tarixində Azərbaycan Milli İncəsənət Muzeyində Novruz bayramına həsr edilmiş konsert keçirilmişdir. Maraqla qarşılanan konsertdə Bülbül adına orta ixtisas Musiqi Məktəbinin şagirdlərinin ifasında Ü.Hacıbəyovun "Cəngi", Şopenin "Vals", F.Əmirovun "Məhəbbət rəqsi", T.Quliyevin "Bahar nəğməsi" kimi görkəmli dünya və Azərbaycan bəstəkarlarının kompozisiyaları və xalq mahnıları səsləndirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" 2007-ci il 6 mart tarixli Sərəncamı və 22 may 2009-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi Tədbirlər Planı"nın icrası respublikada muzeylərin inkişafına güclü təkan vermiş, Bakı şəhərində və ölkəmizin əksər regionlarında müasir tipli yeni muzeylərin fəaliyyət göstərməsinə, tamaşaçıların, o cümlədən xarici turistlərin sayının artmasına imkanlar yaranmışdır.

Tərtər Tarix-Diyarşünaslıq Muzeyi üçün rayon İcra Hakimiyyəti tərəfindən yeni bina inşa edilmiş və nazirlik tərəfindən binada bədii tərtibat işləri həyata keçirilmişdir. Həmçinin Ağcabədi Tarix-Diyarşünaslıq Muzeyinin binasında nazirlik tərəfindən təmir, bərpa işləri aparılmış və bədii tərtibat işləri həyata keçirilmişdir. Hər iki muzeyin açılışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak etmişdir.

Azərbaycan Tibb Universitetində tədris muzeyinin yaradılması ilə bağlı muzeyin fondunda qorunub saxlanılan və ekspozisiyasında nümayiş olunan eksponatların Azərbaycan Respublikası muzey sərvətlərinin və muzey kolleksiyasının uçotu və mühafizəsinə dair təlimata uyğun olaraq qeydə alınması və lazımi metodiki köməklik göstərilməsi və tövsiyələrin verilməsi məqsədilə nazirliyin əməkdaşları tərəfindən muzeyə baxış keçirilmiş, əməli və metodiki köməklik göstərilmiş, nazirliyin müvafiq məktubuna əsasən muzey nazirliyinin ictimai əsaslarla fəaliyyət göstərən rəsmi muzeylər reyestrinə daxil edilmişdir.

Azərbaycan dövlətinin uğurlu mədəniyyət siyasəti nəticəsində son illər dünyanın nüfuzlu muzeyləri ilə əlaqələr genişlənmiş, beynəlxalq əməkdaşlıq sahəsində nailiyyətlər əldə edilmişdir. Hesabat dövründə Azərbaycan və Rusiya muzeyləri arasında əlaqələrin inkişaf

etdirilməsi məqsədilə muzey işi sahəsində müxtəlif səpgili mübadilə layihələri həyata keçirilir, sərgilər təşkil olunur.

Heydər Əliyev Fondunun təşəbbüsü və Mədəniyyət və Turizm Nazirliyinin 17 oktyabr 2016-cı il tarixli əmri ilə 14 noyabr 2016-cı il tarixindən 12 mart 2017-ci il tarixinədək Rusiya Federasiyasının Dövlət Tretyakov Qalereyasında "Abşeron ulduzları. 1960-1980-ci illər Azərbaycan İncəsənəti" mövzusunda keçirilən sərgidə digər incəsənət əsərləri ilə yanaşı Azərbaycan Milli İncəsənət Muzeyinin və Azərbaycan Dövlət Rəsm Qalereyasında qorunub saxlanılan 13 ədəd əsərin nümayişi həyata keçirilmişdir.

Layihənin davamı olaraq Mədəniyyət və Turizm Nazirliyinin müvafiq əmrinə əsasən aprel-iyun aylarında Sankt-Peterburq şəhərində yerləşən Dövlət Rus Muzeyində qeyd edilən əsərlər "Abşeron küləyində doğulan. 1960-1980-ci illər Azərbaycan rəssamları" adlı sərgidə nümayiş olunmuşdur. Həmin əsərlər həmçinin, sentyabr ayının sonunadək Sankt-Peterburq şəhərində yerləşən "ERARTA" Müasir İncəsənət Muzeyində "Abşeron küləyində doğulan. 1960-1980-ci illər Azərbaycan rəssamları" sərgisində nümayiş olunmuşdur.

Dövlət Tretyakov Qalereyası, Yəhudi Muzeyi və Tolerantlıq Mərkəzinin birgə layihəsi olan 2017-ci ilin 16 noyabr – 2018-ci ilin 18 fevral tarixlərində Rusiya Federasiyasının Dövlət Tretyakov Qalereyasında keçirilən görkəmli rus rəssamı El (Lazar) Lisitskinin retrospektiv (rəngkarlıq və qrafika) sərgisində El Lisitskinin Hanover şəhərinin Şprenhel Muzeyi, Venesiya şəhərinin Peqqi Quqenxaym Muzeyi, Parisin Pompidu Mərkəzi, digər muzey və şəxsi kolleksiyalarda saxlanılan əsərlər nümayiş etdirilmişdir.

Azərbaycan Milli İncəsənət Muzeyinin toplusundan olan El Lisitskinin 1919-1920-ci illərdə yaratdığı "Proun 1E" əsərinin sərgidə nümayiş olunması məqsədilə Azərbaycan Respublikası Muzey Sərvətlərinin və Muzey Kolleksiyasının Uçotu və Mühafizəsinə Dair Təlimata əsasən qeyd edilən əsər sərgi müddətinə Rusiya Federasiyasının Dövlət Tretyakov Qalereyasına göndərilmişdir.

Martın 16-da Macarıstan Mədəniyyəti Günləri çərçivəsində Azərbaycan Xalça Muzeyində "Macarıstanda toxuculuq" adlı Qobelen sərgisinin təntənəli açılış mərasimi keçirilmişdir. Bu layihə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın himayəsi ilə Macarıstanın ölkəmizdəki səfirliyi və Heydər Əliyev Fondu arasındakı əməkdaşlıq çərçivəsində həyata keçirilmişdir. Sərgidə qobelen sənətinin keçmişini və gələcəyini əks etdirən dünya şöhrətli, təsviri və tətbiqi incəsənət sahələri üzrə mükafatlara layiq görülmüş 18 macar sənətkarının işləri təqdim olunmuşdur.

Mədəniyyət və Turizm Nazirliyinin 7 aprel 2017-ci il tarixli 79 nömrəli əmri ilə Qazax rayonundan olan şair və yazıçılar – M.P.Vaqif, M.V.Vidadi, S.Vurğun və başqa söz sərraflarının həyat və yaradıcılığının öyrənilməsi, təbliğ edilməsi, ədəbi ənənələrin qorunub saxlanılması və inkişaf etdirilməsi məqsədilə Qazax rayon, Heydər Əliyev prospekti 91a ünvanda Qazax Ədəbiyyat Muzeyi yaradılmışdır.

Hesabat dövrünün 26-30 aprel tarixində Azərbaycan Milli İncəsənət Muzeyində Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi Xalq Rəssamı Davud Kazımovun anadan olmasının 90 illiyinə həsr olunmuş, onun müəllifi olduğu rəsm əsərlərindən ibarət sərgi keçirilmişdir.

22-24 may tarixində Azərbaycan Xalça Muzeyində Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi, Yunus Emre İnstitutu Bakı Türk Mədəniyyət Mərkəzi və Azərbaycan Xalça Muzeyinin təşkilatçılığı ilə "Ortaq qaynaqdan çeşidli yollar" mövzusunda II Beynəlxalq "Türk dünyasının ortaq dili – naxışlar" adlı simpozium keçirilmişdir. Simpoziumda Azərbaycan, ABŞ, Gürcüstan, İran, İtaliya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Rusiya, Serbiya, Türkiyə, Türkmənistan və Ukraynadan aparıcı tədqiqatçılar, kolleksiyaçılar, xalçaçı rəssamlar və bu sahə üzrə digər mütəxəssislər iştirak etmişlər.

Akademik sessiyalarda türkdilli xalqların ortaq dili olan ornamentlərin semantikası və onların ümumi kökləri; türkdilli xalqların ortaq xalça mədəniyyətində yer alan naxışlarla bağlı terminlər və bu sahədə yaşanan problemlər; xalça sənətində istifadə edilən naxışların digər sənət növləri ilə əlaqəsi, qarşılıqlı təsiri və onların zənginləşdirməsi; naxışın xüsusi bədii dili;

müasir dünya incəsənətində naxışların əhəmiyyəti və digər mövzularda məruzələr oxunmuş, müzakirələr və fikir mübadiləsi aparılmışdır. Simpozium çərçivəsində D.Kara Çoban adına Milli Qaqauziya Tarix və Etnografiya Muzeyininin eksponatlarından ibarət təşkil edilmiş sərgidə qaqauz türklərinin böyük zövqlə hazırladıqları xalça, tikmə, milli geyim və digər dekorativ-tətbiqi sənət nümunələri nümayiş olunmuşdur.

21 iyun tarixində Tbilisi şəhərində yeni ünvanda (Qrişaşvili küç., 41) yaradılmış Nəriman Nərimanovun Ev Muzeyinin təntənəli açılış mərasimi keçirilmişdir.

Azərbaycanın ictimai fikrinin görkəmli nümayəndəsi, tanınmış maarifçi, yazıçı-publisist Əli bəy Hüseynzadənin Türkiyə Respublikasında yaşayan hüquqi varisi olan qızı Feyzavər Turan Alpsar böyük mütəfəkkirimizin həyatı, fəaliyyəti və yaradıcılığı ilə bağlı yüz altmış bir ədəd şəxsi əşyanı Azərbaycan Respublikasına hədiyyə etmişdir. Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan İstiqlal Muzeyinin təşkilatçılığı ilə hədiyyə olunmuş əşyaların təntənəli təhvil-təslim mərasimi 9 iyun tarixində Muzey Mərkəzinin konfrans zalında keçirilmişdir.

Tədbirdə Nazirliyin rəhbərliyi, Milli Məclisin və AMEA-nın nümayəndələri Türk Mədəniyyəti və İrsi Fondu, Türkiyədən gələn qonaqlar, muzey ictimaiyyəti və Bakı şəhərinin ziyalıları iştirak etmişlər. Azərbaycan bayrağı mədəniyyət və turizm naziri cənab Əbülfəs Qarayev tərəfindən Feyzavər Turan Alpsara hədiyyə edilmiş və onun tədbirdə təmsilçisi olan Teymur Rzayevə təqdim olunmuşdur.

23 avqust tarixində Cəbrayıl rayonunun işğalı günündə Azərbaycan Xalça Muzeyində Cəbrayıl Tarix-Diyarşünaslıq Muzeyinin eksponatlarından ibarət sərgi təşkil edilmişdir. Sərgidə Azərbaycan İstiqlal Muzeyində fəaliyyət göstərən Cəbrayıl Tarix-Diyarşünaslıq Muzeyinin 86 ədəd eksponatı nümayiş olunmuşdur.

30 avqust tarixində Azərbaycan Xalça Muzeyində Qubadlı və Laçın rayonunlarının işğalının 24-cü ildönümünə həsr olunmuş sərgi təşkil edilmişdir. Sərgidə Laçın Tarix-Diyarşünaslıq Muzeyinin 45 ədəd və Qubadlı Tarix-Diyarşünaslıq Muzeyinin 76 ədəd eksponatı nümayiş olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin V Beynəlxalq Azərbaycan Xalçası Simpoziumunun Bakı şəhərində keçirilməsi haqqında 14 noyabr 2016-cı il tarixində imzaladığı Sərəncamdan irəli gələn vəzifələrin icrası ilə bağlı Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti ilə birgə Tədbirlər Planı hazırlanmışdır. 17-21 oktyabr tarixində keçirilmiş V Beynəlxalq Azərbaycan Xalçası Simpoziumunda 25-dək ölkəni təmsil edən xalça sənəti üzrə 160 aparıcı mütəxəssis iştirak etmişdir.

Simpozium dünya mədəniyyətinin nailiyyətlərindən biri kimi YUNESKO-nun Bəşəriyyətin Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilmiş ənənəvi Azərbaycan xalça sənətinin beynəlxalq aləmdə təbliği istiqamətində atılan mühüm addım olmuşdur.

Simpoziumun əsas tərəfdaşları İCOC (Şərq Xalçaları üzrə Beynəlxalq Konfrans) və 1978-ci ildən nəşr edilən, dünya xalçaçılıq sənətində gedən prosesləri işıqlandıran və geniş oxucu auditoriyasına malik olan “Halı” jurnalı olmuşdur. Mədəniyyət və Turizm Nazirliyi və “HALI Publishing Ltd” tərəfindən imzalanmış müqavilə əsasında 2016-cı ilin dekabrından etibarən “HALI” rüblük jurnalında Simpoziumla bağlı reklam materialları və Azərbaycan xalça sənətinə həsr olunmuş məqalələr dərc edilmiş, yanvar ayından üç dildə veb-səhifə, o cümlədən Facebook və İnstagram sosial şəbəkələrində Simpoziumun səhifələri fəaliyyət göstərmişdir.

Simpozium çərçivəsində Azərbaycan Milli İncəsənət Muzeyində “İpək xəzinəsi: XVI-XVIII əsrlərdə Azərbaycan tikmələri” adlı sərginin açılış mərasimi keçirilmişdir. Sərgidə Viktoriya və Albert, Berlin İslam İncəsənət muzeylərinin fondlarından, habelə Avropanın ən yaxşı şəxsi kolleksiyalarından seçilmiş eksponatlar nümayiş olunmuşdur. Həmçinin, Azərbaycan Xalça Muzeyində Simpozium çərçivəsində sərgilər təşkil olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı “Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında” 30 avqust 2016-cı il tarixli Sərəncam Azərbaycan xalqının tarixində mühüm iz buraxmış bu hadisənin, habelə ölkəmizdə yüzilliklər boyu mövcud olan tolerant və multikultural ənənələrin layiqincə təbliğinə, turizm

marşrutları vasitəsilə xarici turistlərin, xüsusilə də alman turistlərinin bölgəyə səfərinin təşviqinə əhəmiyyətli töhfə vermişdir.

4 dekabr tarixində Mədəniyyət və Turizm Nazirliyinin və Almaniyanın Azərbaycandakı Səfirliyinin birgə təşkilatçılığı ilə Göygöl və Şəmkir rayonlarında alman məskənlərinin salınmasının 200-cü ildönümü münasibətilə silsilə tədbirlər həyata keçirilmişdir.

Tədbirlər zamanı Göygöldə Viktor Klaynın, Forerlərin yaşadığı evə və Alman Lüteran kilsəsinə baxış keçirilmişdir. Göygöldə Viktor Klaynın yaşadığı muzeyin təşkili ilə bağlı muzeyin sahəsi genişləndirilmiş, bərpa və konservasiya işləri aparılmış, Göygöldə Forerlərin yaşadığı evdə Göygöl Tarix-Diyarşünaslıq Muzeyinin təşkili ilə bağlı birinci mərtəbədə bərpa, konservasiya və bədii tərtibat işləri aparılmış, alman məskənlərinin salınmasının 200-cü ildönümü münasibətilə sərgi təşkil olunmuş, Alman Lüteran kilsəsində bərpa və konservasiya işləri həyata keçirilmişdir.

QEYRİ-MADDİ MƏDƏNİ İRS

2017-ci il ərzində Azərbaycan xalqının qeyri-maddi mədəni irsinin ayrılmaz hissəsi olan aşıq sənətinin qorunub saxlanılması, milli mədəniyyətimizin inkişafında rolunun genişləndirilməsi, tanıdılması və təbliğ edilməsi, ustad aşıqların zəngin irsinin öyrənilməsi, gənc nəslin aşıq sənətinə olan marağının artırılması məqsədilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən ardıcıl tədbirlər həyata keçirilmişdir.

2 mart tarixində Azərbaycan Aşıqlar Birliyinin təşkilatçılığı ilə 8 mart - Beynəlxalq Qadınlar gününə həsr olunmuş “Sazın ana laylası”, martın 28-də “Dədə Şəmşir ucalığı” adlı konsert proqramları təşkil edilmişdir

Hesabat dövründə YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edilmiş, BMT Baş Assambleyası tərəfindən beynəlxalq status verilmiş Novruz bayramı ilə əlaqədar ölkə daxilində və xaricdə bir sıra tədbirlər təşkil edilmişdir. Belə tədbirlərdən biri 19-29 mart tarixində TÜRKSOY-un təşkilatçılığı, həmçinin Beynəlxalq Novruz Günü münasibəti ilə Qazaxıstanının Türküstan, Almatı, Qızıl Orda, Şimkənd, Lenger şəhərlərində təşkil olunan bayram şənliklərində və Türküstan şəhərinin 2017-ci il üçün türk dünyasının mədəni paytaxtı elan edilməsi ilə bağlı açılış mərasimində ölkəmizin təmsil olunmasıdır. Sözügedən tədbirlərində ölkəmizi nazirliyin əməkdaşları, “Cəngi” folklor estrada rəqs ansamblı, muğam üçlüyü və sənətkarlar qrupundan ibarət nümayəndə heyəti təmsil etmişdir. Tədbirlər çərçivəsində təşkil edilən “Buran bel” Beynəlxalq rəqs müsabiqəsində tamaşaçılar tərəfindən alqışlarla qarşılanan “Cəngi” folklor estrada rəqs ansamblının çıxışını münsiflər heyəti birinci yerə layiq görmüşlər.

Son illər Azərbaycan kulinariya mədəniyyətinin milli irs kimi öyrənilməsi, toplanılması, təbliği və inkişafı, Azərbaycan milli mətbəxinin turizm bazarına çıxarılması üçün əhəmiyyətli işlər həyata keçirilir. Bu işlər çərçivəsində 26 yanvar tarixində Hindistan Səfirliyi tərəfindən “Hindistanın 68-ci respublika günü” ilə əlaqədar təşkil edilmiş tədbirdə Azərbaycan Milli Kulinariya Mərkəzinin nümayəndələri iştirak etmiş, 27-29 yanvar tarixində İsveçrənin Sankt Morits şəhərində keçirilən "Snow Polo" Dünya Kuboku yarışı çərçivəsində Azərbaycan Milli Mətbəx Günləri keçirilmiş, 2-5 fevral tarixində Azərbaycan Milli Kulinariya Assosiasiyasının üzvlərindən ibarət komanda Türkiyənin İstanbul şəhərində keçirilən 15-ci Beynəlxalq Mətbəx Festivalında təmsil olunmuşdur.

Azərbaycanda azsaylı xalqların mədəniyyətlərinin qorunması və inkişafı dövlət qayğısı ilə əhatə olunmuşdur. Respublikada yaşayan müxtəlif xalqların ölkəmizin mədəni həyatında iştirakının təmin olunması məqsədilə hesabat dövründə Rus Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə keçirilən “XIII Rodniki duşi” müsabiqəsinin keçirilməsinə müvafiq maliyyə dəstəyi göstərilmişdir.

15 aprel tarixində Dövlət Filarmoniyasında aşıqların iştirakı ilə Molla Pənah Vaqifin 300 illiyinə həsr olunmuş ”Könüldən-könülə yollar görünür” adlı, 24 may tarixində Heydər Əliyev Sarayında “Dalğa” sazçı qrupunun “Qarabağ dərdi” adlı, 16 iyun tarixində Azərbaycan

Aşıqlar Birliyində Çindən gəlmiş folklorçuların konsertləri təşkil olunmuşdur. Həmçinin 3-4 may tarixində Qırğıstanın Bişkek şəhərində keçirilən "Türk dünyası aşıqlıq gələcəyi" adlı tədbirdə Azərbaycan Aşıqlar Birliyi iştirak etmişdir.

Azərbaycan milli mətbəx nümunələrinin patentləşdirilməsi, müəllif hüquqlarının qorunması ilə bağlı görülən işlər çərçivəsində 17 may tarixdə AMKM-də dolmaların patentləşdirilməsi ilə bağlı Dövlət Patent İdarəsinin nümayəndələri ilə işçi görüş keçirilmiş, 30-31 may tarixdə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) və Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən təşkil olunmuş "Əqli Mülkiyyət və Ənənəvi Biliklər haqqında subregional" və "Coğrafi göstəricilər və mənşə yerinə əsaslanan fərqlənmə nişanlarının digər qorunma üsulları mövzusunda subregional" seminarda Azərbaycan kulinarları iştirak etmişlər.

Azərbaycan Respublikasında 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq hesabat dövrü ərzində islam ölkələri ilə mədəni əlaqələrin gücləndirilməsi istiqamətində bir sıra işlər görülmüşdür. Belə ki, 13 may tarixdə Azərbaycanın təşəbbüsü ilə Türkiyənin İstanbul şəhərində Dünya İslam Kulinariya Birliyinin I təsis konfransı keçirilmiş, Azərbaycanın təklifi ilə nizamnaməyə dövlət qurmuş islam ölkələrindən başqa qeyri-islam ölkələrində mövcud olan islam muxtariyyətlərinin (Tatarıstan, Başqırdıstan, Sintzsyan-uyğur Muxtar Rayonu və s. kimi) Dünya İslam Kulinariya Birliyinə (DİKB) üzv olması ilə bağlı dəyişiklik edilməsi barədə qərar qəbul edilmişdir.

Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında ikitərəfli əlaqələrin inkişafı, kulinariya ənənələrinin təbliği, bu sahədə təcrübə mübadiləsi, Çin xalq mətbəxinin Azərbaycanda, Azərbaycan xalq mətbəxinin isə Çində təbliği məqsədilə 6 iyun tarixdə AMKM, AMKA və Konfutsi İnstitutu arasında kulinariya incəsənəti, ictimai iaşə və qida texnologiyaları sahəsində müqavilə sənədləri imzalanmışdır.

11-13 iyun tarixində Qeyri-maddi mədəni irsin qorunmasına dair YUNESKO Konvensiyasının nəticələrinin ümumi strukturunun işlənib hazırlanması üzrə hökumətlərarası işçi qrupunun Çin Xalq Respublikasında keçirilmiş görüşündə nazirliyin əməkdaşı iştirak etmişdir.

Xalq teatrlarının fəaliyyətinin dəstəklənməsi, Bakı şəhərində, xüsusən regionlarda mədəni həyatın təşkilində onların rolunun artırılması məqsədilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən II Respublika Xalq Teatrları Festivalı keçirilmişdir. İki mərhələdən ibarət olan festivalın seçim mərhələləri 27 aprel - 31 may tarixlərində Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsi, Sumqayıt, Kürdəmir, İsmayıllı, Şəmkir və Masallı regional mədəniyyət və turizm idarələrində keçirilmişdir. Seçim mərhələlərində 32 xalq teatrı iştirak etmişdir. Münsiflər heyətinin rəyinə əsasən 15 xalq teatrı 12-14 iyun tarixində Bakı şəhərində keçirilmiş final mərhələsinə dəvət edilmişdir. Yekun Protokola əsasən Festivalın qalibləri müəyyən edilmiş, 14 iyun tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında keçirilmiş bağlanış mərasimində Xaçmaz rayon Xalq teatrı birinci yer, Yevlax rayon Xalq teatrı və Zaqatala rayon Xalq teatrı ikinci yer, Badamdar qəsəbə Mədəniyyət evinin Xalq teatrı, Sabirabad rayon Mədəniyyət Mərkəzinin nəzdində Adil İsgəndərov adına Xalq teatrı və Sumqayıt şəhər "28 May" Diyarşünaslıq evinin Xalq teatrı üçüncü yerə layiq görülmüşdür.

Azərbaycanın qədim milli mətbəx nümunələrinin ölkəmizin turizm potensialının nümayişində rolunun artırılması, bu sahədə istifadə olunması imkanlarının genişləndirilməsi, yerli və xarici turistlərə təqdim olunması məqsədilə yerli icra hakimiyyəti orqanları ilə birlikdə müxtəlif festivallar təşkil edilmişdir. Belə ki, 15 iyul tarixdə Xaçmaz rayonunda Xaçmaz Rayon İcra Hakimiyyəti ilə birlikdə II Beynəlxalq Dolma Festivalı keçirilmişdir. Festivalda yüzlərlə yerli və xarici kulinarlar öz məhsullarını nümayiş etdirmiş, iştirakçılara böyük mədəni proqram təqdim edilmişdir. Abşeron rayonunda 2016-cı ildə keçirilmiş I Dolma Festivalında respublikamızın 23 rayonundan nümayiş etdirilən 300-ə qədər dolma növü barədə məlumat kitabı çap olunmuş və təqdimatı keçirilmişdir.

Qəbələ şəhərində 26 avqust tarixində V Qəbələ Beynəlxalq Mürəbbə Festivalı keçirilmişdir. Festivalda 22 ölkə, 44 şəhər və rayon, 2 mürəbbə istehsal edən fabrik (Quba və

Xaçmaz) iştirak etmişdir. V Qəbələ Beynəlxalq mürəbbə festivalında “Azərpoçt” MMC tərəfindən Azərbaycan milli mətbəxinə həsr edilmiş markaların imzalanma mərasimi olmuş, ilk dəfə olaraq Qəbələ şəhəri “Beynəlxalq mürəbbə mərkəzi” elan edilmişdir.

Hesabat dövrü ərzində “Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanunun, Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyasının, YUNESKO-nun “Qeyri-maddi mədəni irsinin qorunmasına dair Konvensiyası”nın müvafiq müddəalarının təmin olunması, Azərbaycan aşıq yaradıcılığının dəstəklənməsi, qorunması və inkişafı məqsədilə “Azərbaycan aşıq sənətinin 2018-2021-ci illər üzrə inkişafına dair Fəaliyyət Planı” hazırlanaraq təsdiq olunmuşdur.

Azərbaycan aşıq sənətinin beynəlxalq miqyasda tanıdılması, habelə bu sahənin inkişaf etdiyi ölkələrlə mədəni əlaqələrin gücləndirilməsi istiqamətində keçirilən tədbirlər çərçivəsində ”Qorqut Ata aşıqlar karvanı” adlı beynəlxalq tədbirin Azərbaycan mərhələsi ilə bağlı 14 oktyabr tarixdə Bakıda Dövlət Mahnı Teatrında konsert proqramı təşkil edilmişdir. Konsertdə Türkiyə, Kipr, Qırğızıstan və Qazaxıstandan olan sənətkarlar Azərbaycan aşıqları ilə birgə çıxış etmişlər.

Azərbaycan Milli Kulinariya Mərkəzi, Azərbaycan Milli Kulinariya Assosiasiyasının təşkilatçılığı ilə 20 oktyabr tarixdə Bakı şəhərindəki “Beynəlxalq Kulinariya günü” və qədim fisincan xörəklərinin bərpasına həsr edilmiş tədbir təşkil edilmişdir. Tədbirdə Milli Məclisin üzvləri, ictimai xadimlər, dövlət qurumlarının nümayəndələri, diplomatik nümayəndəliklər, tanınmış mədəniyyət xadimləri, jurnalistlər iştirak etmiş, bir qrup kulinar nazirliyin fəxri fərmanı ilə təltif olunmuşdur.

Hesabat dövrü ərzində nazirliyin müvafiq şöbələri və idarələri tərəfindən Göyçayda Nar bayramının, Qubada Alma bayramının, Balakəndə Xurma bayramının, Zaqatalada Fındıq bayaramının keçirilməsinə lazımi dəstək göstərilmiş, tamaşaçılara böyük mədəni proqram və mətbəx nümunələri təqdim edilmişdir.

Azərbaycan aşıq sənətinin inkişafı və təbliğində mühüm xidmətləri olan ustad aşıqların xatirəsinin yad edilməsi, habelə sağlığında ustad adı qazanmış aşıqların əməyinin qiymətləndirilməsi nazirliyin daimi diqqəti ilə əhatə olunmuşdur. Belə ki, hesabat dövrü ərzində İsfəndiyar Rüstəmovun 80 illik yubileyi 24 oktyabr tarixdə Azərbaycan Dövlət Filarmoniyasında, 17 noyabr tarixində ustad aşıq Bəylər Qədirovun 100 illik yubileyi Azərbaycan Dövlət Mahnı Teatrında qeyd olunmuş, 28 noyabr tarixdə nazirliyin təşəbbüsü ilə İsmayıllı şəhərində Əməkdar mədəniyyət işçisi, ustad aşıq Yanvar Bədəlovun 75 illik yubileyi münasibətilə tədbir təşkil olunmuşdur.

Milli mətbəximizin təbliği məqsədilə Azərbaycan Milli Kulinariya Assosiasiyasının üzvlərindən ibarət komanda Makedoniyanın Strumica şəhərində 24-28 oktyabr tarixdə keçirilən “Beynəlxalq Kulinariya Çempionat”ında iştirak etmiş və 3 qızıl, 3 gümüş və 2 kubok qazanmışdır.

Xalq yaradıcılığının dəstəklənməsi, müxtəlif dərnək, birlik, kollektivlərin fəaliyyətinin tənzimlənməsi, eləcə də əməyinin qiymətləndirilməsi məqsədilə “Xalq özfəaliyyət kollektivlərinin nümunəvi Əsasnaməsi” hazırlanaraq təsdiq edilmişdir.

Respublikanın şəhər (rayon) mədəniyyət mərkəzlərində (filialları ilə birlikdə) digər mədəniyyət evləri və klublarında əlamətdar günlər, o cümlədən bayram və matəm günləri münasibətilə, habelə Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarından, təsdiq edilmiş dövlət proqramlarından irəli gələn məsələlərlə bağlı çoxsaylı mədəni kütləvi tədbirlər keçirilmişdir.

Hesabat dövründə “Azərbaycan qeyri-maddi mədəni irs subyektlərinin Portfolio bankı” layihəsi çərçivəsində xalq teatrlarının və xalq dekorativ-tətbiqi və təsviri sənətkarlıq nümunələrinin daşıyıcılarının məlumat bazası hazırlanmışdır. Bununla yanaşı şəhər (rayon) mədəniyyət mərkəzləri (filialları ilə birlikdə) digər mədəniyyət evləri və klublarının cari vəziyyəti ilə bağlı məlumat bazası tərtib edilmişdir.

Milli mənəviyyatın və mədəniyyətin inkişaf özəyini təşkil edən diyarşünaslıq (adət-ənənə, bayram-mərasim, rəmz-sirr), folklor (xalq musiqisi və rəqsləri, şifahi xalq yaradıcılığı, milli oyun-

tamaşa) və sənətkarlıq (xalq tətbiqi, dekorativ və təsviri sənəti) üzrə qeyri-maddi mədəni irs nümunələrinin qorunub saxlanılması, gələcək nəsillərə çatdırılması məqsədilə "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri" hazırlanır.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı və Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət Konsepsiyasına əsaslanaraq "Azərbaycan qeyri-maddi mədəni irsinin qorunmasına dair" Dövlət Proqramı kimi konseptual proqramın aidiyyəti orqanlarla razılaşdırılması istiqamətində işlər aparılır.

Mədəniyyət və Turizm Nazirliyinin 20 noyabr 2017-ci il tarixli, 272 nömrəli əmri ilə 17-20 dekabr tarixində Respublika Atçılıq Turizm Mərkəzinin Şəki filialında və 23-24 dekabr tarixində Binə Atçılıq Mərkəzində Prezident Kuboku uğrunda çövkən milli oyunu keçirilmişdir. Tədbirdə Şəki, Ağdaş, Ağcabədi, Ağstafa, Bərdə, İsmayıllı, Gəncə və Şəmkir regional mədəniyyət və turizm idarələrinin nümayəndə heyətləri, Bakı şəhərinin "Elit", "Omar", "Polad" və "Sərhədçi" komandaları iştirak etmişdir.

Prezident Kuboku uğrunda çövkən milli oyununda 1-ci yeri "Sərhədçi" komandası, 2-ci yeri "Polad" komandası, 3-cü yeri Ağcabədi Regional Mədəniyyət və Turizm İdarəsi, 4-cü yeri Ağstafa Regional Mədəniyyət və Turizm İdarəsi tutmuşdur.

QORUQLARALA İŞ

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına, Mədəniyyət və Turizm Nazirliyinin kollegiyasının qərarlarına, Tədbirlər planına uyğun olaraq, həmçinin Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2013-cü il tarixli, 195 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nın icrası istiqamətində müvafiq işlər görülür.

İyul ayında YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 41-ci sessiyasında ölkəmiz tərəfindən təqdim edilən "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" adlı nominasiya müzakirə olunmuş və Dünya İrs Komitəsi tərəfindən ölkə qarşısında bir sıra tələblər irəli sürülmüşdür. Həmin tələblərə görə Azərbaycan tərəfi nominasiya olunmuş ərazinin konservasiya və qorunma mexanizmlərinin təkmilləşdirilməsini təmin etməli, habelə, Dünya İrs Mərkəzi və ICOMOS ilə yaxın məsləhətləşmələr ilə ərazinin konservasiya və qorunması üçün Fəaliyyət Planını hazırlamalı, ərazinin idarəetmə qrupunun səlahiyyətlərini və resurslarını möhkəmləndirməli, onun gələcəkdə düzgün tətbiq edilməsi üçün idarəetmə planını yenidən nəzərdən keçirib qəbul etməli, ərazinin mühafizə (bufer) zonasının və ətraf landşaftın uzunmüddətli mühafizəsini təmin etmək üçün qoruyucu tədbirləri gücləndirməli, nominasiya olunmuş ərazinin qorunması vəziyyəti və idarəetmə planının həyata keçirilməsinə yönəlmiş monitorinq sistemini inkişaf etdirməli və digər öhdəlikləri yerinə yetirməlidir. Qeyd olunan tələblərin yerinə yetirilməsi üçün hazırda məqsədyönlü işlər həyata keçirilməkdədir.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev "Soyqırım Memorial Kompleksi" ilə bağlı bəzi məsələlər haqqında 6 iyun 2017-ci il tarixində müvafiq sərəncam imzalamışdır. Sərəncama əsasən Kompleksin mövcud vəziyyətinin araşdırılması və görüləcək işlər barədə müvafiq təkliflərin hazırlanması üçün komissiya yaradılmışdır. Məzarlığın saxlanılması ilə bağlı yaranmış problemlərin həlli məqsədilə dövlət nümayəndələri tərəfindən əraziyə baxış keçirilmiş, təkliflər hazırlanmış və dövlət başçısı qarşısında vəsatət qaldırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Yanar dağ" Dövlət tarix-mədəniyyət və təbiət qoruğunun bəzi məsələləri barədə" 22 sentyabr 2008-ci il tarixli, 227 nömrəli qərarı ilə təsdiq olunmuş "Yanar dağ" dövlət tarix-mədəniyyət və təbiət qoruğunun sərhədləri"nin plan-sxeminə dəyişiklik edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi barədə Nazirlər Kabinetinə müraciət edilmişdir. Hazırda Əmlak Məsələləri Dövlət Komitəsi ilə birlikdə qoruğun sərhədlərinin yenidən müəyyən edilməsi istiqamətdə işlər aparılır.

Hesabat dövründə ölkəmizdə fəaliyyət göstərən qoruqlar AMEA-nın müxtəlif institutları ilə sıx əlaqədə çalışmış və istər yerli, istərsə də beynəlxalq mütəxəssislərin iştirakı ilə müxtəlif layihələr həyata keçirmişlər. Fondların zənginləşdirilməsi məqsədilə mütəmadi olaraq qoruq ərazilərində monitorinqlər həyata keçirilmiş, yeni eksponatlar aşkar edilmiş və öyrənilmişdir. Belə ki, 2016-cı ildə Qobustan Milli Tarix-Bədii qoruğunun "Yeni baxış" adlı rəqəmsal məlumat bazasının yaradılması layihəsinə başlanılmış və 2017-ci ildə Cingirdağ-Yazılıtəpə qayaüstü təsvirlər kolleksiyasının rəqəmsal qeydiyyatı davam etdirilmişdir. Layihə zamanı Azərbaycan arxeologiyasında ilk dəfə olaraq abidələrin öyrənilməsində 3D modelləşdirmə metodundan istifadə edilmişdir. Qayaüstü təsvirlərin qeydiyyat vərəqi onlarda baş verən aşınma proseslərini izləməyə və aşınmanın xarakterini müəyyən etməyə imkan verir.

Hesabat dövründə davam edən çöl-tədqiqat mövsümü ərzində Cingirdağ-Yazılıtəpə sahəsində 8 sayda yeni təsvirli daş və 100-dən artıq yeni qayaüstü təsvirlər aşkar edilmişdır. Eyni zamanda müasir tələblərə cavab verən yeni texnologiyaların tətbiqi vasitəsilə əsaslı arxeoloji qazıntıların və elmi-tədqiqat işlərinin aparılması məqsədilə Mədəniyyət və Turizm Nazirliyi, Qobustan Milli Tarix-Bədii Qoruğu və AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu ilə birgə beynəlxalq mütəxəssislərin cəlb edilməsi ilə uzunmüddətli, stasionar qaydada ekspedisiyaların təşkili istiqamətdə işlər görülür.

Nazirlik, Yaponiyanın Tokio Universiteti, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu ilə birgə imzalanmış 3 tərəfli beynəlxalq memorandum əsasında "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunda professor Yoşihiro Nişiakinin rəhbərliyi ilə 5 il davam edəcək tədqiqatların aparılmasına başlanılmışdır. İl ərzində ilkin aparılmış arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş maddi mədəniyyət nümunələrinin öyrənilməsi məqsədi ilə Yaponiyaya göndərilmiş və materiallar üzrə hesabatlar hazırlanmışdır.

2017-ci ildə "Seba" Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası İctimai Birliyi və Qəbələ qoruğunun iş birliyi nəticəsində artıq uzun illərdi ki, Koreya mütəxəssisləri tərəfindən aparılan genişmiqyaslı elmi tədqiqat və konservasiya işləri davam etdirilmişdir. Aşkar edilmiş çoxsaylı materiallar qoruqda yaradılan ekspozisiyalarda ziyarətçilərə nümayiş etdirilmişdir.

2017-ci il ərzində 2052 ədəd eksponat qeydiyyata alınaraq fonda daxil edilmişdir. Ümumilikdə bu günə qədər 25483 eksponat qeydə alınmışdır.

"Atəşgah Məbədi" Dövlət Tarix Memarlıq Qoruğunda eksponatların yenidən pasportlaşdırılması, siyahılarının tərtib edilməsi işi aparılmışdır. Belə ki, müəyyən saxsı fraqmentlər, qəlyan, qədim pullar, bəzək əşyaları və s. ekspozisiyaya əlavə edilmişdir. Yeni bukletin yığılma, tərcümə və komplektləşdirmə işləri tamamlanıb nəşr edilmişdir.

Hesabat dövründə AMEA-nın aparıcı elmi işçisi arxeoloq İdris Əliyevin rəhbərliyi ilə Xınalıq kəndi və onun ətrafında aparılan arxeoloji tədqiqat işləri nəticəsində qədim yaşayış məskənləri aşkar edilmişdir. Aparılan arxeoloji qazıntılar nəticəsində minədək (tunc bilərziklər, amuletlər, sırğalar, gümüş bəzək əşyaları, sümükdən düzəldilmiş iynələr, müxtəlif muncuqlar və s.) maddi mədəniyyət nümunələri aşkar edilərək qoruğun fonduna daxil edilmişdir.

Qoruğun elmi işçiləri müstəqil şəkildə xınalıqlıların qədim köç yollarının koordinatlarını təyin edilməsi işini həyata keçiriblər. Hal-hazırda koordinatlarda fotoların yerləşdirilməsi işi aparılır və qoruğun veb-saytında (www.xinaliq.az) "köç yolları" bölməsində nümayiş etdirilir.

Qobustan Milli, "Atəşgah məbədi", "Yanar dağ", "Xınalıq", "Pir Hüseyn Xanəgahı", "Avey", "Keşikçidağ", "Çıraqqala", "Yuxarı Baş" tarix-memarlıq qoruqlarının veb-saytları yaradılmışdır.

Qobustan qoruğu Avropa Şurası Mədəni Marşrutlar İnstitutunun "CARP Avropa qayaüstü incəsənət marşrutu"na daxil edilmişdir.

Hesabat dövründə qoruqlarda müxtəlif aksiyalar,18 aprel Beynəlxalq Abidələr günü, 18 may Beynəlxalq Muzeylər günü və 27 sentyabr Ümumdünya Turizm günü münasibətilə "Açıq qapı" günləri, master-klasslar, 'Ölkəmizi tanıyaq' layihəsi, "Muzeylər və Multikulturalizm" mövzulu məktəblilər üçün muzey həftəsi, "Vətənpərvərlik" mövzusunda tədbirlər təşkil olunmuşdur. Həmçinin respublikada keçirilən beynəlxalq tədbirlər zamanı qoruqlar gücləndirilmiş iş rejimində çalışmışlar.

Novruz bayramı münasibəti ilə tarix-mədəniyyət qoruqlarında bayram şənlikləri keçirilmişdir. Bayram günlərində 23 000-dən çox turist qoruqları ziyarət etmişdir.

"Quba Soyqırım memorial kompleksi"ndə 31 mart Azərbaycanlıların Soyqırım Günündə Ümumrespublika səviyyəli kütləvi tədbir keçirilmiş və həmin gün ziyarətçilərin sayı 40 000-i keçmişdir.

18 aprel - Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü respublika ərazisində təntənəli şəkildə qeyd edilmişdir. Bakıda keçirilən əsas tədbirdə Milli İrs Mükafatının qaliblərinin mükafatlandırılması baş tutmuşdur. Həmin gün rəssamlar Sabir Çopurov və Xəzər Nəbiyevin neft ilə işlənən rəsm əsərlərindən ibarət sərgi təşkil edilmişdir.

Smartfonlar vasitəsilə tarix-mədəniyyət abidələri haqqında maarifləndirmə və tanıtım məqsədi daşıyan, Nazirliyin Paşa Sığorta ilə birgə olan "Sirli Bakı" layihəsinin təqdimatı keçirilmiş və Bakı üzrə 46 abidədə tədbiq edilmişdir.

Mayın 31-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın layihəsi olan "Müqəddəs Alov - Mənəvi Aləmə Səyahət" və avqustun 16-da Bakıda 41-ci Dünya Skaut konfransının yekun tədbirləri "Atəşgah Məbədi" Dövlət Tarix Memarlıq Qoruğunda keçirilmişdir.

13-14 iyun tarixlərində Qobustan Milli Tarix-Bədii Qoruğunun yaradılmasının 50, "YUNESKO"nun Dünya İrs Siyahısına daxil edilməsinin 10 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir. Tədbir çərçivəsində "Qobustan-mədəniyyətlərin qovşağında qayaüstü incəsənət" adlı Beynəlxalq konfrans keçirilmişdir. Konfransda yerli və müxtəlif ölkələrdən olan qayaüstü rəsm araşdırmaçıları və alimlər iştirak etmiş, öz məruzələri ilə çıxış etmişlər.

Yubiley tədbiri zamanı 2016-cı ilin çöl tədqiqatları mövsümü ərzində qoruq əməkdaşlarının Cingirdağ-Yazılıtəpə ərazisində apardığı sənədləşdirmə işlərinin ilkin nəticəsi olan "Qobustan-Yeni baxış, Cingirdağ-Yazılıtəpə 2016-cı il çöl tədqiqatları" adlı kitab-albomun və "Abşeron-Qobustan Yeni Baxış" adlı kitabın təqdimatı keçirilmişdir.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə "NETTY" Azərbaycan Milli İnternet Mükafatı 13-cü dəfə qaliblərinə təqdim olunmuşdur. Ekspert şurası və virtual münsiflər heyətinin səsverməsinə əsasən "Mədəniyyət və incəsənət" nominasiyasında – Qobustan Milli Tarix-Bədii Qoruğunun vebsaytı (gobustan-rockart.az) NETTY2017 mükafatına layiq görülmüşdür.

27-30 oktyabr tarixində İtaliyanın Paestum şəhərində YUNESKO, İKKROM, İKOMOS, ÜTT kimi nüfuzlu beynəlxalq təşkilatların dəstəyi ilə ənənəvi olaraq keçirilən XX "Arxeoloji turizm üzrə Aralıq dənizi yarmarkası"nda Azərbaycanın mədəni irsinə, turizm potensialına aid stend təşkil edilmişdir. Sərgidə beynəlxalq təşkilatların 130-dan çox nümayəndəsi, 10.000-dən çox ziyarətçi, 25 ölkədən 130-dan çox iştirakçı, konfrans və görüşlərdə 300 nəfərədək məruzəçi iştirak etmişdir.

2017-ci ildə "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğu "Keşikçidağı tanıdaq" adlı layihəyə start vermişdir. Müxtəlif yerlərdə qurulmuş pavilyonlarda arxeoloji qazıntılar zamanı tapılmış maddi-mədəniyyət nümunələri, "Qədim Yurdun Daş Kitabəsi" adlı qısametrajlı sənədli film nümayiş etdirilmişdir. Qoruğun şəkilləri əks olunmuş köynəklər, papaqlar, suvenirlər, qala və məbədin əl ilə daşdan yonulmuş kiçik maketləri, diyircəkli qələmlər, Qoruq haqqında çəkilmiş filmin diskləri, bukletlər, flayerlər (üç dildə) pulsuz paylanılmışdır.

Avqustun 2-də mədəniyyət və turizm naziri Əbülfəs Qarayev "Yuxarı baş" qoruğunun əməkdaşları ilə görüş keçirmişdir. Görüş zamanı qoruğun fəaliyyətinin mənfi və müsbət tərəfləri müzakirə edilmiş, konkret tapşırıqlar verilmişdir. Həmçinin 7 noyabr tarixində nazirin birinci müavini Vaqif Əliyevin iştirakı ilə Mədəniyyət və Turizm Nazirliyinin tabeçiliyində fəaliyyət göstərən tarix və mədəniyyət qoruqlarının fəaliyyəti ilə bağlı müşavirə keçirilmişdir.

Hesabat dövründə tarix-mədəniyyət qoruqlarında turistlərin asudə vaxtlarının səmərəli və rahat keçirilməsi üçün qoruqların daxili imkanları hesabına Qobustan qoruğu Böyükdaş dağının yuxarı səki hissəsində (mövcud iaşə xidməti göstərilən yerdə) yeni yay fəsli üçün nəzərdə tutulmuş və oturacaqlarla təchiz edilmiş kölgəliklər tikilərək turistlərin istifadəsinə verilmişdir. Bundan başqa, müvafiq dərmanlarla təchiz olunmuş 1 ədəd tibb məntəqəsi,

mühəndislər üçün 2 inzibati otaq, 2 yardımçı otaq, 2 stasionar polis postu və 1 anbar tikilmiş, Muzeyin həyətyanı sahəsinin yaşıllaşdırılması üçün 1000-dək müxtəlif növdə ağac əkilmiş, Böyükdaş dağının yuxarı hissəsində yerləşən tunel hər iki tərəfdən açılaraq daş qalaqlarından təmizlənmiş və aşağı hissədən tunelə yol çəkilmişdir.

Qobustan Qoruğunda turizmin inkişaf etdirilməsi və fərqli yaş qrupuna aid turistlərin əraziyə cəlb olunması məqsədilə 2017-ci ildən Qoruğun ərazisində "Mini Qobustan" adlı arxeoparkın yaradılması, arxeoparkın ərazisində Tunc dövrünə aid "Dairə yaşayış yeri"nin rekonstruksiyası, girişdə Qədim Qobustan ərazisində məskunlaşmış ibtidai insanın yaşam tərzini əks etdirən ibtidai sığınacaqların rekonstruksiyası, daha sonra Qobustan motivlərindən istifadə olunmaqla interaktiv atraksionlardan ibarət əyləncə parkının və Qoruğun ərazisində kontakt zooparkının yaradılması kimi böyük işlərin layihələndirilməsinə başlanılmış və bunun üçün ilkin texniki işlər həyata keçirilmişdir.

Sahibkar Məmmədov Fikrət Fərzi oğlu Qəbələ qoruğunun maddi texniki bazasının yaxşılaşdırılması üçün öz şəxsi hesabına tikdirmiş 21 m²-lik köşkü qoruğun istifadəsinə vermişdir.

"Keşikçidağ" qoruğunda mağaralarında turistlərin təhlükəsizliyini təmin etmək üçün 300 metrlik sıldırım qayalıqlardan ibarət yol boyunca kəndir və dəmir dirəklərdən istifadə edərək təhlükəsizlik səddi çəkilmişdir.

"Pir Hüseyn Xanəgahı" qoruğu ərazisində geniş yaşıllıq zonası salınaraq 100-ə qədər şam ağacı əkilmiş, sanitariya qovşağı, avtomaşınların parklanması üçün dayanacaq yaradılmış və əraziyə oturacaqlar quraşdırılmışdır. Xanagaha məxsus olan Daş kitabə ilkin yerinə bərpa edilmişdir.

2017-cı ildə qeydiyyatdan keçən abidələrin üzərindəki mühafizə lövhələri dəyişdirilərək, yeniləri ilə əvəz edilmişdir. Qoruq ərazisində mövcud olan, lakin qeydiyyata alınmayan, 24 ədəd yaşı 200-500-il olan "Xan çinarlar"ın Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təbiət abidəsi kimi qeydiyyata alınmasına nail olunmuşdur.

Hesabat dövründə ölkə rəhbərliyinin turizmin inkişafı ilə bağlı apardığı islahatlar Qoruqları ziyarət edən turistlərin sayında böyük artıma səbəb olmuşdur. 2017-ci il ərzində Qoruqları ziyarət edən turistlərin sayı ümumilikdə 384 689 nəfər (kütləvi tədbirlərlə birlikdə) təşkil etmişdir.

MƏDƏNİ İRSİN QORUNMASI, İNKİŞAFI VƏ BƏRPASI

Azərbaycan Respublikası Prezidentinin, Nazirlər Kabinetinin və Mədəniyyət və Turizm Nazirliyinin müvafiq fərman, sərəncam, qərar, əmr və digər göstərişləri mütəmadi olaraq Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən yerinə yetirilmişdir.

Hesabat dövrü ərzində Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə hazırlanan "Tədbirlər Planı"nın 2.1.1 yarımbəndinin icrasının təmin olunması məqsədi ilə Respublikanın 11 rayonunda yerləşən, Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli, 132 nömrəli qərarı ilə təsdiq edilmiş siyahı üzrə 579 daşınmaz tarix və mədəniyyət abidəsinin monitorinqi həyata keçirilmişdir. Eyni zamanda, göstərilən rayonlarda yerləşən 162 ədəd yeni aşkar olunmuş abidənin monitorinqi aparılmışdır.

Ölkə əhəmiyyətli memarlıq abidəsi (inventar №-127, tikilmə tarixi-1385) kimi dövlət qeydiyyatına götürülmüş "Hacı Şəhla məscidi"nin salamat qalmış hissəsinin tamamilə qəzalı vəziyyətdə olması ilə əlaqədar Dövlət Xidmətinin əməkdaşları abidəyə baxış keçirmişdir. Baxış zamanı 2015-ci ilin dekabr ayında fotofiksasiya edilmiş məscidin divarlarındakı çatın 2016-cı ilin sonunda həmin hissədən aralanaraq təhlükəli vəziyyətə düşməsi müəyyən olunmuşdur. "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutu tərəfindən məscidin divarlarında bərpa-

konservasiya işlərinin aparılması üçün layihə-smeta sənədləri hazırlanmış və hal-hazırda bərpa işləri həyata keçirilir.

27 fevral tarixində Dövlət Xidmətinə ölkə əhəmiyyətli bağ-park, monumental və xatirə abidəsi (inventar №-452) kimi dövlət qeydiyyatına götürülmüş şair Mikayıl Müşfiqin Bakının İnşaatçılar prospektində yerləşən heykəlinin sökülməsi ilə əlaqədar əraziyə baxış keçirilmiş və abidənin "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti tərəfindən sökülməsi faktı aşkar olunmuşdur. Dövlət Xidməti tərəfindən aparılan işlər dayandırılmış, məsələ nazirliyin, ictimaiyyətin və ölkə rəhbərliyinin nəzarətinə götürülmüşdür. Qısa müddət ərzində qanunun müvafiq maddələrinə uyğun olaraq abidənin eskiz layihəsi hazırlanmış və mart ayında abidə yerinə bərpa edilmişdir.

Dövlət Xidmətinə Şəmkir rayonunun İrmaşlı kəndində yerləşən ölkə əhəmiyyətli arxeoloji abidə kimi dövlət qeydiyyatına götürülmüş "Pir"in (inventar №-1769) ərazisində naməlum şəxslər tərəfindən qazıntı işlərinin aparılması, abidənin divarlarındakı daşların sökülməsi, eyni zamanda mühüm tarixi əhəmiyyət kəsb edən lövhələrin xüsusi alətlərlə sındırılması barədə məlumat daxil olmuşdur. Baş verən qanun pozuntusu ilə əlaqədar araşdırma aparılması, göstərilən abidəyə müdaxilə olunması hallarının qarşısının alınması, təqsirkar şəxslərin məsuliyyətə cəlb olunması üçün tədbirlərin görülməsi ilə bağlı Dövlət Xidməti Şəmkir Rayon İcra Hakimiyyətinə və Şəmkir Rayon Polis Şöbəsinə müraciət etmişdir. Qeyd olunan orqanlar tərəfindən müvafiq araşdırma aparılmasına baxmayaraq bu günədək abidəyə müdaxilə etmiş şəxslər müəyyən olunaraq məsuliyyətə cəlb olunmamışlar.

Balakən rayonunun Tülü kəndində yerləşən yerli əhəmiyyətli abidə kimi (inventar 4149, Türbə XIV əsr) dövlət qeydiyyatına götürülmüş tarixi tikili barədə mətbuatda yayımlanmış məlumatlar - abidənin türbə yox qədim alban məbədi olması məsələsi araşdırılmış və bu məlumatların AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutun məsul şəxsləri tərəfindən dəqiqləşdirilib abidə pasportunun layihəsində öz əksini tapması barədə lazimi göstərişlər verilmişdir.

Dövr ərzində "BP Eksploreyşn (Şahdəniz) Limited" şirkəti tərəfindən "Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi layihəsi" çərçivəsində həyata keçirilən boru çəkilişi zamanı Ağdaş, Tovuz, Goranboy, Yevlax, Ucar, Şəmkir rayonları ərazisində təsadüfi arxeoloji sahə aşkar edilmişdir. Dövlət Xidmətinin müraciəti əsasında Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloqları tapıntılara yerində baxış keçirmişlər. Aşkar edilmiş arxeoloji tapıntılar yerləşən ərazilərdə mütəmadi nəzarətin həyata keçirilməsi məqsədilə rayon üzrə abidə mühafizəçilərinə müvafiq tapşırıqlar verilmişdir.

Siyəzən rayonu ərazisində meliorasiya sistemlərinin çəkilişi zamanı Bakı-Quba magistral yolunun sağında, rayonun Yenikənd kəndi ərazisində torpaq işləri görülərkən tikili qalıqları aşkar edilmişdir. Həyata keçirilən inşaat işləri dayandırılmış və məsələ ilə əlaqədar Dövlət Xidməti tərəfindən Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutuna müraciət olunmuşdur. İnstitutun arxeoloqu Siyəzən rayonuna ezam olunmuş və tikilinin tarixi əhəmiyyətə malik olmadığı barədə məlumat verilmişdir.

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanunun 20-ci maddəsinə uyğun olaraq Respublikanın rayonlarının ərazisində arxeoloji qazıntı işləri aparılması üçün Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən verilmiş 38 vəkalətnamə Dövlət Xidmətində qeydiyyatdan keçirilmiş və aparılan qazıntı işlərinə aidiyyəti üzrə yerli abidə mühafizəçiləri tərəfindən mütəmadi olaraq nəzarət həyata keçirilir.

Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi Başkanlığı tərəfindən tarix-mədəniyyət abidələrinin tədqiqi, layihələndirilməsi və bərpası sahəsində müasir beynəlxalq təcrübənin öyrənilməsi, Azərbaycan və Türkiyə arasında memarlıq irsinin qorunması sahəsində təcrübə mübadiləsi aparılması məqsədilə bir qrup Azərbaycanlı mütəxəssisin Türkiyə Respublikasına ezam olunması üçün müraciət olunmuşdur. Bununla əlaqədar olaraq qeyd olunan mövzular ilə bağlı təcrübə mübadiləsi aparılması məqsədilə Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti və "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutunun əməkdaşları 6-10 mart tarixində təlim proqramlarında iştirak etmişlər.

Nazirliyin 2017-ci il üçün İş planına (abidə mühafizəçilərinin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə treninqlərin keçirilməsi) uyğun olaraq 20-24 iyun və 4-8 iyul tarixlərində İsmayıllı və Masallı rayonlarında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti və Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzi tərəfindən səyyar seminar-treninq keçirilmişdir. Seminar-treninqə İsmayıllı, Ağsu, Şamaxı, Qobustan, Qəbələ, Masallı, Yardımlı və Cəlilabad rayonlarından olmaqla 60 abidə mühafizəçisi cəlb olunmuşdur.

Noyabr-dekabr aylarında Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən respublika ərazisində aparılan arxeoloji qazıntı işləri ilə bağlı hesabatların təhlili aparılmış və aşkar olunmuş yeni abidələr Dövlət Xidmətində hazırlanan yeni aşkar olunmuş abidələrin siyahısına daxil edilmişdir.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə 11 aprel tarixində İmişli rayonu Qızılkənd kənd sakini Rüstəmov Məmmədağa Xəlil oğlu tərəfindən yaşadığı kəndin ərazisində gümüş sikkələrdən ibarət dəfinənin aşkar edilməsi barədə məlumat daxil olmuşdur. Məsələnin yerində araşdırılması məqsədilə 12 aprel tarixində Dövlət xidmətinin əməkdaşları Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun mütəxəssisləri ilə birgə gümüş pulların tapıldığı Zilitəpə adlanan əraziyə baxış keçirmişlər. Hazırda qeyd olunan gümüş pulların tarixi əhəmiyyətinin müəyyən olunması üçün Arxeologiya və Etnoqrafiya İnstitutunun Numizmatika şöbəsində araşdırma aparılır. Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq Azərbaycan Tarixi Muzeyi tərəfindən dəfinəni aşkar edən şəxsə mükafatın verilməsi üçün vəsait ayrıldıqdan sonra aşkar olunmuş gümüş pullar muzeyə təhvil veriləcəkdir.

Dövlət Xidmətinin abidə mühafizəçiləri tərəfindən respublikanın şəhər və rayonlarında 18 aprel “Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü” münasibətilə silsilə tədbirlər keçirilmiş, tarix və mədəniyyət abidələrinə ekskursiyalar təşkil olunmuşdur.

Dövlət Xidmətinə 12 iyun tarixində Ağsu şəhərində yerləşən “Şeyx Məzid türbəsinin ərazisində qanunsuz tikinti işlərinin aparılması barədə məlumat daxil olmuşdur. Ağsu arxeoloji ekspedisiyası tərəfindən Ağsu şəhərinin Şıxməzid məhəlləsindəki türbə ərazisinə baxış keçirərkən orada orta əsrlərə aid möhtəşəm tikinti qalıqları aşkar olunmuşdur. Dövlət Xidmətinin əməkdaşları yerində araşdırma aparılması üçün Ağsu rayonuna ezam olunmuş, arxeoloqla birlikdə ərazinin sərhədləri müəyyən olunmuş, abidənin sərhədlərinin səmadan görünüşünü (Google Earth) və ölçülərini göstərən cizgiləri hazırlanmışdır. Qeyd olunan işlər dayandırılmış, aşkar olunmuş arxeoloji sahə qeydə alınaraq, mühafizənin qabaqlayıcı dərəcəsi tətbiq edilmişdir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə 6 dekabr tarixində Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair 2011-2013-cü illər üzrə Dövlət Proqramına uyğun olaraq Bakı şəhəri, Nərimanov rayonunda inşa olunmuş M.Rostropoviç adına 21 nömrəli Musiqi Məktəbinin və Sabunçu rayonu Maştağa qəsəbəsində tikilmiş H.Abbasov adına Mədəniyyət Mərkəzinin (13 nömrəli kitabxana filialı daxil olmaqla) açılışı olmuşdur.

Dövlət Proqramının həyata keçirilməsi ilə əlaqədar hazırlanmış Tədbirlər planının 2.2.3. yarımbəndinin (Daşınmaz mədəni irsin qorunması işinin təkmilləşdirilməsi, o cümlədən, daşınmaz mədəni irsin, həmçinin arxeoloji abidələrin inventarlaşdırılması, sərhədlərinin və mühafizə zonalarının müəyyən edilməsi, pasportlaşdırılması və xəritələrinin hazırlanması, müasir tələblərə cavab verən məlumat bazasının yaradılması, multimedia və elektron müşahidə sistemlərinin tətbiqi) icrası ilə bağlı abidələrin sərhədlərinin və mühafizə zonalarının müəyyən edilməsi, mühafizə zonalarının layihələrinin hazırlanması və abidələrin pasportlaşdırılması üzrə bir sıra işlər yerinə yetirilmişdir. Həmin yarımbəndin icrası ilə əlaqədar 2015-ci ilə qədər hazırlanmış abidələrin mühafizə zonalarının layihələrinin Dövlət Xidmətində toplanması istiqamətində işə başlanmış və Nazirliyin müvafiq şöbəsindən 53 ədəd təsdiqlənmiş abidənin mühafizə zonası layihəsi akt üzrə təhvil götürülmüşdür. 2018-ci ildə 150 abidənin

mühafizə zonasının müəyyən edilməsi üçün qiymətləndirmə işlərinin aparılması başa çatdırılmışdır.

Dövlət Proqramının 2.1.5-ci yarımbəndinin (Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpa-konservasiya işlərinə dair normativ sənədlərin, o cümlədən, layihə-smeta sənədlərinin hazırlanması) icrası ilə bağlı "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutu ilə 28 aprel tarixində Az/NS-RH/BM-001 nömrəli müqavilə bağlanmışdır. Müqaviləyə əsasən normativ sənədlərin hazırlanması üzrə bır sıra işlər - "Tarix və mədəniyyət abidələri üzrə bərpa, konservasiya və yenidənqurma işlərinin qiymətlər toplusu" və "Tarix və mədəniyyət abidələri üzrə elmi layihə işlərinin qiymətlər toplusu" yerinə yetirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" 2016-cı il 29 mart tarixli, 1932 nömrəli Sərəncamının 3-cü bəndinin (Mədəniyyət və Turizm Nazirliyinin Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin və Regional idarələrinin abidə mühafizəçiləri ştatları Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə verilsin) icrası ilə əlaqədar olaraq müvafiq işlər yerinə yetirilmişdir.

KİNEMATOQRAFİYA

"Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq dövlət sifarişi ilə istehsalatda olan filmlər üzərində işlərin davam etdirilməsi, milli kinomuzun inkişafı və təbliği istiqamətində 2017-ci ildə ardıcıl və məqsədyönlü layihələr həyata keçirilmişdir. Hesabat dövründə müvafiq olaraq Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında "Eviniz abad" ("Köşk"), "Nar bağı", "#yoxdubeləsöhbət" ("İki nəfər üçün moll") bədii filmləri və vətənpərvərlik mövzusunda olan "Qarabağın səsi" adlı qısametrajlı silsilə filmlərin növbəti buraxılışları təhvil verilmişdir. "Faşizm bu gün" və "Yadelli nağıllar" ("Azərbaycan musiqisi və erməni plagiatı") sənədli filmləri üzərində işlər davam etdirilmişdir. Bundan əlavə, 1968-ci ildə çəkilmiş "Bu həqiqətin səsidir. Bəstəkar Qara Qarayev" tammetrajlı sənədli filmi bərpa edilmiş, Azərbaycan və ingilis dillərində subtitrləri hazırlanmışdır. 2014-cü ildə çəkilmiş "Qisas almadan ölmə. Keçmişdən məktublar" bədii filmi alt yazı vasitəsi ilə alman dilinə tərcümə edilmişdir.

"Salnaməfilm studiyası"nda "Nəğmə dolu bir ürəyəm" (Rəşid Behbudov) sənədli filmi təhvil verilmiş, "Cırtdan və Sehrli xalat" 3D formatda cizgi filminin istehsalı davam etdirilmişdir.

"Yaddaş" studiyası tərəfindən "Batalyon", "Qürbətdə qalmış məzar" sənədli filmlərinin və "Azərbaycanın Milli Qəhrəmanları" silsiləsindən V hissənin – 15 sənədli filmin istehsalı başa çatdırılaraq təhvil verilmiş, silsilənin VI hissəsi – 6 sənədli film istehsala buraxılmışdır.

"Azanfilm studiyası" tərəfindən "Əlifba" cizgi filmi təhvil verilmiş, "Balaca şahzadə" cizgi filmi üzərində işlər davam etdirilmişdir.

"Debüt" studiyasında "Yol ayrıcında qalmış taksi" ("Gecə taksisi") adlı qısametrajlı bədii filmin istehsalı başa çatmışdır.

"Dublyaj" studiyasında "Vandam Remboya qarşı", "Dağ kəndinin qış günü" və "Avtoportret" sənədli filmlərinin istehsalı başa çatdırılmışdır.

"SS Production" şirkəti ilə birgə Xalq Yazıçısı Anarın həyat və yaradıcılığına həsr olunmuş "Ardı yaşanılır" adlı sənədli film istehsala buraxılmışdır.

"Yaddaş" sənədli filmlər studiyasında çəkilmiş, "Azərbaycanın Milli Qəhrəmanları" sənədli filmlər silsiləsindən "Mən Xocalını tərk etməyəcəyəm", "Qəhrəmanlığa gedən yol", "Məmmədov Aqil", "Qərargah rəisi", "Tarixdə adı qalan", "Ata adı", "Pəhləvan komandir", "İlk komandir", "Səma cəngavəri", "Bacı yaddaşı", "Azərbaycanlı olmaq böyük şərəfdir", "Ana, üç günə qayıdacağam", "Oğul dərdi" və "Ən yüksək zirvə" filmləri 20 Yanvar faciəsinin 27-ci ildönümü ilə bağlı olaraq yanvarın 17-dən 19-dək Nazirliyin tabeliyində olan mədəniyyət müəssisələrində nümayiş etdirilmişdir.

Yanvarın 25-dən 27-dək Avstriyanın Vyana şəhərində Beynəlxalq Turizm Filmləri Festivalları Komitəsinin (CIFFT) 2016-cı ilin yekunları ilə bağlı iclasında Nazirliyin nümayəndə heyəti iştirak etmişdir.

Fevralın 22-dən 26-dək Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar olaraq "Xocalı. Matəm. Ekran" Sənədli Film Günləri keçirilmişdir. Film Günlərində dövlət sifarişi ilə "Yaddaş" sənədli filmlər studiyasında çəkilmiş, "Azərbaycanın Milli Qəhrəmanları" silsiləsindən, Xocalıda həlak olan qəhrəmanlara həsr olunmuş "Azərbaycanlı olmaq böyük şərəfdir", "Xocalının Zamini", "Mən Xocalını tərk etməyəcəyəm" və "Qəhrəmanlığa gedən yol" sənədli filmləri Heydər Əliyev adına Ali Hərbi Məktəbdə və ölkənin müxtəlif regionlarında yerləşən mədəniyyət mərkəzlərində, eləcə də, orta ümumtəhsil məktəblərində və hərbi hissələrdə nümayiş olunmuşdur. Bundan əlavə, Film Günləri çərçivəsində fevralın 24-də Nizami Kino Mərkəzində, Qarabağ müharibəsində qəhrəmanlıq və şücaət göstərmiş Natiq Qasımov haqqında Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında çəkilmiş "İgid" və Tərtər batalyonunun keçdiyi şərəfli döyüş yolundan bəhs edən, "Yaddaş" sənədli filmlər studiyasının istehsalı olan "Batalyon" sənədli filmlərinin təqdimatı keçirilmişdir.

Martın 6-da "Batalyon" sənədli filmi Tərtər Rayon Mədəniyyət Mərkəzində və Yevlax rayonunda yerləşən N saylı hərbi hissədə nümayiş etdirilmişdir.

"Yaddaş" sənədli filmlər studiyasında çəkilmiş, "Azərbaycanın Milli Qəhrəmanları" sənədli filmlər silsiləsindən Milli Qəhrəman Pəhləvan Fərzəliyevə həsr olunan "Şərəfli ömrün manifesti" sənədli filminin aprelin 11-də qəhrəmanın doğulub boya-başa çatdığı Füzuli rayonunda təqdimatı keçirilmişdir.

Aprelin 21-də Nizami Kino Mərkəzində "Salnaməfilm studiyası"nın istehsalı olan "Bakı əsrlərin aynasında" sənədli filminin təqdimatı olmuşdur.

"Yaddaş" studiyasında çəkilmiş, Sovet İttifaqı Qəhrəmanı Həbibulla Hüseynovun xatirəsinə həsr edilən "Qürbətdə qalmış məzar" sənədli filmi mayın 5-də Nizami Kino Mərkəzində tamaşaçılara təqdim olunmuşdur.

Mayın 30-da Gürcüstanın Batumi şəhərində Azərbaycanın Batumidəki Baş Konsulluğunun və "MEDİAGROUP ADJARA P.S."in dəstəyi ilə keçirilən Azərbaycan Kinosu Günlərinin açılışı münasibəti ilə "Hökmdarın taleyi" bədii filmi gürcü dilində nümayiş etdirilmişdir. Kino Günləri çərçivəsində "Yarımçıq xatirələr", "Dərs", Çölçü" bədii, Vulkanın nəfəsi" və "Lahıc" sənədli filmləri nümayiş olunmuşdur.

Avqustun 2-də Nizami Kino Mərkəzində Milli Kino Gününə həsr olunmuş tədbir keçirilmişdir. Tədbir çərçivəsində, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı və mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin əmri ilə müxtəlif fəxri adlara və diplomlara layiq görülmüş kino xadimlərinin mükafatlandırılması həyata keçirilmiş və istehsalı yeni tamamlanmış "Nar bağı" bədii filminin təqdimatı olmuşdur.

İyul ayının 23-də mədəniyyət və turizm naziri Əbülfəs Qarayev tərəfindən nazir müavinlərinin, nazirliyin struktur bölmələrinin və tabe kino müəssisələrinin rəhbərlərinin iştirakı ilə milli kino sahəsindəki bəzi problemlərə həsr edilmiş müşavirə keçirilmişdir. Nazirin tapşırıq və tövsiyələrinə uyğun olaraq mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyevin rəhbərliyi ilə, Bakıda və ölkənin bütün regionlarında yerləşən mədəniyyət müəssisəsinin kino nümayişi üçün mövcud şəraitinin monitorinqi aparılmış və Heydər Əliyev mərkəzləri, Mədəniyyət mərkəzləri, Mədəniyyət evləri və bəzi kənd klubları daxil olmaqla 242 mədəniyyət müəssisəsinin lazımi şəraitə malik olduğu müəyyən edilmişdir. Nazirliyin müvafiq əmri ilə hər il 15 sentyabr tarixində kino mövsümünün açılışının keçirilməsi nəzərdə tutulmuş və qeyd olunan mədəniyyət müəssisələrində həftədə üç dəfədən az olmayaraq Azərbaycan filmlərinin müntəzəm nümayişinə başlanılmışdır. 2018-ci ilin yanvar ayınadək göstəriləcək bədii, sənədli və animasiya filmlərinin repertuarı tərtib edilərək, filmlər hazırlanıb yerlərə təqdim olunmuşdur. Bundan əlavə, nazir müavini Ədalət Vəliyev tərəfindən ölkədəki dövlət güc strukturlarının, televiziyaların, kino nümayişi sahəsində fəaliyyət göstərən şirkətlərin rəhbər şəxsləri ilə görüşlər keçirilərək kino sahəsində əməkdaşlıq məsələləri müzakirə edilmişdir. Eyni zamanda,

gənc, orta və yaşlı nəslə mənsub kinematoqrafçılarla keçirilən görüşlər zamanı onların problemləri və təklifləri dinlənilmişdir.

“Yarımçıq xatirələr” bədii filmi sentyabrın 22-də Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Mühafizə alayında, “Həddən artıq uyğunluq” bədii filmi sentyabrın 29-da Ədliyyə Nazirliyinin 10 saylı Cəzaçəkmə Müəssisəsində, oktyabrın 3-də Bilgəhdə yerləşən Qocalar Evində, dekabrın 22-də Ədliyyə Nazirliyinin Qadın İslah Müəssisəsində, “Dərs” bədii filmi oktyabrın 6-da Ədliyyə Nazirliyinin Qadın İslah müəssisəsində, “Xeyirlə şərin rəqsi” bədii filmi oktyabrın 12-də Şabran və Quba rayonlarında, dekabrın 27-də Ədliyyə Nazirliyinin 11 saylı Cəzaçəkmə Müəssisəsində, “Pəhləvan komandir” sənədli filmi oktyabrın 18-də Ədliyyə Nazirliyinin 15 saylı İslah Əmək müəssisəsində, noyabrın 9-da 14 saylı Cəzaçəkmə müəssisəsində, “Vəkil hanı?” bədii filmi dekabrın 22-də Ədliyyə Nazirliyinin 16 saylı Cəzaçəkmə müəssisəsində nümayiş etdirilmişdir.

Turizmin müxtəlif sahələrinə həsr olunan, daxili və beynəlxalq turizmin inkişafına təkan verə biləcək filmləri təbliğ etmək, ən yaxşı filmlərin müəlliflərini həvəsləndirmək, habelə tarixi və mədəni irsin beynəlxalq mərkəzlərindən biri olan Azərbaycanın turizm potensialına diqqəti cəlb etmək məqsədilə noyabrın 15-dən 18-dək Nizami Kino Mərkəzində IV Bakı Beynəlxalq Turizm Filmləri Festivalı keçirilmişdir. Festivalın seçim komissiyasına 70 ölkədən 424 ekran əsəri təqdim edilmiş və 43 ölkədən 84 film komissiya tərəfindən seçilərək 5 kateqoriyada yarışmaq üçün müsabiqə proqramına qəbul olunmuşdur. Festival çərçivəsində noyabrın 16-da Nizami Kino Mərkəzində festivalın iştirakçıları və qonaqları üçün “Çay bayramı” təşkil edilmişdir. Festivalın qaliblərinə Diplom və mükafatlar təqdim olunmuşdur.

Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında kinorejissor Elçin Musaoğlunun təşəbbüsü ilə Azərbaycanda və xaricdə kinonun müxtəlif sahələri üzrə təhsil almış iddialı gənclərdən ibarət “Gənc Sinemaçılar Klubu” təsis edilmişdir. Klub ilkin fəaliyyətinə uğurla başlayaraq, bir sıra yaradıcı görüşələr və diskussiyalar həyata keçirmişdir.

Kino sahəsində fəaliyyət göstərən gənclərin yaradıcılıq fəaliyyətini stimullaşdırmaq, milli-mənəvi və ümumbəşəri dəyərləri kino vasitəsi ilə təbliğ etmək məqsədilə 2017-ci il dekabrın 10-dan 2018-ci il aprelin 20-dək qısametrajlı bədii film layihələri müsabiqəsi elan edilmişdir. Müsabiqədə qalib gəlmiş 3 layihəyə onları təqdim etmiş müstəqil kino şirkəti tərəfindən “Azərbaycanfilm” kinostudiyasının istehsalat bazasında və kinostudiyanın maliyyə təminatı ilə Mədəniyyət və Turizm Nazirliyinin sifarişi əsasında film çəkilməsi nəzərdə tutulmuşdur.

Polşanın Varşava şəhərində 8-12 oktyabr tarixində keçirilən 12-ci "FilmAT” Film, Sənət və Turizm Festivalında Nazirliyin nümayəndəsi iştirak etmiş və festival çərçivəsində təşkil olunan elmi konfransda “Təhsil dayanıqlı inkişafın təməli kimi” mövzusunda məruzə ilə çıxış etmişdir.

Kinomuzun beynəlxalq əlaqələrinin inkişaf etdirilməsi istiqamətində də müəyyən işlər görülmüş, filmlərimiz dünyanın müxtəlif ölkələrində keçirilən onlarla beynəlxalq kino festivallarında ölkəmizi təmsil etmişdir. Belə ki, hesabat dövründə Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının nəzdində Milli Komissiyanın qərarı ilə Amerika Kino Akademiyasının Oskar Mükafatına “Xarici dildə ən yaxşı film” nominasiyası üzrə təqdim edilmək üçün seçilən “Nar bağı” bədii filmi Çexiyada Karlovy Vary Beynəlxalq Film Festivalında, Qazaxıstanda keçirilən “Avrasiya” Beynəlxalq Film Festivalında (“Ən yaxşı kişi rolu”, “Münsiflər heyətinin xüsusi mükafatı” və FIPRESCI (Beynəlxalq Kinotənqidçilər Federasiyası) tərəfindən “Xüsusi vurğulama” mükafatına layiq görülüb), Hollandiyada “Film by the Sea” Beynəlxalq Film Festivalında, ABŞ-da Asiya Dünya Film Festivalında və 26-cı “Heartland” Film Festivalında, Almaniyada “Cottbus” Film Festivalında, Hindistanda keçirilən 22-ci “Kerala” Beynəlxalq Film Festivalında, Belarusiyada "Listapad" Minsk Beynəlxalq Film Festivalında (“Ən yaxşı ssenari” mükafatı və “Ən yaxşı aktyor” diplomu qazanıb), Estoniyada keçirilən 21-ci "Qaranlıq Gecələr" (PÖFF) Film Festivalında, Türkiyədə Malatya Beynəlxalq Film Festivalında ("Ən yaxşı bədii film" mükafatına layiq görülüb), Misirdə 39-cu Qahirə Beynəlxalq Film Festivalında, Türkiyədə 5-ci Antakya Beynəlxalq Film Festivalında (“Ən yaxşı qadın roluna görə” mükafat qazanıb), Avstraliyada keçirilən Asiya və Sakit okean hövzəsi

ölkələri Kino Akademiyası (APSA) mükafatının müsabiqəsində (filmin rejissoru “Young Cinema Award” mükafatı ilə təltif olunub), Dərs” bədii filmi Rusiyada keçirilən 22-ci “Uşaqlar üçün kino” Beynəlxalq Film Festivalında (“Yeniyətmə münasibətləri problemlərinin ekranda ən yaxşı bədii canlandırılması”na görə diploma layiq görülüb) və 11-ci “Səmimi qəlbdən” Beynəlxalq Ailə Filmləri Festivalında, “Dərs” və “Qırmızı bağ” bədii filmləri Banqladeşdə keçirilən 15-ci Dəkkə Beynəlxalq Film Festivalında (“Qırmızı bağ” filmi “Ən yaxşı bədii film” mükafatı qazanmışdır), Türkiyədə Trabzon Beynəlxalq Film Festivalında (“Qırmızı bağ” filmi "Ən yaxşı qadın rolu", "Ən yaxşı kişi rolu", “Münsiflər heyətinin xüsusi mükafatı”na layiq görülüb), “Qırmızı bağ”, “Qonşu qadın”, “Kədərim”, “Yuxarıda və aşağıda”, “Dmitrov küçəsi 86” bədii filmləri Bolqarıstanda 9-cu Sofia MENAR Film Festivalında, “Qırmızı bağ” filmi Rusiyada 30-cu “NİKA” Rusiya milli kinematoqrafiya mükafatı müsabiqəsində, Avstriyada “LET’S CEE” Beynəlxalq Film Festivalında, Çində 4-cü İpək Yolu Beynəlxalq Film Festivalında “İçəri şəhər” bədii filmi Hindistanda keçirilən “Pune”, “Yashwant”, “Benqaluru”, “Kozhikode”, “Kottayam”, “Nilambur” beynəlxalq film festivallarında, ABŞ-da 50-ci “Worldfest Houston” (“Ən yaxşı dram filmi” nominasiyasında “Qızıl Remi” mükafatı, “Ən yaxşı qadın rolu”na və “Ən yaxşı ikinci plan kişi rolu”na görə mükafatlar qazanıb) və “SEE Fest” Film Festivalında, Kayman adalarında “Cayman” Beynəlxalq Film Festivalında, İspaniyada Madrid Beynəlxalq Film Festivalında, Çində keçirilən 4-cü İpək Yolu Beynəlxalq Film Festivalında, “Arşın mal alan” bədii filmi Avstriyada “LET’S CEE” Beynəlxalq Film Festivalında, “Çölçü” bədii filmi Kayman adalarında “Cayman” Beynəlxalq Film Festivalında, Hindistanda Kəlküttə Beynəlxalq Kult Filmləri Festivalında (“Golden Fox Awards” – “Qızıl tülkü” mükafatına layiq görülüb), ABŞ-da Çikaqo Beynəlxalq Art-haus Film Festivalında, “Üçüncü günün adamı” bədii Kanadada keçirilən Montreal Dünya Film Festivalında, Misirdə 39-cu Qahirə Beynəlxalq Film Festivalında və Türkiyədə 5-ci Antakya Beynəlxalq Film Festivalında (“Ən yaxşı kişi roluna görə” mükafat qazanıb), "Həddən artıq uyğunluq" bədii filmi Hindistanda 6-cı Dehli beynəlxalq Film Festivalında, “Qara bağ” və “Onun atası” bədii filmləri Türkiyədə “Hak-İŞ” Beynəlxalq Qısametrajlı Filmlər Festivalında (“Qara bağ” filmi “Ən yaxşı bədii film” və “Ən yaxşı kişi aktyor” mükafatı qazanıb), “Hədiyyə” bədii filmi İtaliyada “Corti a Sud – Polla in Corto” Beynəlxalq Qısametrajlı Filmlər Festivalında iştirak etmişdir. “Çölçü”, “Həddən artıq uyğunluq”, “İçəri şəhər” və “Qırmızı bağ” bədii filmləri Türkiyədə keçirilən Alanya Beynəlxalq Film Festivalında “Azərbaycan kinosu bu gün” proqramı çərçivəsində nümayiş olunmuş və festivalda filmlərin yaradıcı heyətləri iştirak etmişlər. Ümumilikdə, il ərzində 14 filmimiz 5 qitəni əhatə edən 20 ölkədə keçirilmiş 38 beynəlxalq festivalda 52 dəfə iştirak edərək 20 mükafat qazanmışdır.

Dövlət Film Fondu tərəfindən martın 29-da görkəmli kino xadimi, Xalq Artisti Əlisəttar Atakişiyevin, aprelin 19-da kinorejissor, Əməkdar İncəsənət Xadimi Fikrət Əliyevin xatirə gecələri, mayın 5-də ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibəti ilə “Heydər Əliyev və Azərbaycan kinosu” mövzusunda elmi-praktik konfrans, oktyabrın 6-da kinooperator, Əməkdar İncəsənət Xadimi Arif Nərimanbəyovun 100, oktyabrın 27-də görkəmli aktyor, Xalq Artisti Ağasadıq Gəraybəylinin 120, noyabrın 30-da rejissor Əmirhüseyn Məcidovun 80, dekabrın 19-da tanınmış aktyor Nodar Şaşıqoğlunun 90 illik yubileyləri keçirilmişdir.

Hesabat dövründə özəl kino şirkətləri tərəfindən istehsal edilmiş “3 badam, 1 qoz”, “Mahmud baba”, “Hoqqa”, “Ağanatiq”, “Ər quyusu”, “Bayram axşamı”, “Stalinin başı”, “Niyə?”, “The Game”, "OL", "Sara", "Don Marleone", “Xənnas”, "Nazlı", "Brat Lİ", “Məlikməmməd və Ziba”, “21 sual”, “Samedik”, “Mələyin öpüşü”, "Big Bubble əməliyyatı", “Gecə qonağı 2”, “Onun ünvanı”, “Təhmin və Zaur”, “İkinci pərdə”, “Yanlış anlama”, “Dəmir Qazan”, “Toydan sonra nağara”, “Kəklikotu”, “Qızqaçırma” və “Tayson” bədii filmləri Dövlət Reyestrində qeydə alınaraq Yayım vəsiqəsi ilə təmin olunmuşdur.

NƏŞRİYYATLARLA İŞ

Hesabat dövründə ölkədə kitaba, mütaliəyə marağın daha da artırılması, Azərbaycan oxucusunun yerli və xarici nəşr məhsulları ilə yaxından tanışlığı, eyni zamanda yerli və xarici nəşriyyatlar, kitab evləri arasında yeni əməkdaşlıq imkanlarının yaradılması məqsədilə 2017-ci ilin 28-30 sentyabr tarixində Bakı İdman Sarayında V Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası keçirilmişdir. V Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasıda 100 yerli və 50 xarici nəşriyyat, poliqrafiya müəssisələri və ölkədə akkreditə olunmuş diplomatik nümayəndəlikləri iştirak etmişdir. Sərgi ilə bağlı video-çarx KİV-də, sosial şəbəkələrdə yayımlanmış, şəhərin müxtəlif nöqtələrində reklam-çap məhsulları vurulmuş, həmçinin sərgi iştirakçılarına paylanılmışdır.

28 sentyabr tarixində Baş nazirin müavini Elçin Əfəndiyev, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, dövlət rəsmiləri, millət vəkilləri, diplomatik nümayəndəliklərin rəhbərləri, ziyalıların iştirakı ilə sərginin açılış mərasimi baş tutmuşdur. Sərgi çərçivəsində üç gün ərzində 60-a yaxın tədbir – təqdimat mərasimləri, konfranslar, görüşlər, imza günləri və s. keçirilmişdir. Respublika Kitabxana Kollektorunun stendində Mədəniyyət və Turizm Nazirliyinin "Avtomat kitab köşkü" layihəsi kitabsevərlərə təqdim olunmuşdur. Qeyd edilməlidir ki, müasir dövrdə oxucuların diqqətini cəlb etmək məqsədi ilə bir sıra ölkələrdə kitabların satışı məhz bu kimi yeni üsullarla həyata keçirilir. Kitabxana Kollektorunun stendində yerləşdirilmiş həmin köşkdən sərginin keçirildiyi üç gün ərzində oxucular tərəfindən 30-dan çox kitab alınmışdır. "Avtomat kitab köşkü"nün sayı artırılaraq şəhərin müxtəlif məkanlarında, kitabxanalarda, mədəniyyət müəssisələrində yerləşdirilməsi nəzərdə tutulur. Sərginin bağlanış mərasimində iştirakçılar diplomla təltif olunmuş, Azərbaycan ədəbiyyatının xarici dillərə tərcüməsi və təbliği işindəki səmərəli fəaliyyətinə görə norveçli tərcüməçi Ragnhild Thori və türkiyəli yazar Yurtseven Şen Nazirliyin Fəxri fərmanına layiq görülmüş, sərginin "Ən yaxşı nəşriyyat" nominasiyası üzrə Türkiyədən "Zengin yayıncılık" və "Ən yaxşı kitab" nominasiyası üzrə isə "Azərnəşr" tərəfindən nəşr olunmuş, erməni yalanlarını, uydurma erməni soyqırımını ifşa edən ingilis, fransız, alman və rus dillərində işıq üzü görmüş 17 adda kitab seriyası mükafatlandırılmışdır.

"2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 yanvar tarixli Sərəncamına uyğun olaraq Prezident Administrasiyasının 2017-ci il 10 fevral tarixli, 30 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planının icrası məqsədilə Nazirliyin 2017-ci il 3 mart tarixli, 54 nömrəli əmrinə əsasən aidiyyəti qurumlarla əlaqəli şəkildə müvafiq işlər görülməkdədir. Administrasiyanın Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planının 35-ci bəndinin icrası məqsədilə birgə fəaliyyəti əlaqələndirmək üçün Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov Nazirlik tərəfindən məsul şəxs təyin edilmişdir. Milli Kitabxanaya tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fonduna Həmrəylik mövzusunda kitablar təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında" 2017-ci il 12 yanvar tarixli, 2597 nömrəli Sərəncamının icrası ilə əlaqədar Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, M.P.Vaqifin 300 illik yubileyinə həsr olunan Tədbirlər Planı hazırlanmış və Mədəniyyət və Turizm Nazirliyinin müvafiq əmri ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, TÜRKSOY təşkilatı, Türk Mədəniyyəti və İrsi Fondu və Azərbaycan Milli Kitabxanası "Molla Pənah Vaqif ili"nin açılışı münasibətilə mart ayının 2-də TÜRKSOY-un qərargahında və mart ayının 3-də Sakarya Bələdiyyəsində kitab sərgisi və konfrans keçirmişdir. Mədəniyyət və turizm nazirinin birinci müavini Vaqif Əliyev qeyd edilən tədbirlərdəki çıxışı zamanı Molla Pənah Vaqifin Azərbaycan ədəbiyyatında və tarixindəki xüsusi rolundan bəhs etmişdir.

Molla Pənah Vaqifin 300 illik yubileyi ilə bağlı Nazirliyin müvafiq Tədbirlər Planına əsasən akademik Nizami Cəfərovun müəllifi olduğu "Molla Pənah Vaqif" kitabının nəşri başa çatdırılmışdır. Aprelin 13-də Azərbaycan Milli Kitabxanasında "Molla Pənah Vaqif" kitabının və

Milli Kitabxana tərəfindən hazırlanmış Elektron məlumat bazasının təqdimatı keçirilmişdir. Kitab Mədəniyyət və Turizm Nazirliyinin tabeçiliyində olan kütləvi kitabxanalara və digər aidiyyəti qurumlara paylanılmışdır.

Yubiley çərçivəsində "Molla Pənah Vaqif dünya dillərində" kitabının təqdimatı isə sentyabrın 28-də V Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasında keçirilmişdir.

Noyabr ayının 2-də Ankara şəhərində Türkiyə Milli Kitabxanasında böyük Azərbaycan şairi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans və Azərbaycan Milli Kitabxanasının fonduna məxsus olan Molla Pənah Vaqif əsərlərindən ibarət kitab sərgisi təşkil edilmişdir. Azərbaycan və Türkiyə rəsmilərinin, elm, ədəbiyyat xadimlərinin qatıldığı tədbir çərçivəsində "Molla Pənah Vaqif şeirləri dünya dillərində", "Molla Pənah Vaqif", "Molla Pənah Vaqif. Biblioqrafiya" kitablarının təqdimatı keçirilmişdir.

M.P.Vaqifin 300 illik yubileyinin sonuncu zirvə tədbiri isə 7 dekabr tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında təşkil edilmiş ədəbi-bədii gecə olmuşdur. Tədbirdə mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, TÜRKSOY-un baş katibi Düsein Kaseinov, Rusiya Federasiyasının Kabardin Balkar Respublikasının Yazıçılar İttifaqının sədri Mütəllib Beppayev və digər rəsmi şəxslər, qonaqlar, ziyalılar iştirak etmiş, incəsənət ustalarının ifasında şairin şeirləri, müxtəlif musiqi nömrələri səsləndirilmiş, S.Vurğunun "Vaqif" dramından bir hissə səhnələşdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Yaşlı və gənc nəsil yazıçı, rəssam və bəstəkarların yaradıcılıq fəaliyyətini təmin etmək üçün xüsusi təqaüd fondu haqqında" 6 avqust 2007 tarixli, 612 nömrəli Fərmanın icrası məqsədilə Azərbaycan Yazıçılar Birliyi tərəfindən müəyyən edilmiş 50 yaşlı və 20 gənc yazıçıya Nazirliyin 15 may 2017 tarixli, 116 nömrəli əmrinə əsasən 2017-ci ilin may ayının 1-dən bir il müddətinə təqaüdlərin verilməsi təmin edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin 135 illik yubileyinin keçirilməsi haqqında" 2017-ci il 24 oktyabr tarixli, 3313 nömrəli Sərəncamının icrası məqsədilə Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Hüseyn Cavidin 135 illik yubileyinə həsr olunan, 2017-2018-ci illəri əhatə edən Tədbirlər Planı hazırlanmış və Mədəniyyət və Turizm Nazirliyinin müvafiq əmri ilə təsdiq edilmişdir. Dekabrın 18-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında dahi ədibin təntənəli yubiley tədbiri keçirilmişdir. Tədbirdə yüksək rütbəli dövlət rəsmiləri, ziyalılar, ictimaiyyət nümayəndələri iştirak etmiş, incəsənət ustalarının ifasında Hüseyn Cavidin həyat və yaradıcılığından səhnəciklər oynanılmışdır.

2016-2017-ci illər üzrə yüksək bədii və sənətkarlıq keyfiyyətlərinə malik ədəbi əsərləri dəyərləndirmək, təbliğ etmək, istedadlı ədiblərin səmərəli yaradıcılıq axtarışlarına zəmin yaratmaq məqsədi ilə Nazirlik tərəfindən növbəti dəfə "Qızıl Kəlmə" Ədəbi Mükafatına əsərlərin qəbulu elan edilmişdir. Hesabat dövründə mükafatla bağlı 5 nominasiya üzrə 100 əsərin qeydiyyatı aparılmış və onlar qiymətləndirilməsi üçün Mükafatlandırma Komissiyasının üzvlərinə təqdim olunmuşdur. 1 may tarixində Beynəlxalq Muğam Mərkəzində qaliblərin mükafatlandırılması mərasimi keçirilmişdir. Mükafatlandırma Komissiyasının seçiminə əsasən Nəsr əsərləri nominasiyası üzrə Sona Vəliyeva "İşığa gedən yol" kitabı, Vaqif Nəsib "Sənsizlik, mənsizlik, onsuzluq" romanı, Əkrəm Qaflanoğlu "Talelər kəsişəndə" kitabı, Poeziya əsərləri nominasiyası üzrə Firuzə Məmmədli "Seçilmiş əsərləri" kitabı, Vaqif Bayatlı Odər "Hər iki dünyanın ən gözəli" silsilə şeirləri, Ədəbi tənqid və publisistika əsərləri nominasiyası üzrə Bəsti Əlibəyli "İkinci mətn" kitabı, Nərgiz Cabbarlı "Qurtuluşdan sonra – Yeni nəsil ədəbiyyatı" kitabı, Orijinaldan bədii tərcümə əsərləri nominasiyası üzrə Svetlana Aleksiyeviçin "Müharibənin qadın olmayan üzü" əsərinin rus dilindən tərcüməsinə görə Əyyub Qiyas, Orxan Kamalın "Nazim Hikmətlə 3 il yarım" əsərinin türk dilindən tərcüməsinə görə Fərid Hüseyn, Uşaqlar üçün yazılmış bədii əsərlər nominasiyası üzrə Zahid Xəlil "Ağ leyləklər" kitabı, Qəşəm Nəcəfzadə "Çiçəkli xalça" kitabı qalib elan olunmuşdur. Bunlarla yanaşı, Mirmehdi Ağaoğlunun "Alman

malı” kitabı və Şəhriyar del Geraninin “Darıxmağın adı” kitabı “Qızıl Kəlmə” Ədəbi Mükafatı çərçivəsində “Şans” ödülünə layiq görülmüşdür.

2017-ci ildə mütaliəyə münasibətin yaradıcı formalarının dəstəklənməsi, kino sahəsində istedadlı və yaradıcı gənclərin (rejissor, operator, rəssam, aktyor, qrimçi və s.) üzə çıxarılması üçün Nazirliyin təşkilati dəstəyi ilə növbəti dəfə Buktreyler Festivalı keçirilmişdir. Nazirliyin müvafiq əmrinə əsasən, festival üçün video materialların qəbulu elan edilmiş və aprelin 21-də Beynəlxalq Muğam Mərkəzində qaliblərin mükafatlandırılması mərasimi keçirilmişdir. Festivalda I yeri Elnur Rzayevin “Nəfəs” (Ramiz Rövşən), II yeri Emin Həsənxanzadənin “O2” (Müşfiq Xan) və Orxan Adıgözəlovun “Sənə məktub yazıram” (Aqşin Yenisey), III yeri isə Qalib Mirzəliyevin “Gecəqondu insanı” (Azər Elşadoğlu), Cavidan Əli-zadənin “İntihar” (Təranə Vahid) və Vəli Məmmədovun “Çevriliş” (Sahilə İbrahimova) buktreylerləri qazanmışdır.

Mədəniyyət və Turizm Nazirliyinin təşkilati dəstəyi ilə həyata keçirilən “Söz” ədəbiyyat layihəsi çərçivəsində bir sıra maraqlı tədbirlər keçirilmişdir. Layihə çərçivəsində mart 6-da Azərbaycan Xalça Muzeyində Xalq Yazıçısı Anarla görüş, Azərbaycan Dövlət Yuğ Teatrında aprelin 1-də gənc şairlərlə “Hüdudsuz” və mayın 10-da “O2 – Oksigen” adlı görüşlər və iyulun 14-də Beynəlxalq Muğam Mərkəzində “Zəhra”, sentyabrın 30-da “Art garden”də “Güclü qadın” tədbirləri, Azərbaycan Milli İncəsənət Muzeyində oktyabrın 27-də gənc qələm sahibləri ilə görüş və noyabrın 24-də Xalq Şairi Vaqif Səmədoğluya həsr olunmuş ədəbi-bədii gecə təşkil olunmuşdur.

12 aprel tarixində Azərbaycan Dövlət Mahnı Teatrında Nazirliyin təşkilati dəstəyi ilə Azərbaycan Yazıçılar Birliyi tərəfindən Əməkdar jurnalist, tanınmış yazıçı Eldar İsmayılın 75 illik yubileyi keçirilmişdir.

Hər il ənənəvi olaraq may ayında keçirilən Sabir Poeziya Günləri 2017-ci ilin 30 may tarixində Şamaxı şəhərində təşkil olunmuşdur. Respublikanın görkəmli yazıçı və şairləri iştirak etdiyi tədbirdə dahi Mirzə Ələkbər Sabirin həyat və yaradıcılığı yenidən xatırlanmış, yüksək qiymətləndirilmişdir.

Mayın 31-də Beynəlxalq Muğam Mərkəzində Azərbaycan mühacirət ədəbiyyatının görkəmli nümayəndəsi, şair Almas İldırımın anadan olmasının 110 illiyi münasibətilə təntənəli yubiley tədbiri keçirilmişdir. Tədbirdə şairin həyat və yaradıcılığından bəhs olunmuş, müəllifi olduğu şeirlər və müxtəlif musiqi nümunələri səsləndirilmişdir.

“Russkiy Mir” fondunun dəstəyi ilə keçirilən “Jivoy Puşkin” beynəlxalq müsabiqəsində Cəlilabad rayon MKS-in təqdim etdiyi layihə 5 qalibdən biri olmuş və 5-8 iyun tarixində Rusiyanın Serqaç şəhərində mükafatlandırılma mərasimi keçirilmişdir. Tədbirdə nümayəndə heyətinin iştirakı təmin edilmişdir.

14-17 iyul tarixində Azərbaycan Dövlət Mahnı Teatrında həm şeir, həm də musiqi sənətinin təmsil olunduğu XII Beynəlxalq Bakı Müəllif Mahnıları və Poeziyası Festivalı keçirilmişdir. Festivalda müəllif mahnısı janrının əsasını qoyanlardan A.M.Qrodnidski başda olmaqla, Vadim Yeqerov, Yuriy Lores, Dmitri Kimmelfeld, Olqa Kaçanova kimi tanınmış sənətkarlar, eyni zamanda Rusiya, Ukrayna, Belarus, Gürcüstan, Qazaxıstan, Litva, Çexiya, Almaniya, Fransa, İsrail və ABŞ-dan nümayəndələr iştirak etmişdir.

Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin dəvəti ilə mədəniyyət və turizm nazirinin birinci müavini Vaqif Əliyev 7-11 sentyabr tarixində Daşkənd şəhərində keçirilmiş “Özbəyim” milli mədəniyyət festivalında iştirak etmişdir.

Səfər çərçivəsində əvvəlcə sentyabrın 8-də Daşkəndin mərkəzi parkında keçirilən “Özbəyim” milli mədəniyyət festivalında 8 tonluq özbək plovunun bişirilmə mərasimi, özbək ustalarının əl işlərindən ibarət sərgilər, tətbiqi sənət, dulusçuluq və ağac üzərində oyma və digər sənət nümunələrinin satış yarmarkaları ziyarət edilmiş, tədbirdə Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslərlə görüş olmuşdur. “Hyatt Regency” otelinin təqdimatlar mərkəzində “Özbəyim” kitabının təqdimat mərasimi keçirilmişdir. Sentyabrın 9-da Səmərqənd şəhərinə, onun tarixi abidələrinə və görməli yerlərinə səfər edilmişdir. Sentyabrın 10-da Vaqif Əliyev Daşkənd şəhərində yerləşən Heydər Əliyev adına Mədəniyyət Mərkəzinə gəlmiş, Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin qarşısında Azərbaycan xalqının ümummilli

liderinin abidəsi önünə gül dəstələri qoyduqdan sonra Mərkəzdə ulu öndərin həyat və fəaliyyətinə həsr edilmiş kitab və rəsm sərgisi, həmçinin burada fəaliyyət göstərən rəqs, rəsm, Azərbaycan dili dərnəklərinin işi, Qarabağ geyimlərinin sərgisi və Mərkəzin kitabxanası ilə tanış olmuşdur. Səfər çərçivəsində Azərbaycan Respublikasının Özbəkistandakı səfirliyində və Əlişir Nəvai adına Özbəkistan Milli Kitabxanasında, həmçinin səfər müddətində müxtəlif rəsmi şəxslərlə görüşlərdə ikitərəfli mədəni əlaqələrin genişləndirilməsi barədə danışıqlar aparılmışdır.

Kitabın təbliği, reklamı, yayımı məqsədilə Mədəniyyət və Turizm Nazirliyinin, Nizami Rayon İcra Hakimiyyətinin və Respublika Kitabxana Kollektorunun təşkilatçılığı ilə 12-22 sentyabr tarixində Nizami rayonu Heydər Əliyev parkında "Kitab bayramı 2017" adlı sərgi-yarmarka keçirilmişdir. Tədbirin 12 sentyabrda gerçəkləşən açılış mərasimində mədəniyyət və turizm nazirinin birinci müavini Vaqif Əliyev, Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov və digər rəsmi şəxslər, respublikanın tanınmış ədəbi, ictimai-siyasi xadimləri iştirak etmişdir.

Ötən il ərzində aparılmış monitorinqlər, həmçinin müəlliflər, qurumlar tərəfindən edilmiş müraciətlər nəzərə alınmaqla tərtib və təsdiq olunmuş nəşr planına uyğun olaraq, hesabat dövründə Hüseyn Cavid "Pyeslər", Tofiq Əfəndiyev "Prokuror", Yaşar Kamal "İncə Məmməd", Teymur Elçin "Balaca Günayın kitabı", Mustafa Çəmənli "Səhnəmizin ağ çiçəyi", Lətifəxanım Əliyeva "Muğamın meracı", Qabil "Seçilmiş əsərləri" (2 cilddə), Araz Dadaşzadə "XVIII əsr Azərbaycan lirikası. Məqalələr", Vaqif Nəsib Sarıhüseynoğlu "Rəngli günlər", Redyard Kiplinq "Mauqli", Yevgeni Bertels "Böyük Azərbaycan şairi Nizami", Ceyhun Hacıbəyli "Bir il xəyallarda... və bütöv bir ömür", Süleyman Hüseynov "And", Zemfira Qafarova "Üzeyir Hacıbəylinin "Koroğlu"su", "Bakıxanovlar şöhrət zirvəsində" və s. kitabların nəşri başa çatdırılmış, tabe kitabxanalara və müvafiq qurumlara paylanılmışdır. "Azerbaijan Fairy Tales" kitabının 2-ci cildinin, "Mədəniyyət" kataloqunun 8-ci nömrəsinin nəşrə hazırlanması prosesi yekunlaşmışdır.

Kitabxana fondlarının uşaq ədəbiyyatı ilə zənginləşdirilməsi sahəsində konkret işlərin görülməsi məqsədilə Nazirliyin "Bərpanəşr" layihəsi çərçivəsində kitabxanalarda 1 nüsxə qalmış nadir uşaq ədəbiyyatı nümunələrinin nəşri 2017-ci ildə də davam etdirilmişdir. Bu layihədən Nizami Gəncəvi "İsgəndərin Bərdəyə gəlməsi və Nüşabə ilə görüşməsi", "Şah və xidmətçi" və "Kərpickəsən", Mir Cəlal "İki rəssam", Qrimm qardaşları "Bremen musiqiçiləri", Fikrət Sadıq "Bala kirpi","Gözəl Vasilisa", B.Suteyev "Miyo" eləyən kim idi?", "Məlikməmmədlə vəfalı atın nağılı", Ə.Haqverdiyev "Ovçu Qasım", A.Axundova "Skazka o tsarevne nefti", S.M.Qənizadə "Nağıl", R.Rza "Təranənin oyuncaqları", "Qarışqa və göyərçin", "Xoruz" kitabları işıq üzü görmüş və kitabxanalara paylanılmışdır.

Azərbaycan kitabının tanıdılması və dünyada yayılması məqsədilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2016-cı ildən etibarən "Azərbaycan Kitabının Dünyada Tanıdılması" (AKDT) layihəsi həyata keçirilir. Türkiyədə fəaliyyət göstərən "Sevinç Fırat Zengin Yayıncılık" nəşriyyatı ilə əldə olunmuş razılığa əsasən 2017-ci ildə layihə üzrə Yusuf Vezir Çemenzeminli "Kan içinde (İki ateş arasında)", Celil Memmedguluzade "Danabaş köyünün hikayeleri", Mir Celal "Bir gencin manifestosu", İlyas Efendiyev "Köprü kuranlar", Abdurrahim bey Hakverdiyev "Hortlağın Cehennem mektupları" və "Avcı Kasım", Yusuf Samedoğlu "Kırım günü", Ferman Kerimzade "Karlı aşırım" kitabları Türkiyəli kitabsevərlərin ixtiyarına verilmişdir. Kitablar qardaş xalqın rəğbəti ilə qarşılanmışdır.

Azərbaycan kitab sənətinin və Azərbaycan həqiqətlərinin dünyada tanıdılması məqsədi ilə müvafiq qrafikə əsasən beynəlxalq kitab sərgilərində Nazirliyin iştirakı təmin edilmişdir. 6-10 sentyabr tarixində keçirilmiş 30-cu Moskva Beynəlxalq Kitab Sərgi-Yarmarkasında Nazirlik tərəfindən 21 kv.m. stend icarəyə götürülərək Azərbaycanın dövlətçilik ənənələrinə, mədəniyyətinə, tarixinə və turizm imkanlarına dair nəşr nümunələri sərgilənmiş, maraqlı və dinamik həyat yaşayan respublikamızda ən müxtəlif sahələrin inkişafına güzgü tutan çeşidli çap məhsulları nümayiş etdirilmişdir. Sərgidə Nazirliklə yanaşı Respublika Gənclər Kitabxanası və "AZƏRKİTAB-Kitab Təbliğatı Mərkəzi"də təmsil olunmuşdur.

Ölkəmizin, onun zəngin mədəniyyətinin, inkişaf edən nəşriyyat-poliqrafiya sahəsinin, kitab sənətinin təmsil və təbliğ olunması məqsədilə Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşlarından və yerli nəşriyyat nümayəndələrindən ibarət nümayəndə heyəti 11-15 oktyabr tarixində Frankfurt Beynəlxalq Kitab Sərgisində iştirak etmişdir. Nəşriyyat və informasiya sahəsində xarici tərəfdaşlarla əlaqələrin qurulması, Azərbaycanın zəngin mədəniyyətinin və sürətli inkişafının və eyni zamanda Qarabağ həqiqətlərinin təbliğ olunması baxımından sərgi mühüm əhəmiyyət daşıyır. 2017-ci ildə 56 kv.m. sahədə, Qız Qalası və Qala divarları dizaynı ilə hazırlanmış xüsusi stendlə təmsil olunduğumuz sərgidə ümummilli lider Heydər Əliyevin, cənab Prezident İlham Əliyevin həyat və fəaliyyətini əks etdirən kitablar, dövlətçiliyimizə, tariximizə, mədəniyyətimizə və ölkəmizin turizm potensialına dair 380 adda 700-ə yaxın nəşr məhsulları alman, ingilis və Azərbaycan dillərində ziyarətçilərin diqqətinə təqdim edilmişdir. Həmçinin Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Respublikasının Almaniyadakı Səfirliyinin, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin birgə təşkilatçılığı ilə sərgi çərçivəsində milli pavilyonda 12 oktyabr tarixində "XVIII-XXI əsrlərdə alman dilli Nizamişünasların elmi tədqiqatlarının nəticələri" və "Berlin Dövlət Kitabxanasında qorunan 21 ədəd "Xəmsə" poemalar toplusu qədimi əlyazmalarına çəkilmiş miniatür nümunələrinin tədqiqi" mövzularında məruzələr səsləndirilmiş, 13 oktyabr tarixində keçirilmiş “Azərbaycan Odlar Yurdu” adlı tədbirdə "Azərbaycan Almanların gözü ilə", "Azərbaycanlılar Almaniyada – diaspor nümayəndələrinin təəssüratları" mövzularında müzakirələr baş tutmuş, daha sonra Dr. Rahim Şmitin “Mədəniyyətlərarası Təbabət və Kommunikasiya" adlı kitabının təqdimatı keçirilmiş, 14 oktyabr tarixində Azərbaycan Respublikasının Prezidentinin “Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında” 30 avqust 2016-cı il tarixli Sərəncamının icrası ilə bağlı eyni adlı məruzələrdən ibarət tədbir təşkil edilmişdir. Tədbir çərçivəsində, həmçinin “IRS-Erbe” jurnalının Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyinə həsr olunmuş nömrəsinin və “IRS Publishing House” nəşrlər evinin kitablarının təqdimatı keçirilmişdir.

Mədəniyyət və Turizm Nazirliyinin və ölkə nəşriyyatlarının əməkdaşlarından ibarət nümayəndə heyəti 4-7 noyabr tarixində İstanbul Kitab Sərgisində iştirak etmişdir. Azərbaycanın zəngin mədəniyyətinin, sürətli inkişafının və Qarabağ həqiqətlərinin təbliğ olunması, eyni zamanda nəşriyyat və informasiya sahəsində xarici tərəfdaşlarla əlaqələrin qurulması baxımından sərgi mühüm əhəmiyyət daşıyır. 36 kv.m. sahədə hazırlanmış xüsusi stendlə təmsil olunduğumuz sərgidə dövlətçiliyimizə, tariximizə, mədəniyyətimizə və ölkəmizin turizm potensialına dair nəşrlər ziyarətçilərin diqqətinə təqdim edilmişdir. Noyabrın 4-ü saat 15:00-da milli pavilyonumuzda XVIII əsr Azərbaycan poeziyasının parlaq siması Molla Pənah Vaqifin 300 illik yubileyinə həsr olunan mərasim keçirilmişdir. Mərasimdə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) baş katibi Düsen Kaseinov, Milli Məclisin deputatı Nizami Cəfərov, Azərbaycanın İstanbuldakı Baş konsulu Məsim Hacıyev, Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid, Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov, Azərbaycandan və Türkiyədən olan professorlar Mahirə Quliyeva, Gülşən Seyhan Alışık, Eral Alışık və Vaqif şeirlərinin Ukrayna dilinə tərcüməçisi İvan Pavlin çıxış etmişlər. Mərasim zamanı Mədəniyyət və Turizm Nazirliyi tərəfindən nəşr olunmuş “Molla Pənah Vaqif”, Azərbaycan Milli Kitabxanasının hazırladığı “Molla Pənah Vaqif. Biblioqrafiya” və TÜRKSOY-un 12 dildə çap etdirdiyi “Dünya dillərində Molla Pənah Vaqif şeirləri” kitablarının təqdimatı olmuşdur. Sonda Azərbaycanlı tələbələr Vaqifin bir neçə şeirini səsləndirmişdir. Azərbaycan nümayəndə heyətinin üzvləri 4 noyabr tarixində saat 19:30-da İstanbul Universitetində Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin, İstanbul Fatih Bələdiyyəsinin təşkilatçılığı və Azərbaycanın İstanbuldakı Baş konsulluğunun dəstəyi ilə baş tutan İstanbul Gənc Ədəbiyyatçılar Festivalının bağlanış mərasimində iştirak etmişdir. Dünyanın 20 ölkəsindən gənc yazarların əsərlərindən parçalar dinlənilmişdir. Tədbir çərçivəsində Azərbaycanın Xalq Artisti Alim Qasımov və xanəndə Fərqanə Qasımovanın çıxışları tamaşaçılar tərəfindən coşğuyla qarşılanmışdır. Sərgi çərçivəsində 5 noyabr tarixində saat 14:00-da milli pavilyonda Mədəniyyət və Turizm

Nazirliyinin “Azərbaycan Kitabının Dünyaya Tanıdılması” layihəsi əsasında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin türkcə çap olunmuş 8 kitabının təqdimatı keçirilmişdir. Təqdimatda Azərbaycan nümayəndə heyəti, “Zengin Yayıncılık” nəşriyyatının direktoru Sevinc Fırat, tərcüməçi Yursevən Şən və başqaları çıxış etmişlər. Çıxışlarda qeyd olunmuşdur ki, türk dilində nəşr olunan əsərlər Azərbaycan ədəbiyyatının Türkiyədə tanıdılmasında mühüm əhəmiyyət daşıyır.

Nazirliyin və F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə 6-9 noyabr tarixində Salyan, Neftçala, Biləsuvar və Sabirabad rayonlarında “Uşaq Kitab Karvanı” layihəsi çərçivəsində tədbirlər təşkil edilmişdir. Bölgələrdə yaşayan uşaqların kitaba, mütaliəyə marağının artırılması məqsədilə keçirilən tədbirlər ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır.

Noyabrın 17-də Beynəlxalq Muğam Mərkəzində tanınmış yazıçı və publisist Əli İldırımoğlunun 90 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilmişdir.

Nazirliyin tabeliyində olan kitabxana fondlarını zənginləşdirmək, nəşriyyatların və müəlliflərin fəaliyyətini stimullaşdırmaq məqsədilə “Dünya ədəbiyyatı” dərgisinin “Oman ədəbiyyatı” xüsusi sayının alışı həyata keçirilmişdir.

Respublika Gənclər Kitabxanasının və Respublika Gözdən Əlillər Kitabxanasının əsasnamələri işlənərək hazırlanmış və Nazirliyin 25.04.2017 tarixli, 07 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

KİTAB DÖVRİYYƏSİ

2017-ci ildə kitabxana-informasiya sahəsinin əsas prioritet istiqamətlərindən biri kimi uşaqların mütaliəyə marağının artırılması, uşaq ədəbiyyatının aktuallaşdırılması və kitabxanaların fəaliyyətinin optimallaşdırılması, müasir dövrün tələblərinə uyğun inkişafı, iş mexanizmlərinin məzmunca yeniləşməsi və bu sahədə yeni forma və üsullardan ibarət xidmətlərin təşkilinə dair ardıcıl tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında” Sərəncamına əsasən yeni yaradılmış Regional mədəniyyət və turizm idarələrinin tabeliyinə verilmiş şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin hazırkı struktura uyğun fəaliyyətini və iş prinsiplərini müəyyənləşdirən nümunəvi Əsasnaməsi təsdiq edilmiş və MKS-lərə göndərilmişdir.

Şəhər və rayon mərkəzləşdirilmiş kitabxana sistemlərinin əməkdaşları Florensiyanın “Oblate” kitabxanasının iş təcrübəsindən istifadə edərək müxtəlif istirahət mərkəzlərində, məktəblərdə, uşaq bağçalarında, tibb məntəqələrində, hərbi hissələrdə və digər məkanlarda insanların asudə vaxtlarını səmərəli təşkil etmək məqsədilə mütəmadi olaraq səyyar kitabxana xidməti göstərmişlər.

2017-ci ilin may ayı ərzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş bütün şəhər və rayonlarda IX Kitab bayramı keçirilmişdir. “Kitab bayramı” çərçivəsində mərkəzləşdirilmiş kitabxana sistemlərinin fondlarına yeni daxil olan və ən çox sorğu verilən kitablar müxtəlif başlıqlar altında şəhər və rayonların mərkəzi hissələrində sərgilənmişdir.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı Səfirliyi arasında 23 fevral 2017-ci il tarixdə imzalanmış “Amerika guşələri” proqramı çərçivəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”na əsasən Gəncə şəhəri, Salyan, Xaçmaz və Kürdəmir rayonlarında 2017-2020-ci illər üzrə ictimai informasiya mərkəzləri kimi fəaliyyət göstərəcək “Amerika guşələri”inin fəaliyyəti bərpa edilmişdir.

Memoranduma müvafiq olaraq Səfirlik tərəfindən cari ilin dekabr ayının 5 və 19-da Salyanda, 7 və 20-də Kürdəmirdə, 8-9 və 22-23-də Gəncədə, 13 və 21-də Xaçmazda fəaliyyət göstərən “Amerika guşələri”ndə ABŞ-da texnologiya, innovasiya, təhsil və bayramlar

mövzusunda mədəni və ictimai tədbirlər təşkil olunmuşdur. Bu cür tədbirlərin keçirilməsi oxucular arasında kitabxanaya olan marağı daha da artırmışdır.

Hesabat dövründə şəhər (rayon) MKS-lərinin virtual fəaliyyəti genişləndirilmiş, kitabxanalar tərəfindən sosial şəbəkələrdə mütəmadi olaraq mütaliəyə, həmçinin fondlara daxil olan yeni kitablara aid müxtəlif məlumatlar yerləşdirilmiş və MKS-lər oxucu kateqoriyalarını virtual oxucular hesabına daha da zənginləşdirmişlər.

Uşaqların hərtərəfli inkişaf etməsi, sosial və estetik cəhətdən kamilləşməsi, virtual məkana düzgün adaptasiya olunması, İnternetdən səmərəli şəkildə istifadə edə bilməsi, uşaq ədəbiyyatının təbliği və mütaliəsinin təşviqi məqsədilə Nazirliyin dəstəyi ilə bir sıra şəhər (rayon) MKS-lərinin iştirakı ilə "Facebook"-da "Kitabsevər uşaqlar" adlı xüsusi səhifə yaradılmışdır. Səhifədə müntəzəm olaraq, istifadəçilər üçün Azərbaycan və dünya ədəbiyyatından uşaq nağılları, hekayələri, cizgi filmləri və digər maarifləndirici materiallar paylaşılır. Bütün paylaşımlar səhifənin 8166 nəfər izləyicisi tərəfindən böyük maraq və rəğbətlə qarşılanır. "Kitabsevər uşaqlar" səhifəsi respublika üzrə sosial şəbəkələrdə sırf uşaq ədəbiyyatının təbliği və uşaq mütaliəsinin təşviqi ilə məşğul olan yeganə səhifədir.

Səhifənin bəyənənlərin və izləyicilərinin maraqları nəzərə alınmaqla 5832 paylaşım edilmişdir. "Kitabsevər uşaqlar" Youtube kanalının 2351 abunəçisi var və hazırda yayımlanan videoların 21 514 izləyicisi olmuşdur.

Hesabat ilində Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müxtəlif yaş qrupuna və kateqoriyaya malik oxucuları etibarlı, innovativ və operativ kitabxana-informasiya xidmətləri ilə təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə yaradılmış "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nın bazası əsasında "Mobil Kitabxana" proqramı hazırlanaraq istifadəyə verilmişdir. Proqramın elektron məlumat bankına siyasi, hüquqi, iqtisadi, tarix, bədii, uşaq ədəbiyyatı, biznes, menecment, mədəniyyət, turizm və müasir elm sahələrinə dair beş mindən çox milli və xarici ədəbiyyat daxil edilmişdir.

Proqramda baza üzrə sərlövhə və müəllifə, kitabın mətnində isə sözə görə axtarış aparmaq, eyni zamanda yazılardan istənilən hissənin surətini çıxarmaq və ya digər əlaqə vasitələri ilə seçilmiş hissəni başqa şəxslərə göndərmək mümkündür. Proqram həmçinin, off-line rejimində, cihazın İnternetə çıxışı olmadığı zamanda da işlək vəziyyətdə olur.

Hesabat dövründə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı əsasında yaradılmış "Azərbaycan ədəbiyyatının virtual kitabxanası" yeni elektron kitablarla zənginləşdirilmiş, kitabxananın "Uşaq ədəbiyyatı" bölməsinə nazirlik tərəfindən çap olunan, nəşr məhsullarının satınalınması müsabiqəsi çərçivəsində alınan və uşaqlar üçün xüsusi maraq kəsb edən kitablar əlavə edilmişdir. Oxucuların tələbatı nəzərə alınaraq Virtual kitabxanada yeni kateqoriya "Müxtəlif kateqoriyalı kitablar" bölməsi yaradılmışdır.

Mərkəzləşdirilmiş kitabxana sistemlərində ALİSA (Automated Library İnformation System of Azerbaijan) sisteminin tətbiqi əsasında kitabxana əməkdaşları tərəfindən bu proqram vasitəsi ilə göstərilən fəaliyyətin monitorinqi aparılmış, aşkar edilmiş nöqsan və çatışmazlıqlar müəyyən edilərək kitabxana rəhbərlərinin diqqətinə çatdırılmışdır.

Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə respublikanın 15 şəhər və rayon mərkəzi kitabxanasına uşaq yazarları - Gülzar İbrahimova, Solmaz Amanova və Sevinc Nuruqızının turneləri təşkil edilmişdir. Turnelər Xaçmaz, İsmayıllı, Biləsuvar, Neftçala, Ağdaş, Şəmkir, Salyan, Bərdə, Tərtər, Şirvan, Füzuli, Lənkəran, Quba və Bakı şəhərinin Xəzər və Sabunçu rayonlarında keçirilmişdir.

Pilot layihə kimi həyata keçirilən "Uşaq yazarlarının kitabxanalara turneləri" layihəsinin təşkilində əsas məqsəd uşaq ədəbiyyatının və mütaliənin əhəmiyyətini aktuallaşdırmaq, valideynləri bu istiqamətdə maarifləndirmək, uşaqlara özünəinam hissini aşılamaq və onları mədəni həyatda aktivliyə təşviq etməkdir.

Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi tərəfindən "Gəncə Müstəqil Dövlətlər Birliyinin Mədəniyyət Paytaxtı 2017" elan edilməsi ilə əlaqədar 16 noyabr 2017-ci il tarixdə MDB-nin iştirakçı dövlətlərinin nüfuzlu kitabxanalarının nümayəndə heyətinin iştirakı ilə Gəncə şəhərində "Xalqların qədim irsinin qorunması və təbliğində kitabların rolu" mövzusunda Gəncə

Şəhər İcra Hakimiyyəti tərəfindən Beynəlxalq elmi-praktik konfrans təşkil olunmuşdur. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi sözügedən konfransa təşkilati dəstək göstərmişdir.

2017-ci ilin 5-6 iyun tarixində Rusiya Federasiyasının Moskva şəhərində keçirilən MDB-yə üzv dövlətlərin XIV Beynəlxalq "Kitab sənəti" müsabiqəsinə Mədəniyyət və Turizm Nazirliyi dəstəyi ilə Azərbaycan Respublikası adından təqdim olunmuş 14 adda kitabdan 11-i müsabiqənin əsas nominasiyalar üzrə qalib gəlmiş və müxtəlif dərəcəli diplomlarla təltif olunmuşdur. Azərbaycan Respublikası Beynəlxalq müsabiqə iştirakçıları arasında on bir nominasiya üzrə qalib gələn yeganə ölkə olmuşdur.

2017-ci ilin son rübündə şəhər (rayon) MKS-lərinin mütəxəssislərinin informasiya texnologiyaları üzrə biliklərini təkmilləşdirmək, onlarda virtual mühitdə işləmə və müasir proqramlardan istifadə bacarığı formalaşdırmaq məqsədilə Azərbaycan Milli Kitabxanasında "Kitabxanalarda informasiya texnologiyaları vasitəsi ilə gənc oxucu kontingentinə yönəlik mütaliə motivasiyasını yüksəltmək məqsədilə kreativ layihələrin hazırlanması", C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında "İnformasiya cəmiyyətində kitabxanaların qarşısında duran yeni vəzifələr: informasiya texnologiyalarından istifadənin genişləndirilməsi" və "Azərbaycan ədəbiyyatının virtual kitabxanasının oxucular arasında təbliği" və F.Köçərli adına Respublika Uşaq Kitabxanasında "Uşaq şöbələrində informasiya resurslarının yaradılması, təkmilləşdirilməsi və onların azyaşlı oxuculara təqdim edilməsi" mövzularında treninqlər keçirilmişdir.

Mərkəzləşdirilmiş kitabxana sistemlərinin əksəriyyətində "Mütaliə ayları", "Mütaliə həftələri", "İmza günləri", intellektual oyunlar, müxtəlif formatda viktorinalar keçirilmiş, oxuculara yeni maraqlı kitabların sərgiləri təqdim edilmiş və müəlliflərlə "dəyirmi masa"lar təşkil edilmişdir. Eyni zamanda kitabxanalarda mütaliəyə marağın artırılması məqsədilə buktreylerlər hazırlanaraq oxuculara təqdim edilmişdir. Buktreylerin əsas məqsədi kitabın məzmununu vizuallaşdırmaqla oxucular arasında təbliğatını aparmaq və əsərin ən əsas özətini maraqlı formada nümayiş etdirməkdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarının icrasını təmin etmək məqsədilə kitabxanalarda Azərbaycanın böyük şairi Molla Pənah Vaqifin 300 illik, Türk dünyasının görkəmli şairi və dramaturqu Hüseyn Cavidin 135 illik yubileyinə və 20 yanvar, Xocalı faciəsinə, 31 mart soyqırım gününə, Novruz bayramına və digər tarixi və əlamətdar günlərə həsr olunmuş tədbirlər təşkil edilmişdir. Bu tədbirlərdə geniş oxucu kütləsi iştirak etmişdir.

Hesabat dövründə nazirliyin kitabxana-informasiya şəbəkəsinə daxil olan kitabxanaların müəyyənləşdirilmiş meyarlar üzrə statistikasını aparmaq üçün kitabxana-informasiya sahəsinə dair mövcud məlumat bankının əsaslı şəkildə yenilənməsi həyata keçirilmişdir. Nazirlik tərəfindən şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərində çalışan mütəxəssislər haqqında 20 parametr üzrə və şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin mərkəzi Kitabxanaları və kitabxana filialları haqqında 65 göstərici üzrə məlumatlar toplanmış və sistemləşdirilmişdir. Bu materiallar əsasında 2018-ci ildə kitabxana-informasiya sahəsinin təkmilləşdirilməsi, yeni iş üsullarının tətbiq edilməsi barədə tədbirlər planın hazırlanması planlaşdırılır.

Hesabat dövründə Mədəniyyət və Turizm Nazirliyinin kitabxana-informasiya şəbəkəsinə daxil olan kitabxanalar haqqında statistik məlumatları hazırlamaq məqsədilə bütün şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin 2016-cı il üçün hesabatları toplanmış və təhlil edilmişdir. Təhlil zamanı bir sıra kitabxana problemləri aşkarlanmış və 2017-ci ilin prioritet istiqamətləri müəyyən olunmuşdur.

Kitabxanalarda yeni iş üsullarının və innovativ layihələrin reallaşdırılması və kitabxanaçıların yaradıcı potensialının inkişaf etdirilməsi məqsədilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tabeliyində fəaliyyət göstərən şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemləri arasında "İlin ən yaxşı Mərkəzi Kitabxanası", "İlin ən yaxşı Uşaq şöbəsi" və "İlin ən yaxşı kitabxana filialı" nominasiyaları üzrə "İlin ən yaxşı kitabxanası" müsabiqəsielan edilmişdir.

“İlin ən yaxşı kitabxanası” müsabiqəsinin “İlin ən yaxşı Mərkəzi Kitabxanası” nominasiyası üzrə Astara rayon Mərkəzi Kitabxanası, “İlin ən yaxşı Uşaq şöbəsi” nominasiyası üzrə Füzuli rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsi və “İlin ən yaxşı kitabxana filialı” nominasiyası üzrə Quba rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Amsar kənd kitabxana filialı qalib gəlmişlər.

Azyaşlı oxucular arasında kitab və kitabxanaya marağın artırılması, mütaliə vərdişinin formalaşdırılması məqsədilə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə “Vışka” qəzetində “Nağıllara səyahət” müsabiqəsi elan olunmuşdur. Müsabiqədə qalib gələn ilk üç iştirakçıya “Azərbaycan ədəbiyyatının virtual kitabxanası”na daxil edilməsi üçün say baxımından məhdudiyyət olmadan sifariş etmək imkanı və “Vışka” qəzetinin 80 illik yubileyi ilində qəzetə 2018-ci il üçün ödənişsiz abunə yazılışı təmin edilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə fevral ayında Azərbaycan Milli Kitabxanasında Şuşa Şəhər Kitabxanasının 120 illik yubiley qeyd edilmişdir. Bununla əlaqədar Şuşa rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin bir sıra əməkdaşları nazirliyin “Fəxri mədəniyyət işçisi” döş nişanı, fəxri fərmanı və pul mükafatı ilə təltif olunmuşlar. Şuşa rayon MKS-inin direktoru Gülsarə Abbasova isə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Əməkdar mədəniyyət işçisi” adına layiq görülmüşdür

Hesabat dövründə bir sıra rayon mərkəzi kitabxanalarında əsaslı təmir işləri aparılmış və Sabunçu rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 1 №-li filialı (M.Şəhriyar adına Uşaq Kitabxanası) isə müasir üslub və tərtibatda, “Kitab evi” kimi qabaqcıl xidmət növləri ilə birlikdə yenidən qurularaq oxucuların istifadəsinə verilmişdir.

ELM, TƏHSİL VƏ GƏNCLƏRLƏ İŞ

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sistemində 216 təhsil müəssisəsi - Azərbaycan Turizm və Menecment Universiteti, Bakı Xoreoqrafiya Akademiyası, Mingəçevir Turizm Kolleci, Bakı Turizm Peşə Məktəbi, Ağcabədi şəhər Ü.Hacıbəyli adına Qarabağ Muğam Mərkəzi, Şamaxı şəhər İncəsənət Təhsili Mərkəzi, Gədəbəy Aşıq Məktəbi, Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi, 159 uşaq musiqi, 47 uşaq incəsənət və 2 uşaq rəssamlıq məktəbi, habelə Respublika Mədəniyyət Müəssisələri İşçilərinin İxtisasartırma və Hazırlıq Mərkəzi, Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzi fəaliyyət göstərir.

“Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 yanvar tarixli, 2598 nömrəli və 2017-ci il 21 iyun tarixli, 3010 nömrəli sərəncamları ilə Q.Qarayev adına Mərkəzi İncəsənət, Bakı şəhər R.Behbudov adına 2, T.Quliyev adına 12, R.Hacıyev adına 15, Ş.Ələkbərova adına 20, L. və M. Rostropoviçlər adına 21 nömrəli onbirillik musiqi məktəblərində təhsil alan 12 şagirdin adı Azərbaycanın gənc istedadlarının “Qızıl kitabı”na yazılmış və onlar Azərbaycan Respublikası Prezidentinin xüsusi aylıq təqaüdünə layiq görülmüşlər.

Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2017-ci il tarixli sərəncamı ilə Bakı şəhər Gözdən əlil uşaqlar üçün 38 nömrəli Onbirillik Musiqi Məktəbinin müəllimi Aliyə Zamanova “Azərbaycan Respublikasının əməkdar müəllimi” fəxri adına layiq görülmüşdür.

Bundan əlavə Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzinin 5 nəfər əməkdaşı Azərbaycan Respublikası Prezidentinin 30 noyabr 2017-ci il tarixli, 3429 nömrəli Sərəncamı ilə “Əməkdar mədəniyyət işçisi” fəxri adı ilə təltif olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin “2 fevral - Gənclər günü kimi qeyd olunması haqqında” Sərəncamına əsasən Mədəniyyət və Turizm Nazirliyi tərəfindən ənənəvi olaraq “Gəncliyin səsi” adlı festival keçirilir. Festival gənc istedadların üzə çıxarılması, onların yaradıcılıq axtarışlarının, bilik və bacarıqlarının, yaradıcılıq nailiyyətlərinin dəstəklənməsi, yeni simaların aşkar olunması məqsədi daşıyır. 2017-ci ilin 2-6 fevral tarixində Nazirliyin və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə Bakı, Sumqayıt şəhərlərində, Masallı və

Sabirabad rayonlarında “Gəncliyin səsi” festivalı keçirilmişdir. Festival çərçivəsində Beynəlxalq Muğam Mərkəzində Prezident təqaüdçüsü olan gənc musiqiçilərin konserti və gənc rəssamların sərgisi, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında gənc yazarlarla görüş keçirilmiş, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Bakı “ASAN Xidmət” mərkəzi könüllülərinin təqdimatında Ə.Əmirlinin “7 məhbusə” tamaşası nümayiş etdirilmiş və Bakı Xoreoqrafiya Akademiyası tələbələrinin konserti təşkil edilmişdir. Sumqayıt Dövlət Musiqili Dram Teatrında Sumqayıt “ASAN Xidmət” mərkəzi könüllülərinin musiqili kompozisiyası təqdim edilmiş, Sabirabad rayon Mədəniyyət Mərkəzində Sabirabad və ətraf rayonların gənclərinin və “ASAN könüllüləri”nin iştirakı ilə konsert və sərgi keçirilmişdir. Masallı rayon “ASAN həyat” kompleksində Cəlilabad, Masallı və Yardımlı rayonlarının gənc rəssamlarının sərgisi təşkil edilmiş, gənc rejissorlar Ayşad Səfərəliyev və Amil Məmiyevin Qarabağ mövzusunda lentə aldıqları “İnikas” və “Qara bağ” qısametrajlı filmləri nümayiş etdirilmiş, filmlərin nümayişindən sonra gənc rejissorlar tamaşaçıların suallarını cavablandırmışlar.

28 sentyabr tarixində Rusiya Federasiyasının Stavropol şəhərində keçirilən VIII Rusiya-Azərbaycan Regionlararası Forumda nazirlik təmsil olunmuşdur. Hər iki ölkənin turizm potensialının təqdimatı; turist axınının qarşılıqlı surətdə tənzimlənməsi; gənclər arasında əməkdaşlığın aktivləşdirilməsi; təhsil, elm, mədəniyyət və idman sahəsində layihələrin reallaşdırılması kimi məsələlərin müzakirə olunduğu Forumda nazirliyin əməkdaşı “Humanitar sahədə ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsi” adlı dəyirmi masada məruzə ilə çıxış etmişdir.

16-18 noyabr tarixində Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilmiş VI Beynəlxalq Mədəniyyət Forumunda nazirliyin nümayəndə heyəti iştirak etmişdir. 2012-ci ildən keçirilən forum mədəniyyət sahəsində mütəxəssislərin, dövlət orqanları və biznes ictimaiyyəti nümayəndələrinin görüşlərinin və açıq dialoqların, təcrübə mübadiləsinin aparılmasına, incəsənətin müxtəlif sahələrində əməkdaşlığın inkişaf etdirilməsi və genişləndirilməsinə xidmət edən beynəlxalq məkan kimi çıxış edir. Bu il təxminən 35 min, o cümlədən min nəfər əcnəbi iştirakçı forumun mədəniyyət və incəsənətin müxtəlif sahələri üzrə 14 seksiyasında iştirak etmişdir.

Bakı Xoreoqrafiya Akademiyasında tədrisin inkişaf etdirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi, xoreoqrafiya sənəti sahəsində yaradıcılıq səviyyəsinin dünya standartlarına uyğunlaşdırılması, beynəlxalq əlaqələrinin genişləndirilməsi məqsədilə tanınmış mütəxəssislərin ustad dərsləri təşkil edilir. 14 yanvar tarixində Bakı Xoreoqrafiya Akademiyasında (BXA) Sankt-Peterburq Opera və Balet Teatrının xoreoqrafı, Rusiya Federasiyasının əməkdar artisti Sergey Moxnaçov akademiyanın şagird və tələbələri üçün ustad dərsləri keçmişdir. Ustad dərsində iştirak edən müəllim-tələbə heyəti klassik rəqsdə müasir meyllər və yeni üslublar, habelə bəzi rəqs elementləri barədə məlumatlandırılmışdır. 17 yanvar və 17 mart tarixlərində akademiyanın şagird və tələbələrinin iştirakı ilə P.İ.Çaykovskinin “Şelkunçik” baleti Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuşdur. Bundan əlavə sözügedən əsər 9 mart tarixində kimsəsiz və valideyn himayəsindən məhrum olmuş uşaq və yeniyetmələr, o cümlədən daun sindromlu və eşitmə qüsurlu uşaqlar üçün xeyriyyə tamaşası olaraq səhnələşdirilmişdir. Tədris tamaşasının məqsədi Azərbaycanda klassik rəqs və balet irsinə marağın artırılması, balet sənətinin təbliği və bütövlükdə xoreoqrafiya sənətinin inkişafına töhfə verməkdir.

Fevral ayının 17-də Bakı Xoreoqrafiya Akademiyasında Məhəmmədhüseyn Şəhriyarın 110 illik yubileyinə həsr olunmuş ədəbi-bədii gecə keçirilmişdir. Tədbirdə ədibin həyat və yaradıcılığına həsr olunmuş məruzələr dinlənilmiş, akademiyanın tələbələri tərəfindən M.Şəhriyarın poeziyasından seçmələr və onun sözlərinə yazılmış mahnılar səsləndirilmişdir.

20 fevral tarixində BXA-da görkəmli rəqqas, Azərbaycan Respublikasının xalq artisti, Əməkdar müəllim, Prezident təqaüdçüsü, xoreoqraf Böyükağa Məmmədovun 90 illik yubiley tədbiri təşkil olunmuşdur. Tədbirdə ustad sənətkar xoreoqrafiya sənətinin inkişafında göstərdiyi xidmətlərə görə Bakı Xoreoqrafiya Akademiyasının Fəxri Diplomu ilə təltif edilmişdir. 20-25 fevral tarixində akademiyanın dəvəti ilə BXA-nın şagird və tələbələrinin klassik və müasir rəqs

sahəsində bilik və bacarıqlarının artırılması və təkmilləşdirilməsi məqsədilə İngiltərədən olan rəqs ustası, Yeni Zelandiya Kral Baleti Təşkilatı və Gürcüstanın Z.Paliaşvili adına Dövlət Opera və Balet Teatrının Dövlət Balet Təşkilatında peşə fəaliyyəti göstərən Vilyam Pratt tərəfindən ustad dərsləri keçirilmişdir.

Bakı Xoreoqrafiya Akademiyasının kollektivi tərəfindən 24 may tarixində "Azərbaycan Respublikasında İslam həmrəyliyi ili"nə həsr olunmuş layihələr çərçivəsində Azərbaycan Dövlət Musiqili Teatrın səhnəsində "Səmayi-Şəms" rəqs-tamaşası təqdim edilmişdir. Səhnədə Azərbaycan, Türkiyə, İran, Albaniya, Misir, Qazaxıstan, Özbəkistan, Tacikistan və digər müsəlman ölkələrinə məxsus milli rəqslərdən ibarət vahid ssenari üzrə rəqs-tamaşa nümayiş olunmuşdur. Rəqs tamaşada akademiyanın orta ixtisas pilləsinin Xalq bölməsinin 2016/2017-ci tədris ilinin məzunları, habelə bakalavr və magistratura səviyyəsinin tələbələri iştirak etmişlər.

2-5 iyun tarixində akademiyanın baş müəllimi, Xalq Artisti Yusif Qasımov və akademiyanın tələbələri Avstriyanın Karintiya Federal vilayətində "Kartner Alpen-Adria Hafenfest" festivalında iştirak etmişlər.

Akademiyanın Klassik rəqs kafedrasının baş müəllimi, əməkdar mədəniyyət işçisi Lyudmila Qutlyanskaya və 2 nəfər şagird 7-12 iyun 2017-ci il tarixində Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilən "Çiçəklərin valsı" adlı klassik rəqs üzrə beynəlxalq müsabiqədə iştirak etmişlər.

Xoreoqrafiya sənətinin inkişaf etdirilməsi, qabaqcıl təcrübənin öyrənilməsi, xoreoqrafiya sənəti sahəsində yaradıcılıq səviyyəsinin dünya standartlarına uyğunlaşdırılması, habelə Bakı Xoreoqrafiya Akademiyasının beynəlxalq əlaqələrinin genişləndirilməsi üçün Azərbaycan Respublikasının Əməkdar Artisti, Moskva Dövlət Xoreoqrafiya Akdemiyasının Xoreoqrafiya kafedrasının professoru, pedaqogika elmləri doktoru Vitaliy Axundov 3-10 dekabr tarixində BXA-da ustad dərsləri keçmişdir.

28 dekabr tarixində Bakı Xoreoqrafiya Akademiyası tərəfindən Azərbaycan Milli Konservatoriyasının Opera studiyasının səhnəsində "Şərq-Qərb" adlı konsert proqramında Marius Petipa, Aleksandr Qorski, Vasiliy Vaynonen kimi dünya xoreoqraflarının, habelə xalq artistləri Qəmər Almaszadə, Əlibaba Abdullayev, Əminə Dilbazi, Roza Cəlilova, Afaq Məlikova, Yusif Qasımov, Kamilla Hüseynova, Tamilla Məmmədova kimi xoreoqrafiya sənətinin tanınmış nümayəndələrinin quruluşlarından nümunələr təqdim olunmuşdur.

"Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli Sərəncamının 3.6-cı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 9 sentyabr tarixli 504s nömrəli sərəncamının 2-ci, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 2017-ci il 23 yanvar tarixli 9 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin Tədbirlər Planının 4.1.3-cü bəndlərinin icrası ilə əlaqədar Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Şahdağ Regional Turizm Peşə Məktəbinin yaradılması ilə əlaqədar aidiyyəti normativ hüquqi sənədlər hazırlanmışdır.

16-17 fevral tarixlərində Azərbaycan Turizm və Menecment Universitetinin Avropa İttifaqı ilə əməkdaşlığı çərçivəsində universitetdə "Ali təhsil müəssisələrində keyfiyyətin təminatının yüksəldilməsi" mövzusunda seminar keçirilmişdir. Bundan əlavə Nazirlik və Azərbaycan Turizm və Menecment Universiteti tərəfindən "Azərbaycanda davamlı turizm məhsulları" mövzusunda respublika məqalə müsabiqəsi təşkil edilmişdir. 8 fevral 2017-ci il tarixində 2 saylı "ASAN Xidmət" mərkəzində "ASAN Könüllüləri" Təşkilatı, Azərbaycan Fotoqraflar Birliyinin və AZƏRTAC-ın dəstəyi ilə "Könüllülər hərəkatı fotoqrafların gözü ilə" I Ümumrespublika açıq foto sərgisində ATMU-nun Elmi Şurasının müvafiq qərarı ilə könüllülük fəaliyyəti barədə şəxsi inkişafa dəstək məqsədi ilə nəşr olunan "Könüllülük: Uğurun formulu" kitabının təqdimatı olmuşdur. 15 fevral tarixində ATMU ilə Bosfor oteli arasında istehsalat təcrübəsinin təşkil edilməsi sahəsində müqavilə imzalanmışdır. 1-2 mart tarixində Şimali Kiprdə TC "Turizm və otelçilik" (TO) ixtisasının tələbələrinin aprel ayından etibarən 22 həftəlik istehsalat təcrübəsi

keçməsi ATMU tərəfindən müsahibə və İsrailin Eilat şəhərində "İsrotel" otellər şəbəkəsində təcrübə keçmək üçün 15-16 mart tarixində TO ixtisasının tələbələri ilə müsahibə təşkil edilmişdir. Universitetdə "Gənc Turizm Bələdçisi" təlimi çərçivəsində hazırda müxtəlif qruplar və səviyyələr üzrə 107 nəfər ərəb, ingilis, polyak, yapon, rus, fars və s. dillərdə bələdçi kurslarında iştirak etmişlər.

Mədəniyyət və Turizm Nazirliyinin 24 aprel 2017-ci il tarixli, 103 nömrəli əmri ilə "Turizm sahəsində peşə təhsili və təlimi proqramlarının əlaqələndirilməsi üzrə İşçi Qrupu" yaradılmışdır.

7 aprel tarixində "JW Marriot Absheron" otelində "Azərbaycan-Avstriya Turizm Proqramı: Azərbaycanda ilk ikili diplom proqramı təcrübəsi: nailiyyətlər və perspektivlər" mövzusunda Beynəlxalq Konfrans təşkil edilmişdir.

Aprelin 8-də Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə ATMU-nun nəzdindəki Bakı Turizm Peşə Məktəbində "Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər" mövzusunda III Beynəlxalq Konfrans keçirilmişdir. Konfransda Azərbaycan, Türkiyə, Rusiya, Bolqarıstan və Gürcüstandan olan tədqiqatçıların turizmin müxtəlif sahələrinə dair 33 məruzəsi dinlənilmiş və konfrans materialları çap olunmuşdur.

15 aprel tarixindən etibarən ATMU-da "Turizm və otelçilik" ixtisası üzrə təhsil alan 117 tələbə təcrübəyə göndərilmişdir. Onlardan 50 nəfəri ölkə xaricində (Türkiyədə -2 nəfər, Şimali Kipr Türk Cümhuriyyətində - 9 nəfər, İsraildə - 38 nəfər, Rusiyada -1 nəfər) və 76 tələbə ölkənin müxtəlif müəssisə və təşkilatlarında istehsalat təcrübəsi keçmişlər.

20-25 aprel tarixində Heydər Əliyev Fondunun və Regional İnkişaf İctimai Birliyinin dəstəyi ilə Qax rayonunda "Şəki-Zaqatala regionunda tematik turların işlənməsi texnikası" mövzusunda təlim təşkil olunmuşdur. Təlimdə iştirak edən 18 nəfərdən 9-u imtahandan müvəffəqiyyətlə keçərək müvafiq regionda turizm bələdçisi kimi fəaliyyət göstərmək üçün şəhadətnamə əldə etmişdir.

ATMU-in 2017/2018-ci tədris ili üzrə bakalavr səviyyəsinə qəbul üçün 470 yer ayrılmışdır. Müvafiq yerlərə 201 nəfər dövlət sifarişli, 257 nəfər ödənişli olmaqla cəmi 458 tələbə qəbul olmuşdur. Qəbul olunan tələbələrdən 369-u Azərbaycan, 34-ü rus, 55-i isə ingilis bölməsində təhsil alır. 2017-ci tədris ili üzrə ATMU-nun bakalavr səviyyəsinə tələbə qəbulu 97.4%, magistratura səviyyəsinə isə qəbul 97.9% təşkil etmişdir.

29 sentyabr tarixində Birləşmiş Krallıqda fəaliyyət göstərən Koventri Universitetinin professoru Mayk Hardiyə Azərbaycan Turizm və Menecment Universitetinin "Fəxri doktor"u adı verilmişdir. ATMU-nun bir sıra əməkdaşları 16-20 oktyabr 2017–ci il tarixində Rusiya Federasiyasının Moskva şəhərində keçirilmiş "Böyük İpək Yolu" konfransında iştirak etmişlər. 16 oktyabr-10 noyabr tarixində Marketinq kafedrasının müəllimi Uğur Babayev Almaniyanın İqtisadi Əlaqələr üzrə Federal Nazirliyinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) dəstəyi ilə Almaniyada həyata keçirilən Menecer Təlim Proqramı çərçivəsində təşkil edilmiş görüşlərdə iştirak etmişdir.

Azərbaycan Turizm və Menecment Universiteti 13 oktyabr – 6 noyabr tarixində Turizm Bələdçiləri Assosiasiyalarının Ümumdünya Federasiyasının Qırğızıstanın Bişkek şəhərində təşkil olunmuş HOT və TOT təlimlərində iştirak etmiş, habelə Özbəkistanın Daşkənd şəhərində YUNESKO-nun "Böyük İpək Yolu" layihəsi çərçivəsində Özbəkistanın YUNESKO ofisi ilə görüş keçirilmiş və Azərbaycanın "İpək Yolu" dəhlizinə qoşulması üçün danışıqlar aparılmışdır.

7 dekabr tarixində Azərbaycan Turizm və Menecment Universitetində "İsrotel" mehmanxanalar şəbəkəsi ilə təcrübə mübadiləsi sahəsində əldə edilmiş nailiyyətlərlə əlaqədar məzun gecəsi keçirilmişdir. 8 dekabr tarixində Avstriya Səfirliyinin iqamətgahında "Azərbaycan-Avstriya Turizm Proqramı" ilə bağlı ənənəvi məzun görüşü keçirilmişdir. Tədbirdə İMC Krems Tətbiqi Elmlər Universitetinin prezidenti Heinz Boyer və rektor Eva Werner iştirak etmişlər. Məzun görüşündə AATP proqramında 5 ildən çox pedaqoji fəaliyyəti olan 9 müəllimə sertifikatlar təqdim olunmuşdur.

Mingəçevir Turizm Kolleci (MTK) 2017-ci ilin 3 fevral tarixində Belarus Respublikasının Polotsk Dövlət Universiteti ilə "Kollec - Ali məktəb" fasiləsiz təhsil proqramı çərçivəsində

yüksəkixtisaslı kadrların hazırlığına dair və 26 aprel tarixində Moldovanın “Perspectiva-int” Universiteti arasında uzunmüddətli əməkdaşlıq müqavilələri imzalanmışdır.

21 aprel tarixində Mingəçevir Turizm Kollecinin Heydər Əliyev adına İdeoloji Mərkəzində “Turizm təhsilində işəgötürənlərlə əməkdaşlığın rolu” mövzusunda elmi-nəzəri konfrans təşkil edilmişdir. Bundan əlavə kollecdə 9 iyun 2017-ci il tarixində “Regional Turizm: mövcud vəziyyət və inkişaf tendensiyaları” mövzusunda konfrans keçirilmişdir.

Mingəçevir Turizm Kollecinə 2017/2018-ci tədris ili üzrə ümumi orta təhsil bazasından qəbul üçün 365 yer ayrılmışdır. Müvafiq yerlərə 109-u dövlət sifarişli, 148-i ödənişli olmaqla cəmi 257 nəfər qəbul olmuşdur. Ümumi orta təhsil bazasından kollecə tələbə qəbul 70.4%, tam orta təhsil bazasından kollecə qəbul 86.2% təşkil etmişdir.

9-11 oktyabr və 11-18 noyabr tarixlərində Rusiya Federasiyası Sankt-Peterburq Turizm və Mehmanxana Servisi Kolleci ilə Mingəçevir Turizm Kolleci arasında əməkdaşlıq müqaviləsinin imzalanması və təcrübə mübadiləsinin həyata keçirilməsi məqsədilə qarşılıqlı səfərlər təşkil olunmuşdur. 26 oktyabr tarixində MTK-da “Azərbaycanda sağlamlıq-rekreasiya turizminin inkişaf istiqamətləri və mövcud vəziyyət” mövzusunda elmi-nəzəri konfrans keçirilmişdir.

2017/2018-ci tədris ili üzrə Bakı Turizm Peşə Məktəbinə 520 yer ayrılmışdır. 133-ü dövlət sifarişli, 356-ı isə ödənişli olmaqla peşə məktəbinə cəmi 489 şagird 10 ixtisas üzrə müvafiq yerlərə qəbul olmuşdur. Qəbul olunan şagirdlərdən 308 nəfəri oğlan, 181 nəfəri qızdır. Bakı Turizm Peşə Məktəbinin qəbul planının 94%-i yerinə yetirilmişdir.

8-12 noyabr tarixində Polşanın Varşava şəhərində keçirilmiş XII “FilmArt” Beynəlxalq Kino Festivalının münsiflər heyətində və Turizm Filmləri Akademiyasının konfransında Bakı Turizm Peşə Məktəbinin direktoru Neylüfər Kərimova iştirak etmiş və Beynəlxalq Turizm Filmləri Akademiyasının prezidenti Aleksandr Kammel tərəfindən “Davamlı Turizm ili çərçivəsində beynəlxalq əməkdaş kimi münsiflər heyətinin işində yüksək iştirakına görə” diplomu ilə mükafatlandırılmışdır. 16 noyabr tarixində Nizami Kino Mərkəzində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə IV Bakı Beynəlxalq Turizm Kino Festivalı çərçivəsində Bakı Turizm Peşə Məktəbi tərəfindən “Çay bayramı” keçirilmişdir.

Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzinin Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq edilmiş Kontingent planına uyğun olaraq dövr ərzində regional mədəniyyət və turizm idarələrinin baş mühasibləri, Bakı şəhər uşaq musiqi məktəblərinin fortepiano müəllimləri, Bakı şəhər mədəniyyət evlərinin metodistləri, tarix-diyarşünaslıq muzeylərinin bərpaçı rəssamları, elmi işçiləri, klub statuslu filialların direktorları, mədəniyyət evi statuslu filialların direktorları, bədii rəhbərləri, şəhər (rayon) MKS-nin direktor müavinləri, filial müdirləri, biblioqrafları, kitabişləmə və komplektləşdirmə şöbələrinin müdirləri, metodiki şöbələrinin metodistləri, filial kitabxanaçıları, şəhər (rayon) Heydər Əliyev Mərkəzlərinin bələdçiləri üçün ixtisasartırma kursları təşkil edilmişdir. Dövr ərzində ümumilikdə 23 kateqoriya üzrə, 33 qrupda 578 nəfər mədəniyyət müəssisələri işçiləri hazırlıq və ixtisasartırma kurslarından keçmişdir.

Mərkəzin müvafiq şöbə və bölmələrində kadr vəziyyətinin təhlili üzrə araşdırmalar aparılmış, aktual mövzular üzrə on dörd elmi-metodiki vəsait hazırlanmışdır.

Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzi tərəfindən regionlarda səyyar seminar-treninqlər keçirilmişdir. 2017-ci il ərzində İsmayıllı və Masallı rayonlarında abidə mühafizəçiləri üçün “Tarixi abidələr bu gün və sabah: mühafizə problemləri”, Ağdaş rayonunda mərkəzi kitabxana sisteminin və filiallarının işçiləri üçün “Kitabxana işinin təşkilində innovasiyaların tətbiqi”, Şəki rayonunda muzey işçiləri üçün “Muzeylər canlı tarix, turizmə dəstəkdir” mövzusunda seminar-treninqlər təşkil olunmuşdur.

23 fevral – 15 mart tarixində Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzi ilə Respublika Mədəniyyət Müəssisələrinin İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzi birlikdə muzey bərpaçı-rəssamları üçün təlim kursları təşkil etmişdir.

Bərpa Mərkəzi tərəfindən 10-14 aprel tarixində Xaçmaz rayonunda (Şabran, Quba, Qusar rayonlarının nümayəndələrinin iştirakı ilə) “Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa

Mərkəzi 60 - Mədəni irsi qorumaq naminə", 11-13 may tarixində Sabirabad rayonunda (Şirvan və Hacıqabul rayonlarının nümayəndələrinin iştirakı ilə) "Nəsillər üçün qoruyaq", 12-14 iyun tarixində isə Masallı rayonunda (Cəlillabad və Yardımlı rayonlarının nümayəndələrinin iştirakı ilə) "Mədəniyyət abidələri bərpaçıların gözü ilə" adlı regional təlim-sərgilər keçirilmişdir.

Bərpa Mərkəzi Kiyev – Peçorsk Milli Tarixi Mədəni Qoruğu ilə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmışdır. Belə ki, mərkəzin əməkdaşları 5-9 iyun tarixində adıçəkilən qoruq tərəfindən keçirilən Ukrayna Bərpaçılığı Forumunda, "Muzey və bərpa işi mədəni irsin mühafizəsi kontekstində müasirliyin aktual çağırışları" adlı Beynəlxalq Konfransda iştirak etmişlər. Bundan əlavə 12-16 iyun tarixində Milli İncəsənət Muzeyində İtaliyalı bərpaçı-rəssam Andrea Carininin iştirakı ilə təşkil olunan "Muzey kolleksiyalarının mühafizəsi: Pinakoteka Di Brera Qalereyasında dəzgah rəssamlığı əsərlərinin konservasiyası" adlı seminarda mərkəzin əməkdaşları iştirak etmişlər.

16-18 oktyabr tarixində Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzi tərəfindən Ağstafa rayonunda muzey əşyalarının saxlanılması və onların dağılmasının qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsinə həsr olunmuş "Mədəniyyət abidələri bərpaçıların gözü ilə" adlı regional sərgi-seminar təşkil edilmişdir. Tədbirdə Ağstafa, Qazax, Tovuz rayonlarında fəaliyyət göstərən muzey əməkdaşlarına muzey əşyalarının bərpa və konservasiyasına dair təlim keçirilmişdir.

Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzinin yaradılmasının 60 illik yubileyi ilə əlaqədar 11 dekabr tarixində Azərbaycan Milli İncəsənət Muzeyində təntənəli tədbir təşkil olunmuşdur. Yubileylə tədbirində Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüş Mərkəzin 5 nəfər əməkdaşına, habelə Mədəniyyət və Turizm Nazirliyinin "Fəxri mədəniyyət işçisi" döş nişanı və Fəxri Fərmanı ilə təltif olunmuş 18 nəfər əməkdaşına mükafatlar təqdim edilmişdir.

Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzi tərəfindən 2017–ci il ərzində muzeylərdən bərpaya ehtiyacı olan 1032 ədəd əşya siyahıya alınmış, bərpa və konservasiya məqsədi ilə müvəqqəti olaraq 25 qəbuletmə aktı ilə 606 ədəd əşya bərpa üçün qəbul edilmiş, əşyaların müvəqqəti daxilolma kitabında müvafiq əşyalar qeyd olunmuş və pasport açılmışdır. Dövr ərzində 640 ədəd əşyanın bərpadan əvvəl (müxtəlif rakurslardan), bərpa zamanı və bərpadan sonrakı 2560 ədəd fotoşəkili qeydiyyat kitabına əlavə edilmişdir.

Nazirliyin tabeliyində olan uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin strukturunun və idarə olunmasının, habelə normativ-hüquqi bazasının təkmilləşdirilməsi, onların maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, məktəblər üzrə yeni dövlət standartlarının hazırlanması və bu standartlar əsasında, həmçinin beynəlxalq təcrübədən istifadə olunmaqla müvafiq təhsil proqramlarının tərtib və tətbiq edilməsi, təlim-tərbiyə prosesində müasir üsul və metodlardan istifadə olunması, məktəblərdə çalışan müəllimlərin sosial statusunun artırılması, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, istedadlı uşaq və gənclərin yaradıcılıq inkişafının təmin edilməsi üçün zəruri şəraitin yaradılması istiqamətində işlərin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasında uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin inkişafı üzrə Xüsusi Fəaliyyət Proqramı (2016-2020-ci illər)" hazırlanmış, Nazirliyi Kollegiyasının 21 dekabr 2015-ci il tarixli 11/6 nömrəli qərarı ilə qəbul edilmiş və 1 fevral 2016-cı il tarixli 21 nömrəli əmri ilə icraya yönəldilmişdir. Proqramın icrası ilə bağlı bir sıra tədbirlər həyata keçirilmişdir.

Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin yeni Nümunəvi Əsasnaməsi hazırlanmış və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 19 aprel 2017-ci il tarixli, 06 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Uşaq musiqi və incəsənət məktəblərinin zəruri tədris vəsaitləri və not ədəbiyyatı ilə təmin olunması məqsədilə məktəblərin tədris portalı yaradılmışdır. Portalda Azərbaycan və dünya bəstəkarları, musiqi alətləri, respublikanın uşaq musiqi və incəsənət məktəbləri haqqında məlumatlar, tədris repertuarına daxil olan əsərlərin notları, metodiki vəsaitlər, tədris proqramları, ustad dərslərinə dair videomateriallar yerləşdirilmişdir.

Hesabat dövründə Prezident təqaüdçüləri olan gənc istedadlı musiqiçilərin respublikada tanınması və gənc nəsildə bədii-estetik zövqün inkişaf etdirilməsi məqsədilə mütəmadi olaraq respublikanın bölgələrində onların konsertləri təşkil edilir. Bununla əlaqədar 2017-ci il 30 iyun tarixində İsmayıllı şəhərində, 9 noyabr tarixində Sabirabad şəhərində Prezident təqaüdçülərinin konsertləri keçirilmişdir. Gənc musiqiçilər həm solo, həm də ansambl nömrələri ilə (simli kvartet, muğam üçlüyü və müxtəlif ansamblların tərkibində) çıxış etmişlər. Konsertlərdə rayon İcra Hakimiyyətinin rəsmiləri, mədəniyyət, təhsil müəssisələrinin işçiləri, yeniyetmə və gənclər iştirak etmişlər.

Mədəniyyət və Turizm Nazirliyi sistemindəki uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində, mərkəzlərində təhsilin keyfiyyətinin yüksəldilməsini, kadrlara olan tələb-təklif prinsiplərinin gözlənilməsini bilikli və bacarıqlı ixtisaslı kadrların bərabərhüquqlu, şəffaf və sağlam rəqabət şəraitində seçilib yerləşdirilməsini təmin etmək məqsədi ilə 2015/2016-cı tədris ilindən etibarən məktəblərə işə qəbul vakant yerlər əsasında müsabiqə yolu ilə aparılır. Bununla əlaqədar 2017/2018-ci tədris ili üçün pedaqoji kadrların işə qəbulu üzrə müsabiqə komissiyası tərəfindən IV müsabiqə elan olunmuş və 15-28 avqust 2017-ci il tarixində müsabiqənin I mərhələsi (elektron ərizələrin qəbulu və qiymətləndirilməsi), 28 avqust-11 sentyabr 2017-ci il tarixində isə II mərhələsi (müsahibə) keçirilmişdir.

Müsabiqə zamanı vakansiyaya çıxarılan 350 yerə 713 elektron ərizə daxil olmuşdur. Müsabiqənin qaydalarına uyğun olan 548 ərizə ikinci mərhələyə buraxılmışdır. Müsabiqənin ikinci mərhələsində (müsahibə mərhələsi) 495 nəfər iştirak etmiş, onlardan 135 nəfər uğur qazanmışdır.

Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin 2016/2017-ci tədris ilinin məzunları üçün şəhadətnamələr sifariş olunaraq çap edilmiş və Regional Mədəniyyət və Turizm İdarələrinə verilmişdir. 2017/2018-ci tədris ilinə uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinə şagird qəbulu haqqında müvafiq əmr hazırlanmış, regional idarələr üzrə qəbul planları hazırlanıb yerlərə göndərilmişdir.

Şəki şəhər 3 nömrəli Uşaq Musiqi Məktəbinin 30 illik, Balakən şəhər Bülbül adına Uşaq İncəsənət Məktəbinin 50 illik, Şuşa şəhər Niyazi adına Uşaq İncəsənət Məktəbinin 85 illik yubileyləri ilə əlaqədar müvafiq əmrlər hazırlanmış, hər üç məktəb nazirliyin Fəxri Fərmanı ilə təltif edilmişdir. Şuşa şəhər Niyazi adına Uşaq İncəsənət Məktəbinin 3 nəfər müəlliminə təşəkkür elan edilmiş və pul mükafatı verilmiş, 2 müəllim “Fəxri Mədəniyyət İşçisi” döş nişanı ilə təltif olunmuşdur.

Nazirliyin 17 aprel 2017-ci il tarixli, 94 nömrəli əmri ilə yaradılmış uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin, mərkəzlərinin fəaliyyətinə nəzarət üzrə daimi komissiya tərəfindən 20-21 aprel 2017-ci il tarixlərində Gəncə, Lənkəran, Ağstafa, Biləsuvar, Sabirabad regional mədəniyyət və turizm idarələri üzrə müvafiq olaraq Samux, Lənkəran, Astara, Ağstafa, Tovuz, Biləsuvar, Salyan, Hacıqabul, Saatlı, Sabirabad rayon uşaq musiqi və incəsənət məktəblərinin (cəmi 17 məktəb) əsas sənədlərinin monitorinqi aparılmışdır. Monitorinqin nəticələri üzrə 8 məktəb direktoruna töhmət, 8 direktora sonuncu xəbərdarlıqla şiddətli töhmət verilmişdir. 1 məktəb direktoru öz xahişi ilə tutduğu vəzifədən azad edilmişdir.

Balakən rayon Qabaqçöl qəsəbə Uşaq Musiqi Məktəbinin sonrakı fəaliyyətinin müəyyənləşdirilməsi ilə əlaqədar yerində monitorinq aparılması və monitorinqin nəticələrinə əsasən müvafiq arayışın, təkliflərin və zəruri sənədlərin hazırlanması məqsədilə 2017-ci il 25-26 oktyabr tarixində Balakən rayon Qabaqçöl qəsəbə Uşaq Musiqi Məktəbində və Balakən şəhər Bülbül adına Uşaq İncəsənət Məktəbində monitorinq aparılmışdır.

Nazirliyin 20.11.2017-ci il tarixli, 219-e nömrəli əmrinə əsasən 21-23 noyabr tarixlərində Laçın şəhər 2 nömrəli, Ağsu və Tovuz şəhər uşaq musiqi məktəblərində, 1 və 5 dekabr tarixlərində Laçın rayon Ərdəşəvi kənd Uşaq Musiqi Məktəbində, 4-8 dekabr tarixlərində Mingəçevir şəhər Ü.Hacıbəyli adına 1 nömrəli Onbirillik Musiqi Məktəbində və Ağdam rayon Əfətli kənd Uşaq Musiqi Məktəbində monitorinqlər aparılmışdır.

Respublikanın uşaq musiqi və incəsənət məktəblərində təhsilin keyfiyyətinin yüksəldilməsi, müəllimlərin peşəkarlığının artırılması və onlara metodiki köməklik göstərilməsi

məqsədilə Nazirlik tərəfindən mütəmadi olaraq müxtəlif ixtisaslar üzrə təcrübəli mütəxəssislərin, tanınmış müəllimlərin ustad dərsləri təşkil edilir. 2017-ci il 2 iyun tarixində Sumqayıt şəhərində Xızı, Qubadlı rayon və Sumqayıt şəhər, 3 iyun tarixində Xırdalan şəhərində Abşeron, Şuşa, Zəngilan rayon uşaq musiqi və incəsənət məktəblərinin müəllim və şagirdləri üçün fortepiano, violin, tar, kamança və musiqi nəzəriyyəsi ixtisasları üzrə, 12 iyun tarixində Xaçmaz şəhərində Xaçmaz, Quba, Qusar, Siyəzən, Şabran rayon uşaq musiqi və incəsənət məktəblərinin müəllim və şagirdləri üçün fortepiano, violin, kamança və rəssamlıq ixtisasları üzrə ustad dərsləri təşkil edilmişdir.

Nazirliyin tabeliyindəki uşaq musiqi və incəsənət məktəblərinin fortepiano alətinin təmiri, köklənməsi və nizamlanması üzrə mütəxəssislərə böyük ehtiyacı olduğunu nəzərə alaraq, nazirlik tərəfindən Bakı şəhərində müvafiq təlim kursları təşkil edilir. 2016-cı ildə keçirilən kurslarda Bakı, Naftalan, Şəki şəhər, Abşeron, Ağstafa, Ağsu, Balakən, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, İsmayıllı, Hacıqabul, Xaçmaz, Xızı, Xocalı, Kəlbəcər, Qax rayon uşaq musiqi və incəsənət məktəblərindən fortepiano alətinin təmiri və köklənməsi sahəsində səriştəsi olan 21 müəllim iştirak etmiş, onlara Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzinin müvafiq vəsiqələri verilmişdir. Bu işin davamı olaraq 2017-cı ilin may ayında keçirilən növbəti təlim kurslarında Bakı, Şəki şəhər, Oğuz, Şamaxı, Qobustan, Masallı, Cəlilabad rayon uşaq musiqi və incəsənət məktəblərinin 12 müəllimi iştirak etmişdir.

Ölkədə orkestr alətləri üzrə yüksək peşəkar ifaçı və pedaqoji kadrların hazırlanması və mütəxəssis çatışmazlığının tədricən aradan qaldırılması məqsədilə uşaq musiqi və incəsənət məktəblərində simli, nəfəsli və zərb alətləri üzrə təhsilin canlandırılması və keyfiyyətinin yüksəldilməsi, müəllimlərin fəaliyyətinin stimullaşdırılması, ən çox tələbat olan musiqi alətlərinə şagird və valideynlərdə maraq yaradılması kimi vəzifələrin həlli üçün "Uşaq musiqi və incəsənət məktəblərində simli, nəfəsli və zərb alətləri üzrə tədrisin inkişaf etdirilməsinə dair Proqram (2016-2020-ci illər)" hazırlanmış və Nazirliyin 17 mart 2016-cı il tarixli 98 nömrəli əmri ilə təsdiq edilmişdir. Proqramın icrası ilə bağlı Tədbirlər planının 4.8-ci bəndinə uyğun olaraq müəllim və şagirdlər üçün ustad dərslərinin keçirilməsi məqsədilə müvafiq ixtisaslar üzrə xarici ölkələrdən mütəxəssislər dəvət edilir. Bu məqsədlə Nazirlik tərəfindən Bakı şəhərinə dəvət olunmuş Belçika Kral Akademiyasının professoru, tanınmış violin ifaçısı və dirijor Leonid Kerbel 14-16 mart 2017-ci il tarixində Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində Bakı və Sumqayıt şəhər uşaq musiqi və incəsənət məktəblərinin violin ixtisası üzrə aparıcı müəllimləri və istedadlı şagirdləri üçün ustad dərsləri keçmişdir. Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində tədrisin səviyyəsinin yüksəldilməsi, gənc istedadların üzə çıxarılması, onların peşəkar inkişafının istiqamətləndirilməsi, müəllimlərin yaradıcılıq fəaliyyətinin aktivləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi mütəmadi olaraq baxışlar, festivallar, müsabiqələr, sərgilər təşkil edir. Hesabat dövründə respublika miqyaslı 4 müsabiqə keçirilmişdir.

Respublikada vokal və estrada oxuma sənətinin inkişaf etdirilməsi, istedadlı uşaq və gənclərin aşkara çıxarılması, onların ifaçılıq səviyyələrinin yüksəldilməsi və dəstəklənməsi məqsədilə cari ilin 14-16 mart tarixində Bakı şəhərində uşaq və gənclər arasında vokal və estrada oxuma üzrə respublika müsabiqəsi keçirilmişdir. Müsabiqəyə uşaq musiqi, incəsənət məktəblərindən, Azərbaycan Milli Konservatoriyasından və onun tərkibində İncəsənət Gimnaziyasından 70-ə yaxın şagird və tələbə qatılmışdır. Müsabiqə qaliblərinin konserti 2017-ci il 5 aprel tarixində Dövlət Mahnı Teatrında baş tutmuşdur.

Aprel ayında Uşaq xor kollektivlərinin IX respublika müsabiqəsi keçirilmişdir. Müsabiqənin keçirilməsində məqsəd respublikada xor mədəniyyətinin inkişaf etdirilməsi, uşaq musiqi və incəsənət məktəblərində xor fənninin tədrisi səviyyəsinin yüksəldilməsi, xormeysterlərin yaradıcılıq fəaliyyətinin aktivləşdirilməsidir. Müsabiqədə respublika üzrə 150 kollektiv (5 mindən çox şagird) iştirak etmişdir. Müsabiqə iştirakçıları təsdiq olunmuş cədvələ uyğun olaraq cari ilin 6-26 aprel tarixində regionlar üzrə Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Şəki şəhərləri və

Ağcabədi, Ağdaş, Bərdə rayonlarında çıxış etmişlər. Müsabiqə qaliblərinin yekun konserti 15 may tarixində Azərbaycan Dövlət Musiqili Teatrında keçirilmişdir.

Ölkədə fortepiano ifaçılığı sənətinin inkişaf etdirilməsi, uşaq musiqi və incəsənət məktəblərində fortepiano ixtisası üzrə tədrisin keyfiyyətinin yüksəldilməsi, gənc istedadların üzə çıxarılması və dəstəklənməsi məqsədilə cari ilin may ayında Gənc pianoçuların III respublika müsabiqəsi təşkil edilmişdir. Müsabiqənin I turu 1-19 may tarixində regionlar üzrə Bakı, Gəncə, Şəki şəhər və Ağcabədi, Ağstafa, Xaçmaz, Masallı rayonlarında, II turu isə 22-23 may tarixində Bakı şəhərində keçirilmişdir. 9-18 yaşlı uşaq və gənclər arasında 3 yaş qrupu üzrə (I qrup: 9-11 yaş, II qrup: 12-14 yaş, III qrup: 15-18 yaş) keçirilən müsabiqədə uşaq musiqi, incəsənət məktəbləri və musiqi kolleclərindən 400-ə yaxın şagird və tələbə iştirak etmişdir. Qaliblərin iştirakı ilə müsabiqənin yekun konserti 14 iyun tarixində Beynəlxalq Muğam Mərkəzində keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 yanvar tarixli Sərəncamı ilə 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi ilə əlaqədar, habelə 12-22 may tarixində Bakı şəhərində IV İslam Həmrəyliyi Oyunlarının keçirildiyini nəzərə alaraq Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyin müvafiq əmri ilə cari ilin 31 may - 1 iyun tarixində Muzey Mərkəziində "İslam sivilizasiyası uşaqların gözü ilə" mövzusunda rəsm və əl işlərindən ibarət II respublika müsabiqəsi təşkil edilmişdir. Müsabiqəyə respublikanın uşaq incəsənət və rəssamlıq məktəblərindən, uşaq yaradıcılıq mərkəzlərindən, rəsm studiya və dərnəklərindən 350-dən çox rəsm və əl işləri təqdim edilmişdir. Müsabiqə qalibləri və fərqlənənlər nazirliyin müxtəlif dərəcəli diplomları, fəxri fərman və pul mükafatlarına layiq görülmüşlər.

Milli mədəniyyətimizin tanıdılması, habelə istedadlı gənclərin yaradıcılıq bacarıqlarının inkişafı məqsədilə ölkəmizin müxtəlif beynəlxalq tədbirlərdə təmsil olunmasının əhəmiyyətini nəzərə alaraq, hesabat dövrü ərzində uşaq və gənclərin xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə iştirakı üçün Nazirlik tərəfindən maliyyə və təşkilati dəstək göstərilmişdir.

Bakı şəhər T.Quliyev adına 12 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi Ayan Məmmədli və Bakı şəhər R.Hacıyev adına 15 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi Cəmil Sədizadə 2017-ci ilin fevral-mart aylarında keçirilən Vladimir Kraynevin II Moskva beynəlxalq pianoçular müsabiqəsində iştirak etmiş, C.Sədizadə müsabiqənin diplomantı olmuşdur.

Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin rəqs kollektivi 2017-ci ilin 17-19 mart tarixində Rusiya Federasiyasının Moskva şəhərində keçirilmiş "Russian Dance Union" müsabiqəsində uğurla iştirak etmiş, üç nominasiya üzrə I, II və III yerlərə layiq görülmüşlər.

Bakı şəhər G.Şaroyev adına 35 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi Şirin Əmiraslanova 20-23 aprel tarixində Belçikanın Brüssel şəhərində keçirilmiş "Mersi, Maestro" adlı beynəlxalq fortepiano müsabiqəsində I dərəcəli Diploma, həmin məktəbin şagirdi Jalə İslamova cari ilin 18-25 aprel tarixində İspaniyanın Madrid şəhərində keçirilmiş "Ciudad de Leganes" adlı beynəlxalq fortepiano festival-müsabiqəsində II dərəcəli Diploma layiq görülmüşlər.

Hesabat dövrünün 25-30 aprel tarixində Rusiya Federasiyasının Yekaterinburq şəhərində "Yer-ümumi evimizdir" ("Земля - наш общий дом") adlı gənclərin XVI Beynəlxalq Musiqi Yaradıcılığı Festivalı keçirilmişdir. Festival çərçivəsində on dörd ölkənin (Azərbaycan, Rusiya, Belarus, Gürcüstan, Avstriya, Bolqarıstan, Rumıniya, Serbiya, Çin, Hindistan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan) uşaq və gənclərdən ibarət 45 yaradıcı kollektivinin iştirakı ilə xoreoqrafiya, instrumental musiqi, folklor və xor müsabiqəsi də təşkil edilmişdir.

Festivalda ölkəmizi təmsil edən Bakı Xoreoqrafiya Akademiyasının "Bakının ulduzları" rəqs ansamblı (bədii rəhbər Xalq artisti Yusif Qasımov) xoreoqrafiya nominasiyasında birinci yeri tutaraq, müsabiqənin laureatı adını qazanmış və birinci dərəcəli diplomla təltif edilmişdir.

28 may tarixində Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Moskvanın Böyük Kreml Sarayında keçirilən "Melodika pokoleniy" adlı V Beynəlxalq Uşaq Musiqi Festivalında Bakı şəhər R.Hacıyev adına 15 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi Cəmil Sədizadə (fortepiano) Rusiya Federasiyası Prezident orkestrinin müşayiəti ilə uğurla çıxış etmişdir

29 may-9 iyun tarixində keçirilmiş “Moskva dostları qarşılayır” XIV beynəlxalq festivalda ölkəmizi Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin vokal ixtisası üzrə şagirdi Lalə İbrahimova və müəllim Sevinc Kərimova təmsil etmişdir.

İstedadlı gənclərin dəstəklənməsi və müvafiq sahələr üzrə yüksək ixtisaslı kadrların hazırlanması çərçivəsində görülən işlərin davamı olaraq istedadlı gənclərin xarici ölkələrin tədris müəssisələrində təhsil almaları və tanınmış mütəxəssislərin ustad dərslərində iştirak etmələri üçün Nazirlik tərəfindən maliyyə dəstəyi göstərilir. Belə ki, violin ifaçıları, Prezident təqaüdçüləri Elvin Hoca Qəniyev, Kamran Ömərli və Cəmilə Qarayusiflinin müvafiq olaraq İsveçrənin Kalaidos Tətbiqi Elmlər Universitetində, İspaniyanın Kraliça Sofiya adına Ali Musiqi Məktəbində və İsveçrənin Lozanna Ali Musiqi Məktəbində, Prezident təqaüdçüsü Ənvər Kərimovun (truba) P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında, Prezident təqaüdçüsü Aytac Şıxəlizadənin (vokal) Vyana Musiqi və Təsviri İncəsənət Universitetində təhsil almaları ilə bağlı Nazirlik tərəfindən maddi dəstək göstərilmişdir.

4-11 iyun tarixində Rusiya Federasiyasının Samara vilayətində tanınmış dirijor və musiqiçi Yuriy Başmetin yaradıcılıq dəstəyi ilə keçirilən MDB və Baltikyanı ölkələrin VII Musiqi Uşaq Akademiyasında Bakı şəhər Niyazi adına 22 nömrəli Uşaq Musiqi Məktəbinin direktoru İlhamə Ağayeva, Bakı şəhər L. və M. Rostropoviçlər adına 21 nömrəli Onbirillik Musiqi Məktəbinin violin ixtisası üzrə şagirdi Toğrul Abdullayev, Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin violin ixtisası üzrə şagirdi Yelizaveta Kizel və Azərbaycan Milli Konservatoriyasının nəzdində İncəsənət Gimnaziyasının fortepiano ixtisası üzrə şagirdi Banu Nağıyeva iştirak etmişlər.

16-31 iyul tarixində Belçika Krallığında keçirilmiş “Musica Mundi” beynəlxalq kamera musiqisi festivalı və yay kurslarında Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin violin ixtisası üzrə şagirdləri Prezident təqaüdçüsü Zərrin Əliyeva və Nərgiz Əliyeva, habelə məktəbin məzunu, hazırda Bakı Musiqi Akademiyasında təhsil alan Prezident təqaüdçüsü Orxan Hüseynov (violonçel) iştirak etmişlər.

TURİZM

Hesabat dövründə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan fərman və sərəncamlara, eləcə də, ölkə rəhbərliyinin müəyyən etdiyi dövlət siyasətinə uyğun olaraq Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2017-ci il ərzində, turizmin inkişafı istiqamətində ardıcıl işlər görülmüş, beynəlxalq əməkdaşlıq sahəsində hökumətlərarası komissiyaların qəbul etdiyi sənədlərin icrası həyata keçirilmişdir. Çoxtərəfli əməkdaşlıq münasibətlərinin qurulması və inkişaf etdirilməsinin turizm siyasətinin prioritet istiqamətlərindən biri olduğunu nəzərə alaraq, Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatı (BMÜTT), İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və onun müxtəlif institutları, o cümlədən, COMCEC, Müstəqil Dövlətlər Birliyi (MDB), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) və s. beynəlxalq təşkilatlarla turizm sahəsində əməkdaşlıq çərçivəsində fəaliyyət davam etdirilmişdir.

Son illər ölkəmizə gələn turistlərin artım dinamıkası 2017-ci ildə də davam etmişdir. Belə ki, cari ilin 11 ayı ərzində Azərbaycana gələn xarici vətəndaşların sayı 2 477 908 nəfər olmuşdur. Müqayisə üçün qeyd edək ki, 2016-cı ilin müvafiq dövründə ölkəyə gələn xarici vətəndaşların sayı 2 064 224 nəfər olmuşdur. Bu da, cari ildə ölkəyə gələn xarici vətəndaşların sayında 20 % (413 684 nəfər) artım deməkdir **(Cədvəl 1).**

2016-cı illə müqayisədə xüsusi artım tempi Rusiya Federasiyası, BƏƏ və İran İslam Respublikasından gələn turistlərin sayında özünü göstərmişdir. Eyni zamanda, xarici vətəndaşların sayı, onların bank kartları vasitəsi ilə apardıqları əməliyyatlar **(Cədvəl 2)** üzrə aylıq məlumatlar Dövlət Sərhəd Xidməti, Dövlət Miqrasiya Xidməti və Mərkəzi Bank tərəfindən təqdim edilmiş və sözügedən göstəricilərə əsasən müvafiq təhlillər aparılmışdır.

Hesabat dövründə turizm sahəsinə birbaşa və dolayı təsir göstərmiş bütün sahələr üzrə beynəlxalq təcrübə təhlil edilmiş, turizm sənayesinin kompleks inkişafının təmin edilməsi

məqsədilə müvafiq təklif və tövsiyələr hazırlanmışdır. Sözügedən təklif və tövsiyələrin həyata keçirilməsi ilə bağlı Turizm Şurasının 28 fevral tarixdə keçirilən iclasında aidiyyəti qurumların iştirakı ilə müzakirələr aparılmışdır.

Nazirliyin "Regional mədəniyyət və turizm idarələri və turizm informasiya mərkəzləri tərəfindən turistlərin sayı üzrə statistik məlumatların toplanması haqqında" əmrinə əsasən Turizm şöbəsi tərəfindən hər ay üzrə qeyd olunan statistik məlumatlar toplanır və təhlil edilir **(Cədvəl 3, 4, 5, 6, 7, 8).**

Hesabat dövründə ölkəyə giriş-çıxış rejiminin sadələşdirilməsi, səmərəli nəzarət və tənzimləmə mexanizmlərinin həyata keçirilməsi ilə turistlərə göstərilən xidmət səviyyəsinin yüksəldilməsi və Azərbaycana turist axınının artmasına əlverişli şərait yaradılması, qanunvericilik bazasının gücləndirlməsi və bu sahədə müsbət meyllərin inkişaf etdirilməsi məqsədi ilə lazimi işlər həyata keçirilmişdir.

Belə ki, cari ildə Azərbaycan Respublikasının "Turizm haqqında" yeni Qanun layihəsi Milli Məclisin 1-ci plenar iclasında müzakirəyə çıxarılmışdır. Növbəti iclaslarda müzakirələr üçün ilkin variant qəbul olunmuşdur. Qanun layihəsi ilə bağlı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin mütəxəssisləri ilə də müzakirələr aparılmış, onların təklifləri nəzərə alınaraq Qanun layihəsinin yeni variantına əlavə edilmişdir. Nazirliyin sifarişi ilə "Rekreasiya turizmi. Çimərliklərin idarəedilməsinə dair tələblər və tövsiyələr" standartı hazırlanmış, sözügedən sənədlə bağlı aidiyyəti qurumların rəy və təklifləri toplanmış və təsdiq olunması üçün Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə təqdim olunmuşdur.

"Turizm və ekskursiya xidmətləri. Halal idarəetmə sistemi – mehmanxanalar" standartının layihəsi hazırlanmış, Texniki Komitənin (TK06) iclasında müzakirə edilmiş, rəy və təkliflərin bildirilməsi üçün aidiyyəti qurumlara göndərilmiş, müvafiq qurumların rəy və təklifləri nəzərə alınaraq layihənin son variantı təsdiq olunması üçün Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə təqdim edilmişdir.

"Kənd yerlərində yerləşdirmə vasitəsi. Yerləşdirmə vasitələrinin təsnifatı, kateqoriyalarının müəyyənləşdirilməsi və qiymətləndirmədə meyarlarının tətbiq edilməsi" standartının layihəsi hazırlanmış və razılaşmaq üçün aidiyyəti qurumlara (İN, KTN, SN, ETSN, SMPDK) göndərilmişdir.

"Turizm və ekskursiya xidmətləri. Hotellər. Əsas kriteriyalar və tələblər" standartının layihəsi hazırlanmış və Texniki Komitənin (TK06) iclasında müzakirə edilmişdir. Növbəti mərhələdə standartın layihəsi razılaşmaq məqsədilə aidiyyəti qurumlara təqdim olunacaqdır.

Eyni zamanda, hesabat dövründə "Azərbaycan Respublikasına turist axınının sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncam layihəsi hazırlanmış və Azərbaycan Respublikasının Prezidentinin 20 fevral 2017-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

"Turizm Reyestrinin aparılması Qaydaları"nın layihəsi hazırlanmış, rəy və təkliflər üçün aidiyyəti qurumlarla göndərilmişdir. Müvafiq dövlət qurumları tərəfindən verilən rəylər nəzərə alaraq Nazirlər Kabinetinin qərar layihəsi və "Turizm Reyestrinin aparılması Qaydaları"nın layihəsi yenidən hazırlanaraq Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 30 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında çimərlik turizminin inkişafına dair 2017–2020-ci illər üçün Tədbirlər Planı"na uyğun olaraq "Çimərliklərdən istifadə Qaydası"nın layihəsi hazırlanmış və razılaşmaq məqsədilə aidiyyəti qurumlara (SN, ETSN, FHN, İN və Bakı İH) təqdim olunmuşdur.

Hesabat dövründə Turizm Şurasının 28 fevral, 6 aprel, 12 iyun və 11 oktyabr tarixlərində dörd iclası keçirilmişdir. Şuranın indiyədək keçirilmiş bütün iclasları Katiblik tərəfindən protokollaşdırılmış və Şuranın iclaslarında qəbul olunmuş qərarlar müvafiq protokollarda öz əksini tapmışdır.

Turizm Şurasının ilk iclaslarının gündəliyi Şuranın Protokollarına və üzv qurumlar tərəfindən həyata keçirilməsi nəzərdə tutulan müvafiq qərarlara əsasən "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" və

Turizm Şurası haqqında Əsasnaməyə uyğun olaraq turizmin müxtəlif istiqamətləri üzrə işçi qruplarının yaradılması, Bakı Ticarət Festivallarının yüksək səviyyədə keçirilməsi məqsədilə sözügedən tədbirin icrasının Turizm Şurasının fəaliyyəti çərçivəsində koordinasiya edilməsi, Azərbaycandakı mövcud viza prosedurlarının sadələləşdirilməsi, turizm statistikasının təkmilləşdirilməsi, ölkəmizdə turistlərlə birbaşa ünsiyyətdə olan aidiyyəti qurumların əməkdaşlarının müvafiq təlimlərdə iştirakının təmin edilməsi, turistlərin marağına səbəb olan bəzi məkanların mövcud infrastrukturunun təkmilləşdirilməsi, həmin ərazilərə gediş-gəlişin sərbəstləşdirilməsi və sadələşdirilməsi, eləcə də bir sıra digər mühüm məsələlərlə bağlı olmuşdur.

Turizm Şurasının Katibliyi tərəfindən aparılan təhlillər göstərmişdir ki, Turizm Şurası indiyədək keçirilən iclaslar çərçivəsində 110 qərar qəbul etmiş, bunlardan 80-i tam icra edilmiş, 6-sı isə icra olunmamışdır. Qərarların 24-nün icrası istiqamətində isə işlər davam etdirilir.

Məlumat üçün qeyd edirik ki, dövr ərzində "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi", Turizm Şurası haqqında Əsasnamə və Şuranın Katibliyi tərəfindən təqdim edilən təkliflərə əsasən ilkin olaraq 5 istiqamət üzrə işçi qrupları təsdiq edilmişdir. Bunlar, "Çimərlik turizminin inkişafı", "Turizm statistikasının təkmilləşdirilməsi", "Turizm sahəsində peşə təhsili və təlimi proqramlarının əlaqələndirilməsi", "Liberal hava nəqliyyatı və Sərhədkeçmə prosedurlarının sadələşdirilməsi" üzrə yaradılmış işçi qruplarıdır. Dövr ərzində qeyd olunan işçi qruplarının iclasları keçirilmişdir.

Bundan əlavə, Turizm sahəsində təhlükəsizlik, Dini turizm, Ekoturizm və Sağlamlıq turizmi üzrə işçi qruplarının yaradılması istiqamətində işlər görülür.

Turistlərin ölkəmizə girişi və çıxışı prosesinin mövcud vəziyyətinin öyrənilməsi məqsədilə nazirliyin müvafiq əmrlərinə əsasən Turizm şöbəsinin və regional mədəniyyət və turizm idarələrinin əməkdaşları 18-19, 25-26 mart və 11-14-iyul tarixlərində Respublikamızın müxtəlif rayonlarında yerləşən gömrük-sərhəd buraxılış məntəqələrində müşahidələr aparmışdır. Müşahidələrin nəticəsi ilə bağlı müvafiq təkliflər Turizm Şurasının 5-ci iclasında müzakirə edilmişdir.

Turizm Şurasının fəaliyyəti nəticəsində müxtəlif qurumlar arasında koordinasiya mexanizminin yaradılması mümkün olmuşdur. Bu isə öz növbəsində turizm sahəsinin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin daha səmərəli olmasını təmin etmişdir.

Cari ildə təsdiq üçün Azərbaycan Respublikası Prezidentinə təqdim olunmuş "Azərbaycan Respublikasında çimərlik turizminin inkişafına dair 2017–2020-ci illər üçün Tədbirlər Planı"nda Prezident Administrasiyanın, eləcə də, aidiyyəti qurumların rəy və təklifləri nəzərə alınaraq layihədə yenidən müvafiq əlavə və düzəlişlər edilmişdir. "Azərbaycan Respublikasında çimərlik turizminin inkişafına dair 2017–2020-ci illər üçün Tədbirlər Planı" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 30 mart tarixli Sərəncamı ilə təsdiq olunmuşdur.

Özəl və ictimai çimərliklərin yaradılması məqsədilə İşçi qrupu 12 may tarixində Xəzər rayonunda, 19 may tarixində Sumqayıt şəhərində, 2 iyun tarixində Sabunçu rayonunda icra hakimiyyəti başçılarının müavinləri, bələdiyyə və qəsəbə nümayəndələri və sahibkarlarla görüşlər keçirmişdir.

15 iyun tarixində Bakı şəhəri üzrə rayon icra hakimiyyəti başçılarının müavinlərinin iştirakı ilə Bakı Şəhər İcra Hakimiyyətində keçirilmiş görüşdə özəl və ictimai çimərliklərin yaradılması və bunun üçün ərazi ayrılması ilə bağlı icra hakimiyyətlərinə tapşırıqlar verilmişdir. Sabunçu Rayon İcra Hakimiyyəti ictimai çimərliyin yaradılması üçün uzunluğu 690 m. olmaqla 3.9 hektar ərazi təqdim etmişdir.

Tədbirlər Planının icrası çərçivəsində yeni ictimai və özəl çimərliklərin yaradılması ilə bağlı Əmlak Məsələləri Dövlət Komitəsi və Sabunçu Rayon İcra Hakimiyyətindən təqdim olunan təkliflərə əsasən Nardaran qəsəbəsinin Xəzər dənizinin sahilboyu 2000 m. ərazisində çimərlik üzrə pilot layihənin hazırlanması nəzərdə tutulmuşdur.

Həmin ərazinin çimərliyə yaralı olmasının müəyyən edilməsi üçün Ekologiya və Təbii Sərvətlər, Səhiyyə və Fövqəladə Hallar nazirliklərinə müraciətlər ünvanlanmışdır. Rəylər

müsbət olduğu təqdirdə pilot layihənin planlama işləri Bakı Şəhəri İcra Hakimiyyəti və Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən həyata keçiriləcəkdir.

Dövr ərzində Xızı-Xaçmaz, Quba və Qusar turizm və rekreasiya zonalarının yaradılması istiqamətində işlər davam etdirilmişdir. Belə ki, baş inkişaf planlarının hazırlanması xidmətlərinin satınalınması məqsədilə keçirilən müsabiqədə "PGİ Azerbaijan" (Quba və Qusar) və "İnova" (Xızı-Xaçmaz) şirkətləri qalib olmuşdur. TRZ-lərin Baş inkişaf planlarının hazırlanması məqsədilə Nazirliklə "PGİ Azerbaijan" MMC və "İnova" MMC arasında müqavilə bağlanmışdır.

Müqaviləyə əsasən baş inkişaf planlarının hazırlanması üçün tələb olunan müvafiq məlumatlar aidiyyəti qurumlardan toplanaraq icraçılara təqdim edilmişdir.

Həmçinin, yeni turizm və rekreasiya zonalarının yaradılması məqsədilə şəhər (rayon) icra hakimiyyətlərindən daxil olmuş məlumatlar ümumiləşdirilərək təhlil olunmuş və TRZ-lərin yaradılması ilə bağlı qrafikə uyğun olaraq təklif edilən ərazilərə baxışın keçirilməsi üçün İşçi qrupu Qərb və Cənub bölgəsinə səfər etmişdir.

Səfərin nəticəsi olaraq seçilmiş ərazilərin razılaşdırılması və yer quruluşu xəritələrinin hazırlanması məqsədilə Lənkəran şəhər və Astara, Yardımlı, Lerik, Masallı rayon icra hakimiyyətlərinə müraciət ünvanlanmışdır. Cənub bölgəsi üzrə TRZ-lərin yaradılmasına dair təkliflər Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Eyni zamanda Strateji Yol Xəritəsinə uyğun olaraq "Turizm sahəsində Milli Keyfiyyət Sisteminin tətbiqi"nə dair fəaliyyət planı təsdiq olunmuşdur.

Ölkəmizin turizm potensialının təbliği məqsədi ilə Mədəniyyət və Turizm Nazirliyi yanvar ayında Türkiyənin İstanbul şəhərində (EMİTT), mart ayında Almaniyanın Berlin şəhərində (İTB Berlin) və Rusiya Federasiyasının Moskva şəhərində (MİTT), aprel ayında BƏƏ-nin Dubay (ATM) şəhərində keçirilən beynəlxalq turizm sərgilərində iştirak etmişdir.

Eyni zamanda, 21-24 sentyabr tarixində Yaponiyanın Tokio şəhərində keçirilən "JATA 2017" Beynəlxalq Turizm Sərgisində ölkəmiz GUAM-a üzv dövlətlərlə birlikdə xüsusi statusda təmsil olunmuşdur.

6-8 aprel tarixində "Bakı Ekspo Mərkəzi"ndə XVI Beynəlxalq Turizm və Səyahətlər Sərgisi (AİTF-2017) keçirilmişdir. Sərgi çərçivəsində 50 kv.m. sahədə milli stend quraşdırılaraq ölkəmizin turizm potensialı nümayiş edilmişdir. Qeyd olunan sərgi çərçivəsində Azərbaycanın turizm potensiallı bölgələrinin pavilyonları quraşdırılaraq, rayon və şəhərlər müvafiq stendlərlə təmsil olunmuşdur. Bununla yanaşı, Azərbaycanın Qarabağ bölgəsinin stendi də Nazirlik tərəfindən hazırlanaraq ziyarətçilərin diqqətinə təqdim edilmişdir.

Dövr ərzində Azərbaycanın turizm potensialına dair 30 saniyəlik reklam çarxları "CNN" və "Euronews" telekanallarında, eləcə də, müxtəlif verilişlər ("Cult", "Postcards" və "Focus") "Euronews" telekanalında nümayiş olunmuşdur. Bundan əlavə, ölkəmizin turizm potensialını əks etdirən yeni videoçarx hazırlanaraq dekabr ayı ərzində Rusiya Federasiyasının aparıcı televiziya kanallarında nümayişi etdirilmişdir.

Azərbaycanın turizm potensialının elektron marketinq vasitələri ilə təbliği məqsədilə 2017-ci ilin ilk rübü üçün rus və ingilis dillərində olmaqla elektron xəbər bülleteni və "Facebook" sosial şəbəkəsi üçün media plan hazırlanmışdır. Daha sonra bu sahədə işin davam etdirilməsi Milli Turizm Təbliğat Bürosuna təhvil verilmişdir.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin İstanbul şəhərindəki turizm nümayəndəliyi kimi fəaliyyət göstərən "Gateway" şirkətinin təşkilatçılığı ilə lüks turizm haqqında məqalələrin dərc olunması məqsədilə 3-5 mart tarixində Türkiyənin tanınmış moda, həyat və stil jurnallarının ("Cosmopolitan", "Harpers Baazar", "İnstyle", "Elle", "Elele Dergisi" və "World Wide Traveller") 6 nəfərdən ibarət nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur.

Azərbaycanın turizm potensialına dair verilişin hazırlanması məqsədilə Cənubi Koreya Respublikasında fəaliyyət göstərən "Jstar Management Solution" şirkətinin təşkilatçılığı ilə "4K Power" çəkiliş qrupu 14-20 may tarixində ölkəmizə səfər etmişdir. Səfər çərçivəsində Bakı ilə yanaşı, Şəki, Naftalan, Göygöl ərazilərində çəkilişlər aparılmışdır.

Həmçinin, Türk Hava Yollarının Bakı nümayəndəliyinin dəstəyi ilə Londonda fəaliyyət göstərən korporativ turizm üzrə ixtisaslaşmış agentliklər üçün 17-19 iyun tarixində ölkəmizə tanışlıq səfəri təşkil olunmuşdur.

28 sentyabr - 5 oktyabr tarixində Fransanın turizm üzrə ixtisaslaşmış 9 media nümayəndəsinin Azərbaycana səfər layihəsinə dəstək verilmişdir. Təşkil edilmiş infoturun yekunu olaraq Fransa mətbuatında ölkəmizin turizm potensialı haqda çoxlaylı məqalələr nəşr edilmişdir.

18-22 oktyabr tarixində Rusiya Federasiyasının NTV telekanalının "Поедем, поедим!" səyahət verilişinin çəkiliş qrupu ölkəmizdə səfərdə olmuşdur. Layihənin yekunu olaraq 25 noyabr tarixində geniş tamaşaçı kütləsinə malik verilişin yayımlaması baş tutmuşdur.

Bundan əlavə, oktyabr ayı ərzində Polşanın "Golden Media" şirkətinin çəkiliş qrupunun ölkəmizə səfərinə dəstək verilmiş və Azərbaycan haqqında turistik veriliş hazırlanmışdır.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının 40 nəfər əməkdaşı üçün 10 mart tarixində "Şahdağ" Turizm Mərkəzinə ekskursiya təşkil olunmuşdur.

21 aprel tarixində Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu və Qaradağ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı və Səhiyyə, Ekologiya və Təbii Sərvətlər və Mədəniyyət və Turizm nazirliklərinin iştirakı ilə "Palçıq vulkanları – dünya möcüzəsi" mövzusunda ekskursiya və elmi konfrans keçirilmişdir.

Turizm şirkətləri və kütləvi informasiya vasitələri nümayəndələri üçün 2-4 iyul tarixində "Beş dövrün beş paytaxtı" adlı mədəni turizm marşrutu üzrə Bərdə, Gəncə, Qəbələ, Şamaxı və Bakıya, 7-8 iyul tarixində Qusarda fəaliyyət göstərən "Xutorok" turizm istirahət mərkəzi və "Şahdağ" Turizm Mərkəzinə, həmçinin, rayonun Ləzə kəndinə ekoturizm marşrutu üzrə ekskursiya keçirilmişdir.

Nazirliyin dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti Yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyinin ASAN təlim-tədris mərkəzi tərəfindən 12-14 iyul tarixində Nazirliyin nəzdindəki, Bakı şəhərində yerləşən muzey və qoruqların 46 nəfər əməkdaşı üçün "Müştərilər ilə (vətəndaşlar ilə) əlaqələrin idarə edilməsi" mövzusunda təlimlər keçirilmişdir.

29 yanvar-4 fevral tarixində Yaponiyada GUAM-a üzv dövlətlərin nümayəndələri üçün turizm mövzusunda seminar keçirilmişdir. Seminarda GUAM ölkələri arasında yeni turizm məhsullarının yaradılması, eyni zamanda 21-24 sentyabr tarixində Tokio şəhərində keçirilməsi nəzərdə tutulan "JATA 2017" Beynəlxalq Turizm Sərgisində GUAM ölkələrinin vahid stendlə çıxış etməsi istiqamətində müzakirələr aparılmışdır.

May ayında Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini Nazim Səmədov İsveçrədə keçirilən Lüsern Dünya Turizm Forumunda iştirak etmişdir.

2017-ci ilin Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatı (BMÜTT) tərəfindən "İnkişaf naminə davamlı turizm beynəlxalq ili" elan olunması ilə bağlı Milli Fəaliyyət Planının icrası istiqamətində müvafiq işlər görülmüşdür.

Azərbaycanın sədrliyi ilə Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatının Turizm Etikası üzrə Konvensiyanın hazırlanması məqsədilə yaradılmış İşçi qrupunun fəaliyyətində aktiv iştirak təmin olunmuşdur. İşçi qrupunun fəaliyyəti çərçivəsində Konvensiyanın mətni üzv dövlətlərlə razılaşdırılmışdır. Turizm Etikası üzrə Konvensiyanın hazırlanması üzrə prosedurların yekunlaşdırılması məqsədilə BMÜTT-nin Baş Assambleyanın 22-ci sessiyası çərçivəsində Xüsusi Komitə (Ad Hoc) yaradılmışdır. Yeni yaradılmış Xüsusi Komitəyə (Ad Hoc) sədr Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini Nazim Səmədov seçilmişdir. Turizm Etikası üzrə Konvensiya BMÜTT-nin Baş Assambleyasının 22-ci sessiyasında təsdiq edilmişdir.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin rəhbərlik etdiyi nümayəndə heyəti 11-16 sentyabr tarixində Çinin Çenqdu şəhərində keçirilmiş Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatının (BMÜTT) Baş Assambleyasının 22-ci sessiyasında iştirak etmişdir. Qeyd olunan

tədbir çərçivəsində Azərbaycan BMÜTT-nin İcraiyyə Şurasının 2018-2021-ci illər üçün yenidən üzvü seçilmişdir.

Yaponiyanın Tokio şəhərində keçirilən "JATA-2017" Beynəlxalq Turizm Sərgisində GUAM təşkilatına üzv ölkələrin birgə iştirakı məqsədilə 15-16 iyun tarixində Ukraynanın Kiyev şəhərində adıçəkilən təşkilatın mədəniyyət və turizm üzrə İşçi qrupunun növbəti iclası keçirmişdir. Qeyd edilən tədbirdə ölkəmizi Mədəniyyət və Turizm Nazirliyinin nümayəndəsi təmsil etmişdir. İclasda "JATA 2017" Beynəlxalq Turizm Sərgisinə hazırlıq, həmçinin 2017-2020 illər üzrə GUAM-Yaponiya çoxtərəfli əməkdaşlıq əlaqələrinin genişlənməsi məsələləri müzakirə olunmuşdur.

"Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin Tədbirlər Planının icrası ilə bağlı məlumatlar aidiyyəti icraçılardan toplanaraq ümumiləşdirilmiş və hesabatlar Prezidentin Administrasiyasına təqdim olunmuşdur.

Dövr ərzində ulduz kateqoriyası üzrə 10 mehmanxana və mehmanxana tipli obyekt təsnifatdan keçmişdir. Hazırda ölkə ərazisində ulduz dərəcəsi qüvvədə olan 136 mehmanxana mövcuddur.

Yarımçıq tikilmiş və tikilməkdə olan mehmanxana və ona bərabər tutulan yerləşdirmə vasitələri, iaşə və əyləncə xidmətləri obyektləri barəsində məlumatların toplanması və mövcud məlumat bazasının yenilənməsi ilə bağlı regional mədəniyyət və turizm idarələrinə müvafiq məktublar göndərilmiş, daxil olan məlumatlar təhlil edilərək toplanılmışdır. Hazırda 42 yeni tikilmiş obyekt mövcuddur.

8 fevral tarixində Nazirliyin Turizm şöbəsində Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının nümayəndələri ilə görüş keçirilmiş və görüş zamanı gənclərə son dövrdə turizm sahəsində həyata keçirilən işlərlə bağlı məlumatlar verilmişdir.

Azərbaycan Dövlət Musiqili və Gənc Tamaşaçılar teatrlarında bir sıra turizm şirkətlərinin nümayəndələri ilə görüşlər təşkil olunmuşdur. Görüşlər zamanı turizm şirkətlərinin məhsullarına teatr müəssisələrinin əlavə edilməsi və bu istiqamətdə mütəmadi olaraq qarşılıqlı əməkdaşlığın qurulması tövsiyə olunmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 400s nömrəli, 2 iyun 2017-ci il tarixli Sərəncamın 2-ci bəndinin icrası ilə bağlı Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 13.5-ci maddəsinə uyğun olaraq yerləşmə vasitələri hesab edilən mehmanxana tipli obyektlərin və müvəqqəti yaşayış üçün nəzərdə tutulmuş digər tikinti obyektlərinin siyahısı hazırlanmış və razılaşdırmaq məqsədi ilə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim olunmuşdur.

Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirlikləri ilə birgə may ayının 2-də "Karyerada ilk addım" devizi altında turizm əmək yarmarkası təşkil olunmuşdur. Turizm əmək yarmarkasında 80-dən çox turizm şirkəti və mehmanxana 237 vakansiya ilə təmsil olunmuşdur.

Cari ilin 12 iyun tarixində Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatası və Mədəniyyət və Turizm Nazirliyinin birgə təşkilatçılığı ilə ölkəmizdə fəaliyyət göstərən 5 ulduzlu mehmanxanalarda valyuta məntəqələrinin fəaliyyətinin təşkili ilə bağlı görüş keçirilmişdir.

Bakı şəhərində mayın 12-dən 22-dək keçirilən 4-cü İslam Həmrəyliyi Oyunlarının keçirilməsi ilə əlaqədar ölkəmizə səfər edən turistlər arasında təbliğat işləri aparılmış, paytaxtımızda fəaliyyət göstərən əsas mehmanxanalarda qərargahlar qurulmuşdur.

20-26 mart tarixində Bakı şəhərində yerləşən Sabir bağında Milli Turizm Təbliğat Bürosu tərəfindən həyata keçirilən Novruz bayramı tədbirlərində ölkəmizin bütün regionlarını təmsil edən kollektivlər bölgələrin mədəni həyatını yüksək səviyyədə nümayiş etdirmişdir. Tədbirlərdə 8 gün ərzində 40-dan artıq musiqi, rəqs və folklor kollektivi çıxış etmişdir. Novruz festivalına gün ərzində 30-35 min, bəzi günlərdə isə 50-60 min nəfər insan qatılmışdır. Bayram tədbirləri turistlərin də böyük marağına səbəb olmuşdur.

İslam Həmrəyliyi Oyunları zamanı İslam ölkələrindən xeyli sayda turistin Bakıya gəlməsini nəzərə alaraq İran, İndoneziya, Malayziya, Misir və Türkiyənin ölkəmizdəki səfirlikləri ilə birlikdə

Bakıdakı Sabir bağında və Nizami küçəsində hər bir ölkənin ayrı-ayrılıqda mədəniyyət günləri təşkil edilmişdir. Tədbirlərdə çoxlu sayda turist iştirak etmişdir.

Bakı şəhərində yerləşən 16 mehmanxanada ("Excelsior", "Hilton", "Marioot", "Four Seasons", "Hyatt Regency", "Fairmont", "Dreamland", "Park İNN", "Holiday İNN", "İnturist", "Days Hotel", "Lake Palace", "Divan Palace", "Winterpark Hotel", "Ganjali Plaza") və Qəbələdə yerləşən "Tufandağ" hotelində müasir üslubda hazırlanmış məlumatlandırma lövhələri quraşdırılmışdır. Bu lövhələrdə həm məlumatlandırma flayerləri yerləşdirilir, həm də monitorun köməkliyi ilə Bakı şəhəri barədə hazırlanmış videolar nümayiş etdirilir. Ümumilikdə 20 belə məlumatlandırma stendinin hazırlanması başa çatdırılmışdır.

12 sentyabr tarixində İngiltərənin London şəhərində Çelsi-Qarabağ futbol komandaları arasında keçirilən oyun öncəsi şəhərin məşhur "London Eye" kimi tanınan ərazisində fleş-mob təşkil edilmişdir. Xeyli insanın toplandığı məkanda Qarabağ FK-nın üzərində "azerbaijan.travel" və "#visitBaku" yazılmış böyük forması açılmış və izləyicilərin böyük marağına səbəb olmuşdur. Tədbirin keçirilməsində məqsəd Qarabağ futbol komandasının uğurundan yararlanaraq ölkənin turizm imkanlarını təqdim edən veb səhifəni, dolayısı ilə ölkənin turizm imkanlarını tanıtmaq olmuşdur. Analoji aksiya Qarabağ klubunun Atletiko Madrid komandası ilə səfər qarşılaşmasında da Azərbaycan Respublikasının İspaniyadakı Səfirliyi ilə birgə həyata keçirilmişdir.

BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən davamlı və dayanıqlı dövlət siyasətində mədəniyyət və turizm sahələrində beynəlxalq əlaqələrin qurulması və inkişaf etdirilməsi əsas prioritet istiqamətlərdən hesab edilir. Ölkə rəhbərliyi tərəfindən dünya dövlətləri ilə müxtəlif sahələrdə qurulan əməkdaşlıq, qarşılıqlı siyasi-mədəni əlaqə və yaranan etimad, dostluq mühiti, multikultural və humanizm dəyərlərlərinə bağlılığın nəticəsi kimi qiymətləndirilməlidir. Bu mənada, hesabat dövründə nazirlik tərəfindən Azərbaycan Respublikasının mədəniyyət və turizm sahələrində xarici siyasət strategiyasına uyğun olaraq, beynəlxalq ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin qurulması, inkişaf etdirilməsi məqsədi ilə mühüm layihələr və tədbirlər həyata keçirilmişdir.

YUNESKO ilə əməkdaşlıq

Hesabat dövrünün mühüm hadisəsi 4-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu haqqında təbliğat işinin aparılması nazirliyin beynəlxalq əməkdaşlıq sahəsində əsas prioritet istiqamətini təşkil etmişdir.

Cari ilin 10 mart tarixində Parisdə YUNESKO-nun baş qərargahında 4-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu barədə məlumatlılığı gücləndirmək məqsədilə informasiya görüşü təşkil edilmişdir. Görüşü YUNESKO baş direktorunun xarici əlaqələr və ictimai informasiya üzrə köməkçisi Erik Falt açaraq, Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi altında keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun mədəniyyətlərarası dialoq platformasına çevrildiyini qeyd etmişdir.

Görkəmli Azərbaycan filosofu və şairi İmadəddin Nəsiminin vəfatının 600-cü ildönümünün 18 may tarixində "YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri proqramı" çərçivəsində qeyd edilməsi məqsədilə nazir müavini Sevda Məmmədəliyeva Fransanın Paris şəhərinə səfər etmişdir. Tədbir sərgi, təntənəli hissə və konsert-tamaşadan ibarət olmuşdur. Sərgidə dünyanın ölməz sənətkarları sırasında şərəfli yer tutan, poeziyamızda yeni, çox əlamətdar bir dövrün başlanğıcı olan, Azərbaycan dilini ədəbi-bədii dil səviyyəsinə yüksəldən qüdrətli sənətkar İmadəddin Nəsiminin zəngin irsini əks etdirən kitablar, rəsm əsərləri, miniatürlər və Azərbaycan Dövlət Arxivində qorunub saxlanılan əlyazmaların fotoreproduksiyaları təqdim edilmişdir. Tədbirin təntənəli hissəsində Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin Əfəndiyev, YUNESKO-nun baş direktoru vəzifəsinə namizəd, Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu, Azərbaycanın

YUNESKO yanında daimi nümayəndəsi, səfir Anar Kərimov, eləcə də YUNESKO baş direktorunun ictimai informasiya və xarici əlaqələr üzrə müavini Erik Falt çıxış etmişlər.

Tədbirin keçirildiyi 18 may tarixinin Laçın şəhərinin işğalının ildönümünə təsadüf etməsi ilə əlaqədar olaraq rəsmi çıxışlardan sonra gənc fleytaçı, Mstislav Rastropoviç adına 21 saylı musiqi məktəbinin şagirdi Ağarəhim Quliyevin ifasında Laçın əsəri səsləndirilmişdir. Tədbirdə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin mürəkkəb və faciəli taleyindən bəhs edən konsert-tamaşa çox böyük uğurla baş tutmuş və tamaşaçıların rəğbətini qazanmışdır.

İyulun 2-dən 12-dək Polşa Respublikasının Krakov şəhərində YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 41-ci sessiyası keçirilmişdir. 2015-ci ildən Komitəyə üzv seçilən Azərbaycan sessiyada nümayəndə heyəti ilə təmsil olunmuşdur. Sessiya zamanı çıxış edən Ümumdünya İrs Komitəsinin direktoru xanım Meçdild Rossler "Hərbi Münaqişə zamanı mədəni irsin qorunmasına dair Hərbi bələdçi"nin hazırlanması və nəşrinə göstərdiyi dəstək və maliyyə töhfəsinə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirmişdir. Həmçinin iclasda ölkəmizin təklifi ilə "Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin YUNESKO-nun Dünya İrsi siyahısına daxil edilməsi ilə bağlı təqdim edilmiş namizədlik sənədi müzakirə olunmuşdur.

Müzakirələr zamanı Komitənin üzv ölkələri məşvərətçi qurum olan İKOMOS-un mövqeyi ilə razılaşmayaraq Şəkinin müvafiq kriteriyalar üzrə ümumdünya irsi hesab edilməyə layiq olduğunu bildirmişlər. Nəticə etibarilə YUNESKO-nun Ümumdünya İrs Komitəsi tərəfindən "Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" adlı nominasiya faylı ilə bağlı "referral" qərarı verilmişdir. Bu isə o deməkdir ki, obyektiv olaraq abidənin müstəsna universal dəyəri Komitə tərəfindən bu mərhələdə tanınır, mühafizə və digər məsələlərin həlli üçün Azərbaycan tərəfinə vaxt verilir.

30 oktyabr-14 noyabr tarixində Parisdə keçirilən YUNESKO-nun Baş Konfransının 39-cu sessiyası çərçivəsində dahi bəstəkar Qara Qarayevin anadan olmasının və Bakı Dövlət Universitetinin 100 illik yubileylərinin qeyd olunması YUNESKO-nun 2018-2019-cu illər üzrə yubileylər siyahısına daxil edilmişdir. 31 oktyabr tarixində Azərbaycanın sənətkarlıq paytaxtı Şəki şəhəri YUNESKO-nun Baş Direktoru İrina Bokovanın qərarı ilə YUNESKO-nun "Yaradıcı şəhəri" elan edilmişdir. Məsələ ilə əlaqədar Nazirlik tərəfindən hazırlanmış namizədlik sənədi YUNESKO Katibliyinə təqdim edilmiş və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Xarici İşlər Nazirliyi və YUNESKO yanındakı Daimi Nümayəndəliyinin birgə səyləri nəticəsində Şəki şəhəri YUNESKO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə "sənətkarlıq və xalq yaradıcılığı" tematikası üzrə daxil edilmişdir.

8-10 noyabr tarixində YUNESKO-nun Baş qərargahında YUNESKO Baş Konfransının 39-cu sessiyası çərçivəsində qurumun Ümumdünya İrs Komitəsinin növbədənkənar sessiyası keçirilmişdir. Sessiyada komitəyə seçilmiş 12 yeni üzv ölkənin iştirakı ilə Azərbaycan növbəti il üçün komitənin vitse-prezidenti seçilmişdir.

Nazirliyin və ölkəmizin YUNESKO yanında Daimi Nümayəndəliyinin təşkilatçılığı, Gürcüstan və Almaniya nümayəndələrinin iştirakı ilə almanların Cənubi Qafqaza gəlişinin 200 illiyi münasibətilə YUNESKO-nun baş qərargahında təşkil olunmuş tədbirdə iştirak etmək üçün 23-25 noyabr tarixində nazir Əbülfəs Qarayevin rəhbərliyi ilə nümayəndə heyəti Fransa Respublikasının Paris şəhərində səfərdə olmuşdur.

Tədbir çərçivəsində 20 noyabr tarixində sərginin açılış mərasimində iştirak edən nazir müavini S.Məmmədəliyeva çıxışında almanların ölkəmizə gəlişinin tarixindən, alman mədəni irsinin qorunub saxlanmasından söz açaraq, Azərbaycan Prezidentinin Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında Sərəncamını xüsusi qeyd etmişdir. Eyni zamanda, 23 noyabr tarixində yubiley çərçivəsində baş tutan konsertdə xarici ölkələrin YUNESKO yanındakı səfirləri, tanınmış incəsənət və mədəniyyət xadimləri, ictimaiyyət nümayəndələri iştirak etmişlər. Tədbirdə Azərbaycanda alman məskənlərinin salınmasının 200 illiyi münasibətilə Prezident İlham Əliyev tərəfindən imzalanmış Sərəncama müvafiq olaraq hazırlanmış tədbirlər planı və Azərbaycanda mövcud olmuş tarixi alman məskənləri, onların qorunub saxlanması üçün görülən işlər, həmin ərazilərdəki abidələrin

ölkəmizin turizm imkanlarına töhfəsi barədə nazir Əbülfəs Qarayev tərəfindən geniş məlumat verilmiş və sözügedən tədbirin Azərbaycanda hökm sürən multikulturalizm və dini tolerantlığın bir nümunəsi olduğu qeyd edilmişdir.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin Parisə səfəri çərçivəsində Fransanın mədəniyyət naziri Fransuaz Nissen ilə görüşdə ölkələrimiz arasında mədəniyyət sahəsində əməkdaşlıq məsələləri ilə yanaşı ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi rəsmi Parisin Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarının həm işğalçı ölkə, həm də separatçı rejim tərəfindən Fransa ərazisində təbliğinin qarşısının alınması üçün ciddi addımların atmasının vacibliyi diqqətə çatdırılmışdır.

YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 12-ci sessiyasında iştirak etmək məqsədilə nazirliyin nümayəndə heyəti 3-9 dekabr tarixində Cənubi Koreyanın Jeju adasında səfər etmişdir. Sessiyada ölkələrin təqdim etdiyi qeyri-maddi mədəni irs nümunələri-namizədlik fayllarının YUNESKO-nun "Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına" və "Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına" daxil edilməsinə dair qərarlar qəbul edilmişdir. Ölkələr tərəfindən bu il təqdim edilən ümumi olaraq 41 nominasiya faylının 39-na dair müsbət, 1 nominasiya faylına dair mənfi qərar qəbul edilmiş, 1 ölkə isə faylını geri götürmüşdür.

Azərbaycanın təqdim etdiyi "Dolma hazırlama və paylaşma ənənəsi" milli faylı və İran İslam Respublikası ilə birgə təqdim etdiyi "Kamança hazırlanması və ifaçılıq sənəti" çoxmillətli faylı ilkin etapda Qiymətləndirici Orqan tərəfindən bütün kriteriyalara dair müsbət qiymətləndirilmişdir.

Qeyd edək ki, Azərbaycan həm "Dolma" faylının, həm də "Kamança" faylının mətnində ölkəmizin bütün əraziləri, eləcə də Qarabağ və onun tərkibində olan bütün şəhərlər daxil olmaqla bu mədəniyyət nümunələrinin daşıyıcısı olduğu qeyd edilmişdir. Əgər əvvəlki illərdəki fayllarda ermənilər Qarabağ məsələsini qaldırmaqdan çəkinirdilərsə, bu dəfə Qarabağla bağlı bütün məlumatların fayllardan çıxarılmasını tələb etmişlər. Lakin Komitə üzvlərinin onların təklifinə qarşı olduğunu görərək yalnız qəbul ediləcək qərarlara bir neçə maddənin əlavə edilməsini tələb etmişlər. Bu məsələnin müzakirəsində Komitə üzvü olan bir sıra ölkələr vasitəçilik missiyasını öz üzərinə götürmüşdür.

Komitə üzvü olan Türkiyənin dəstəyi ilə prinsipial mövqeyimizdən çəkilməyəcəyimizi və ölkəmizlə bağlı qərarlara nə təklif olunursa, eyni təklifin Ermənistan faylına da tətbiq edilməli olduğu diqqətə çatdırmışdır. Ermənistan tərəfi Komitənin bizim təklifimizi dəstəklədiyini görüb, təklif etdikləri bütün düzəlişləri geri götürmüş və sənədlər olduğu kimi müzakirəyə təqdim olunmuşdur.

Ermənistanın sonuncu provokativ planı isə Komitə üzvlüyündən istifadə edərək Azərbaycanın "Dolma" faylının müzakirəsinin növbəti günlərə təxirə salınmasına nail olmaq olmuşdur. Bu həm faylın qəbul edilməsi prosesinin uzadılması, həm də fayla dair yeni müzakirələrin açılması anlamına gəlmişdir. Azərbaycan nümayəndə heyəti bu planın üstünü açaraq digər Komitə üzvlərinin vasitəçiliyi ilə bildirilmişdir ki, konsensusa yalnız o halda razılıq verilə bilər ki, hər iki ölkənin elementi bir zaman çərçivəsində müzakirə edilsin. Özünün bu təxribatçı addımının da qarşısının alındığını başa düşən qarşı tərəf faylların ilkin mətndə və ilkin zaman çərçivəsində müzakirə olunmasına razılıq verilmişdir.

"Dolma" faylı qəbul ediləndən sonra, sözün Azərbaycana verilməsinə baxmayaraq, Komitə üzvlüyündən istifadə edərək Ermənistan nümayəndəsi söz alıb yenə də provokativ addıma əl atmışdır. O, faylda göstərilən məlumatları siyasiləşdirməyə, münaqişəyə dini don geyindirməyə, zavallı erməni obrazı yaratmağa çalışmışdır. Azərbaycan tərəfindən çıxış edən ölkəmizin YUNESKO yanında Daimi Nümayəndəsi, səfir Anar Kərimov Qiymətləndirici Orqana və Komitəyə müsbət nəticəyə görə təşəkkürünü bildirmiş və çıxışını mədəni irs nümunələrimizin əhəmiyyəti, Ermənistanın Komitə üzvü kimi bacarıqsız və səriştəsizliyi və Azərbaycan torpaqlarının işğalının nəticələri ətrafında qurmuşdur. Səfirin çıxışı zamanı Ermənistan nümayəndəsi dözməyərək icazəsiz müdaxilə etməyə çalışmış, nəticə etibarilə

bütün iştirakçılar qarşısında erməni diplomatına iclasın sədri tərəfindən ciddi irad tutulmuş və bu cür davranış tərzinə son qoyulması tələb olunmuşdur.

Müzakirələr zamanı əldə olunan konsensusun Ermənistan nümayəndəsinin pozduğu səbəbindən bu ölkəyə etibar edilməməsinin vacibliyi Komitə üzvlərinə məlum olmuşdur. Müxtəlif ölkələrin, hətta ayrı-ayrılıqda və beynəlxalq səviyyədə özlərini Ermənistanla yaxın hesab edən dövlətlərin nümayəndələri Azərbaycan tərəfinə yaxınlaşaraq dəstəklərini ifadə etmişlər.

Xüsusi ilə Komitə üzvü olan Türkiyənin dəstəyini vurğulamaq lazımdır. Belə ki, müzakirələr zamanı Türkiyə ölkəmizin maraqlarını əks etdirən mövqedən çıxış etmiş, nəticə əldə olunandan sonra isə söz alaraq Ermənistanın provokativ addımlarını Komitə qarşısında pisləmişdir.

Beləliklə, ölkəmizin Dolma hazırlama və paylaşma ənənəsi və Kamança hazırlanması və ifaçılıq sənəti YUNESKO-nun Qeyri-maddi mədəni İrs üzrə Reprezentativ siyahısına əlavə olunmuşdur.

Ermənistanın "Köçəri ənənəvi qrup rəqsi" nominasiya faylına dair qeyd edək ki, 2015 ildə Namibiyada keçirilən sessiyada həmin fayl 5 kriteriyaya dair mənfi rəy alaraq siyahıya əlavə olunmamışdır. Bu il isə Ermənistan həm Qiymətləndirici Orqanın, həm də Azərbaycan tərəfinin iradlarına uyğun olaraq faylı dəyişmişdir. Belə ki, faylda "Köçəri" rəqsinin Ermənistandan daha geniş coğrafiyada, qonşu ölkələrdə mövcudluğu qeyd olunmuşdur. Hazırda Komitənin tərkibində olan Türkiyənin mandatı 2018-ci, Ermənistanın mandatı isə 2020-cil ilə qədər davam edəcəkdir. 2018-ci ildə yeni boşalmış yerlərə seçkilər baş tutacaqdır. 2018-2020-ci illər ərzində Türkiyənin Komitədə olmaması işğalçı ölkəyə Azərbaycana qarşı fəaliyyət aparmaq üçün geniş imkan yarada biləcəyi şübhə doğurmur. Bu baxımdan Komitədə mövqeyimizin güclü olması üçün ölkəmizin bu yerlərdən birinə seçilməsi vacibdir və bu məqsədlə aktiv fəaliyyətin təşkil olunması zəruridir. Avropa regionu üzrə iki yerə Azərbaycan da daxil olmaqla altı namizəd ölkə vardır və bu yerlər üzrə güclü mübarizənin aparılması gözlənilir.

BMÜTT və turizm sahəsində beynəlxalq əməkdaşlıq

BMT tərəfindən elan edilmiş "İnkişaf naminə Davamlı Turizm Beynəlxalq ili"nin açılış mərasimində və BMT-nin Ümumdünya Turizm Təşkilatının (BMÜTT) ST-EP Fondunun iclasında iştirak etmək məqsədilə nazir Əbülfəs Qarayev 17-19 yanvar tarixində İspaniya Krallığının Madrid şəhərində səfərdə olmuşdur.

Səfər çərçivəsində ilk olaraq 17 yanvar tarixində BMT-nin Ümumdünya Turizm Təşkilatının baş katibi Taleb Rifai ilə görüş keçirilmişdir. Görüşdə təşkilat ilə Azərbaycan arasında əməkdaşlıq, davamlı turizm ili çərçivəsində təşkil edilmiş tədbirlər, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və Azərbaycanın sədrliyi ilə BMÜTT-nin İcraiyyə Şurasının növbəti iclasının keçirilməsi məsələləri müzakirə olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin turizm sahəsi ilə bağlı imzaladığı vacib sərəncamlar, Azərbaycan Respublikasının Turizm Şurasının yaradılması, turizm sahəsinin inkişafı ilə bağlı strateji yol xəritəsinin təsdiq edilməsi barədə baş katibə məlumat verilərək, bu sahənin ölkə rəhbəri tərəfindən daima diqqətdə saxlanıldığını bildirilmişdir. 2016-cı ildə ölkəmizə gələn turistlərin sayında 11% artım olduğu qeyd olunmuşdur. Görüşdə təşkilat ilə Azərbaycan arasında işçi qaydada intensiv təmasların davam etdirilməsi qərara alınmışdır.

Daha sonra BMÜTT-ün ST-EP Fondunun Direktorlarının 14-cü görüşündə və Gürcüstan Baş nazirinin şərəfinə verilən qəbulda, həmçinin İspaniya kralı VI Filip tərəfindən Davamlı Turizm Beynəlxalq İlinin şərəfinə verilmiş ziyafətdə iştirak edilmişdir. Qəbul zamanı gürcü baş nazirlə iki ölkə arasında turizm fəaliyyətinin əlaqələndirilməsi və müvafiq birgə marşrutların yaradılması barədə qısa fikir mübadiləsi aparılmışdır. Kral VI Filip tərəfindən verilmiş ziyafət zamanı kral ilə görüşərək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin salamları ona çatdırılmışdır.

Birləşmiş Millətlər Təşkilatının 70-ci Baş Assambleyası tərəfindən 2017-ci il "İnkişaf Naminə Davamlı Turizm Beynəlxalq İli" elan edilmişdir. Bununla əlaqədar 18 yanvar tarixində

Madrid şəhərində Davamlı turizm ilinin rəsmi açılış mərasimi keçirilmişdir. 65 ölkədən nazir və digər yüksək səviyyəli rəsmilərin iştirak etdiyi mərasimdə baş katib Taleb Rifai, Gürcüstanın baş naziri, Hondurasın vitse-prezidenti, İspaniyanın xarici işlər naziri çıxış etmişlər.

Tədbir çərçivəsində FİTUR beynəlxalq turizm sərgisi nazirliyin nümayəndə heyəti tərəfindən ziyarət edilmiş, Özbəkistan və bir sıra digər ölkələrlə ikitərəfli müzakirələr aparılmışdır. Görüşlərdə turizm sahəsində səmərəli əməkdaşlığın qurulması müzakirə edilmişdir.

Sərgi çərçivəsində Ermənistan Azərbaycan torpaqlarını işğal etdiyini və bu təcavüzün hələ də davam etdiyini bir daha göstərərək, yenidən təxribata əl atmış, Ermənistana aid olan təqdimat stendində Qarabağla bağlı şəkillər və materiallar yerləşdirmişdir. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən həm FİTUR rəhbərliyinə, həm də Ümumdünya Turizm Təşkilatına hadisə baş verən gün müvafiq etiraz məktubları göndərilmiş və həmin məktublarda həm BMT tərəfindən qəbul edilmiş Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən sənədlərə, eləcə də 2015-ci ildə BMÜTT İcraiyyə Şurasının 100-cü iclasında "Münaqişə zonalarının turizm məqsədilə qanunsuz təbliğinə dair" qərarına bir daha istinad edilmişdir. Məsələ ilə bağlı BMTT-ün baş katibi Taleb Rifai ilə müzakirə aparılmış və Ermənistan tərəfinin beynəlxalq hüquqa zidd olan bu hərəkətlərinin həm təşkilatın fəaliyyətinə və həm də qəbul etdiyi qərarlara hörmətsizliyi diqqətə çatdırılmışdır. Baş katib T.Rifai Azərbaycan tərəfinin narahatlığını böyük həssaslıqla qəbul etdiyini və məsələ ilə bağlı aidiyyəti tərəflərlə danışıqlar aparacağını bildirmişdir. Daha sonra BMÜTT tərəfindən nazirliyə məlumat verilmişdir ki, məsələ ilə bağlı müvafiq səviyyələrdə müzakirə aparılmış və lazımi ölçülər götürüləcəkdir.

Hadisənin gedişatı göstərdi ki, Ermənistan tərəfinin belə beynəlxalq tədbirlərdə həyata keçirdikləri təxribatlar nəinki onların xeyrinə nəticələnir, əksinə Azərbaycan Respublikası Prezidentinin uğurlu xarici siyasəti nəticəsində əldə edilmiş beynəlxalq nüfuz sayəsində belə təxribatların qarşısı layiqli şəkildə alınır və bu təxribatların təşkil olunduğu məkanlar düşmənin təcavüzkar siyasətini və işğalçı fəaliyyətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması baxımından bizim üçün əlavə beynəlxalq platformaya çevrilir.

Hesabat dövrünün 7-9 mart tarixində İTB Berlin 2017 Beynəlxalq Turizm Sərgisində və sərgi çərçivəsində keçiriləcək İpək Yolu ölkələrinin Turizm Nazirlərinin 7-ci görüşündə iştirak etmək məqsədilə mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Almaniyanın Berlin şəhərində səfərdə olmuşdur.

7 mart tarixində Almaniya Bundestaqının deputatı, Bundestaqın Cənubi Qafqaz Dostluq Qrupunun sədri xanım KarinŞtrens ilə Əbülfəs Qarayev arasında keçirilən görüşdə Azərbaycan-Almaniya əlaqələri, Cənubi Qafqazda alman məskənlərinin salınmasının 200 illik yubileyinin qeyd edilməsi kimi məsələlər barədə ətraflı müzakirələr aparılmışdır. Dövlət başçısının dəstəyi ilə ölkəmizin dünyada mədəniyyətlərarası dialoq məkanı və tolerant ölkə olması vurğulanaraq, xanım parlamentari ölkəmizdə keçiriləcək qlobal əhəmiyyətli tədbirlər barədə məlumatlandırılmışdır.

Səfər çərçivəsində İTB Berlin Beynəlxalq Turizm Sərgisinin rəhbəri David Rüts ilə keçirilən görüşdə Azərbaycanın sərgidə iştirakının əhəmiyyəti, son dövrlərdə ölkəmizə turist axınının səbəbləri, ölkə rəhbərinin turizm sahəsində islahatları və onların müsbət nəticələri barədə fikir mübadiləsi aparılmışdır. Ermənistan tərəfinə Azərbaycanın işğal olunmuş ərazilərinin sərgidə təbliğinin yolverilməz olması barədə ciddi xəbərdarlıq edilməsi və bununla bağlı məktub göndərilməsinə görə David Rütsə minnətdarlıq bildirilmişdir. Azərbaycanın əvvəlki illərdə İTB-nin tərəfdaşı olmasını xatırladaraq bu tərəfdaşlığın uğurla həyata keçirildiyi və növbəti illərdə də davam etdirilməsinin arzu olunduğu qeyd edilmişdir.

Eyni zamanda, səfər çərçivəsində Birləşmiş Millətlərin Ümumdünya Turizm Təşkilatının (BMÜTT) baş katibi Taleb Rifai ilə Əbülfəs Qarayev arasında görüş keçirilmişdir. Görüşdə Azərbaycan ilə təşkilat arasında əlaqələrin inkişafı və BMÜTT-nin İcraiyyə Şurasına ölkəmizin sədrlik etməsi, habelə Bakıda keçirilməsi nəzərdə tutulan IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ətrafında da geniş müzakirələr aparılmışdır.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev 8 mart tarixində BMÜTT-nin İpək Yolu Nazirlərinin 7-ci Görüşündə iştirak edərək, Azərbaycanın İpək Yolu ilə tarixi bağlılığı və bu yolun tarixən malik olduğu iqtisadi və mədəni əhəmiyyətinə toxunaraq son dövrlərdə bu yolun bir turizm məhsulu kimi dünya səyahət bazarında əhəmiyyətinin artdığını diqqətə çatdırmış və İpək Yolunun təkcə coğrafi anlayış deyil, eyni zamanda mədəniyyətləri birləşdirən bir yol olduğunu bildirmişdir. Eyni zamanda, tədbirdə çıxış edən Almaniya Xarici İşlər Nazirliyinin xarici elm, təhsil, tədqiqat və mədəniyyət siyasəti üzrə xüsusi nümayəndəsi, Almaniya Federativ Respublikasının ölkəmizdəki keçmiş səfiri Haydrun Tempel iki ölkə arasında diplomatik münasibətlərin 25 illiyinin və Azərbaycanda alman məskənlərinin salınmasının 200 illik yubileyinin Azərbaycan-Almaniya münasibətlərinin daha da inkişaf etməsi üçün stimul olduğunu bildirilmişdir.

10-13 may tarixində Birləşmiş Millətlərin Ümumdünya Turizm Təşkilatının (BMÜTT) İcraiyyə Şurasının 105-ci sessiyasında iştirak etmək məqsədilə mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin rəhbərliyi ilə nümayəndə heyəti İspaniyanın Madrid şəhərində səfərdə olmuşdur. Məlum olduğu kimi 2016-cı ildə Azərbaycan BMÜTT-nin İcraiyyə Şurasının Misirin Luksor şəhərində keçirilən 104-cü sessiyasında yekdilliklə Şuranın sədri seçilmişdir.

Azərbaycan və BMÜTT-nin 2001-ci ildən etibarən davam edən yaxın əməkdaşlıq çərçivəsində ölkəmizdə turizm sənayesinin inkişafı naminə göstərdiyi dəstək və xidmətlərinə görə BMÜTT-nin baş katibi Taleb Rifai Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən “Dostluq” ordeni ilə təltif olunmuşdur. Orden Əbülfəs Qarayev tərəfindən BMÜTT-nin baş katibi Taleb Rifaiyə təqdim edilmişdir. T.Rifai öz növbəsində bu dəyərli mükafata görə Azərbaycan Respublikası Prezidentinə öz minnətdarlığını bildirmişdir.

Tədbirin ikinci günü BMÜTT-nin assosiativ üzvlüyünə yeni namizədlərin seçilməsi ilə bağlı müvafiq hesabatın nəticələri açıqlanmışdır. 2016-cı ilin noyabr ayında BMÜTT-nin İcraiyyə Şurasının Misir Ərəb Respublikasının Luksor şəhərində keçirilmiş 104-cü sessiyası çərçivəsində Ermənistan tərəfindən “Artsax” Turizm İnkişaf Təşkilatının sözügedən təşkilatın assosiativ üzvlüyünə daxil olması məqsədilə müvafiq müraciəti təqdim edilmişdir. Bu addım erməni tərəfinin Dağlıq Qarabağa təşkil edilən turların Qarabağ adına alternativ ad olaraq seçilmiş “Artsax” adı altında beynəlxalq müstəvidə legitimləşdirilməsinə dair növbəti cəhd kimi qiymətləndirilə bilər. Bu baxımdan, sözügedən şirkətin BMÜTT-nin assosiativ üzvlüyünə qoşulmasının qarşını almaq məqsədilə dövr ərzində Mədəniyyət və Turizm Nazirliyi ilə BMÜTT arasında bir sıra qapalı görüşlər keçirilmiş və bu qeyri-leqal prosesin qarşısının alınması məqsədilə danışıqlar aparılmışdır. Nəticə etibarilə, BMÜTT-nin Assosiativ üzvlüyə dair müraciətlərin baxılması üzrə Komitəsi BMT Baş Assambleyasının Ermənistanın işğalçılığını bir daha təsdiqləyən 2006 və 2008-ci illərdəki qətnamələrini və BMÜTT İcraiyyə Şurasının münaqişə zonalarının təbliğinin qarşısının alınması ilə bağlı qərarını əsas tutaraq “Artsax” turizm şirkətinin assosiativ üzvlüyə müraciətinə mənfi rəyi özündə əks etdirən müvafiq hesabatı Şuraya təqdim etmişdir. Ermənistan nümayəndəsinin etirazına baxmayaraq həmin hesabat müvafiq qərarla təsdiqlənmişdir.

Hesabat dövrünün 10-17 sentyabr tarixində Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatının (BMÜTT) 22-ci Baş Assambleyasında və İcraiyyə Şurasının iclaslarında iştirak etmək məqsədilə mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin rəhbərliyi ilə nümayəndə heyəti Çin Xalq Respublikasının Çenqdu şəhərində səfərdə olmuşdur. Üzv ölkələrin mindən çox nümayəndəsini əhatə edən tədbirdə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə turizmin töhfəsini necə artırmaq məsələləri müzakirə olunmuş və təşkilatın 2018-2019-cu illərdə fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir.

11 sentyabr tarixində Azərbaycan nümayəndə heyəti BMÜTT Avropa Regional Komissiyasının iclasında Azərbaycanın BMÜTT-nin İcraiyyə Şurasında üzvlük müddətinin başa çatmasını nəzərə alaraq, ölkəmiz öz namizədliyini növbəti dövr üçün (2017-2021) yenidən təqdim etmişdir. Nazir Əbülfəs Qarayev Komissiyanın iclasında son illərdə ölkəmizdə Azərbaycan Respublikası Prezidentinin dəstəyi ilə turizm sahəsində aparılmış islahatlar,

Azərbaycanın İcraiyyə Şurasının fəaliyyətinə töhfələri və bunun sayəsində 2017-ci ildə şuraya sədrlik etməsi barədə çıxış etmişdir. Daha sonra BMÜTT-nin 22-ci Baş Assambleyası çərçivəsində keçirilmiş Avropa Komissiyasının iclasında seçkilər baş tutmuşdur. BMÜTT-nin İcraiyyə Şurasına Avropa regionundan 5 ölkə - Azərbaycan, Rumıniya, Rusiya Federasiyası, Yunanıstan və Litva üzv seçilmiş və Baş Assambleyanın qərarı ilə üzvlük təsdiqlənmişdir. Bununla əlaqədar olaraq, nazir sessiya çərçivəsində Azərbaycan hökuməti adından çıxış edərək, ölkəmizin uğurları, həyata keçirilən layihələr və Azərbaycan-BMÜTT əməkdaşlığı barədə üzv ölkələrə geniş məlumat verilmişdir.

13 sentyabr tarixində Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatının 22-ci Baş Assambleyasının açılış mərasimi və "Turizm və dayanıqlı inkişaf məqsədləri" mövzusunda yüksək səviyyəli Nazirlər Forumu keçirilmişdir. CNN İnternational telekanalının müxbiri Riçard Kuestin moderatorluğu ilə keçirilən yüksək səviyyəli Nazirlər Forumunda BMÜTT-in baş katibi Taleb Rifai, Azərbaycan, Misir, Mərakeş, Kolumbiya, Gürcüstan, Filippin, İsveçrənin turizm sahəsinə cavabdeh olan nazir və komitə rəhbərləri, Turizm Etikası üzrə Dünya komitəsinin rəhbəri çıxış etmişlər.

Birləşmiş Millətlərin Ümumdünya Turizm Təşkilatı (BMÜTT) və YUNESKO-nun birgə təşkilatçılığı ilə 10-13 dekabr tarixində keçirilən İkinci Ümumdünya Turizm və Mədəniyyət Konfransında iştirak etmək məqsədilə mədəniyyət və turizm nazirinin müavini Nazim Səmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Oman Sultanlığının paytaxtı Maskat şəhərində səfərdə olmuşdur.

Rəsmi açılış zamanı YUNESKO Baş direktorunun mədəniyyət üzrə müavini Françesko Bandarin, BMÜTT-nin Baş katibi Taleb Rifai, İslandiyanın Birinci xanımı və BMÜTT-nin xüsusi səfiri Eliza Reyd, Petra Milli İnam Fondunun prezidenti, İordaniya şahzadəsi Dana Firas çıxış etmişlər. Açılış sessiyasından sonra konfrans öz işinə Nazirlərin Dialoqu ilə davam etmişdir. Sessiyada Nazim Səmədov Azərbaycanın turizm sahəsində apardığı islahatlar, bir sıra ölkələr, xüsusən Körfəz ölkələri üçün sadələşdirilmiş vizalar haqda ətraflı məlumat vermişdir. O, ölkəmizdə ixtisaslaşdırılmış turizm üzrə strateji yol xəritəsinin qəbul edildiyini və qeyri-neft sektorunda əsas prioritetlərdən biri kimi turizmin inkişafına dövlətin xüsusi diqqət yetirdiyini nəzərə çatdırmışdır. Eyni zamanda, Azərbaycanın Beynəlxalq Sərgilər Bürosunun "EXPO-2025" tədbirinə ev sahibliyi etmək üçün namizədliyi barədə məlumat verilmişdir.

1-2 noyabr tarixində Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Ankara şəhərində keçirilən 3-cü Milli Turizm Sammitində mədəniyyət və turizm naziri Əbülfəs Qarayev iştirak etmişdir. Səfər çərçivəsində Türkiyənin mədəniyyət və turizm naziri Numan Kurtulmuş və digər yüksək səviyyəli şəxslərlə ikitərəfli görüşlər keçirilmişdir. Eyni zamanda, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev 2 noyabr tarixində Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyi münasibətilə TÜRKSOY təşkilatı, Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi və Türkiyə Milli Kitabxanası tərəfindən keçirilən beynəlxalq elmi konfransda və Azərbaycan Milli Kitabxanasının fonduna məxsus olan şairin əsərlərindən ibarət kitab sərgisində iştirak etmişdir.

İSESKO ilə əməkdaşlıq

Hesabat dövrünün 10-11 iyul tarixində Mərakeşin Rabat şəhərində yerləşən İSESKO-nun baş qərargahında İSESKO, ALECSO, ABEGS təşkilatlarının Milli Komissiyalarının koordinasiya görüşü keçirilmiş və 12-13 iyul tarixində isə həmin təşkilatların 4-cü beynəlxalq forumunda ölkəmiz təmsil olunmuşdur. İclasların keçirilməsində məqsəd təşkilatlara üzv olan ölkələr arasında əlaqələrin və koordinasiyanın gücləndirilməsi və hər üç təşkilatın fəaliyyətinin YUNESKO-nun 2018-2021 Proqramı ilə uzlaşdırılmasından ibarət olmuşdur.

Tədbirin açılış mərasimində çıxış edən İSESKO-nun baş direktoru Ə.O.Əl-Tüveycri hər üç təşkilatın və üzv dövlətlərin dünyanın digər beynəlxalq qurumlarında vahid mövqedən çıxış etmələrini, müsəlman dünyasının maraqlarının müdafiə olunmasını, islam irsinin dünyanın müxtəlif bölgələrində dağıdılmasının qarşısının alınması üçün birgə mübarizə aparılmasının

vacibliyini vurğulamışdır. Cənab Tüveycri Qarabağda baş verənlərə səssiz qalmamaları üçün müsəlman ölkələrinə çağırış etmişdir.

Daha sonra YUNESKO-nun 39-cu Baş Konfransında təsdiq olunması gözlənilən "YUNESKO-nun 2018-2021 illər üçün Proqramı", həmçinin "Ərəb və Avropa milli komissiyalarının ekstremizmin qarşısının alınması üçün birgə mexanizm və layihələrin hazırlanması ilə bağlı" işçi sessiyalar keçirilmişdir. Sessiyalarda bu mövzularda İSESKO, ALECSO və ABEGS təşkilatlarının layihələri və fəaliyyət planları təqdim edilmişdir.

İclasda çıxış edən Nazirliyin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Vasif Eyvazzadə 4-6 may tarixində Bakıda Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin himayəsi, YUNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, İSESKO və Avropa Şurasının tərəfdaşlığı ilə keçirilmiş 4-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və onun çərçivəsində həyata keçirilmiş layihə və tədbirlər, xüsusilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədrliyi ilə keçirilmiş Beynəlxalq Təşkilatların 1-ci Yüksək Səviyyəli Görüşü, habelə Azərbaycanın beynəlxalq qurumlar arasında əməkdaşlığın inkişafında təcrübəsi barədə iştirakçılara məlumat vermişdir.

3-4 oktyabr tarixində Rabat şəhərində keçirilmiş İSESKO-nun İcraiyyə Şurasının 38-ci sessiyasında Azərbaycan təmsil olunmuşdur. Sessiyanın açılış mərasimində İSESKO-nun baş direktoru Əbdüləziz Osman Əl-Tüveycri çıxış edərək son bir ildə təşkilat tərəfindən həyata keçirilən layihələr, müsəlman ölkələri arasında əməkdaşlıq, islamafobia və terrorizmə qarşı mübarizə fəaliyyətinin vacibliyini qeyd etmişdir. Cənab Əl-Tüveycri müsəlman ölkələrinə qarşı ədalətsizliyi vurğulayaraq Azərbaycan torpaqlarının işğal altında olduğunu, Dağlıq Qarabağın Ermənistan tərəfindən işğal edildiyini, bu kimi digər münaqişələrin həll edilməsinin zəruriliyini bəyan etmişdir.

Səfər çərçivəsində İSESKO-nun baş direktoru Əbdüləziz Osman Əl-Tüveycri ilə görüşdə İSESKO-Azərbaycan əməkdaşlığı barədə fikir mübadiləsi aparılmış və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse prezidenti Mehriban xanım Əliyevanın bu əlaqələrin inkişafında müstəsna rolu və dəstəyi xüsusilə qeyd edilmişdir. Həmçinin, Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı 2018 tədbirləri, Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızda dağıdılmış İslam abidələri, bu məqsədlə yaradılan xüsusi İşçi qrupun fəaliyyəti barədə ətraflı məlumat verilərək, növbəti il həm də "Bakı Prosesi"nin 10 illik yubileyinin qeyd ediləcəyi, İSESKO-nun bir tərəfdaş kimi bu hadisənin beynəlxalq miqyasda təbliğində fəallığının vacibliyi diqqətə çatdırılmışdır.

İSESKO-ya üzv ölkələrin Mədəniyyət Nazirlərinin 10-cu konfransında iştirak etmək məqsədilə 20-23 noyabr tarixində mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin rəhbərliyi ilə nümayəndə heyəti Sudan Respublikasının Xartum şəhərində səfərdə olmuşdur. Məlum olduğu kimi 2015-ci ilin 23-25 noyabr tarixində Bakı şəhərində baş tutmuş İSESKO İcraiyyə Şurasının iclası və 12-ci Baş Konfransı zamanı Azərbaycan növbəti üç il müddətinə Baş Konfransın sədri seçilmişdir.

Konfransda İSESKO-nun baş direktorunun təşkilatın son iki il ərzindəki fəaliyyətinə dair hesabatları dinlənilmişdir. Müzakirələr zamanı Azərbaycan tərəfinin təklifi ilə qəbul edilmiş "Dünyada İslam irsinin qorunmasına dair Bəyannamə"yə Ermənistan tərəfindən işğal edilmiş Qarabağ bölgəsində mədəni irsin vəziyyətinin araşdırılması məsələsi daxil edilmişdir.

Tədbirdə son iki ildə ölkəmizin uğurları, İslam dünyası ilə əməkdaşlığı, Azərbaycan respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən elan edilmiş "İslam həmrəyliyi ili" çərçivəsində təşkil olunan tədbirlər, xüsusilə İslam Həmrəyliyi Oyunları, 4-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Şəkinin YUNESKO tərəfindən Yaradıcı Şəhər elan olunmasının əhəmiyyəti, 2018-ci ildə Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı kimi qeyd ediləcəyi barədə məlumat verilmişdir. Həmçinin, müsəlman ölkələri Dünya "EXPO 2025" sərgisinə ev sahibliyi etməyə namizəd olan Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərinin namizədliyini dəstəkləməyə çağırılmışdır.

Bakı Biznes Mərkəzində İSESKO Baş direktoru Əbdüləziz Osman Əltüveycrinin iştirakı ilə İSESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının iclası cari ilin 22 dekabr tarixində baş tutmuşdur. İclasda İSESKO - Azərbaycan əməkdaşlığı, Milli Komissiyanın fəaliyyəti və Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar təsdiqlənmiş tədbirlər planı, həmçinin bu istiqamətdə görülən işlərə dair təqdimat keçirilmişdir. Məsələ ilə əlaqədar İSESKO üzrə Azərbaycan Milli Komissiyasının yaradılmış veb-saytı təqdim edilmişdir.

Bakı Prosesi, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu

Hesabat dövrünün 4-6 may tarixində Bakı şəhərində 4-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və onun çərçivəsində təşkili nəzərdə tutulan Beynəlxalq Təşkilatların Yüksək səviyyəli görüşü ilə bağlı müzakirələr aparmaq üçün 3-5 aprel tarixində mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində səfərdə olmuşdur. Səfər çərçivəsində ilk olaraq BMT Baş katibinin kabinet rəhbəri Maria Luiza Ribeiro Viotti, daha sonra BMT Baş katibinin siyasi məsələlər üzrə müavini Jefri Feltman, BMT-nin ali orqanlarından biri olan İqtisadi və Sosial Şura - EKOSOK-un prezidenti Frederik Makamure Şava, BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini Vu Honqbo, BMT Baş katibinin və BMT-nin İnkişaf Proqramının (BMTİP) administratorunun müavini Cihan Sultanoğlu, BMT Baş katibinin İnformasiya məsələləri üzrə müavini vəzifəsini icra edən Mahir Nasir, həmçinin BMT Sivilizasiyalar Alyansının rəsmiləri ilə görüşlər keçirilmişdir. Görüşlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü olan Bakı prosesi və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu haqqında ətraflı məlumat verilməklə yanaşı Azərbaycanın dünya mədəniyyətinə töhfəsi, dialoq və əməkdaşlıq layihələri, Bakı prosesi və Foruma hazırlıq məsələləri müzakirə edilmiş və bir sıra razılaşmalar əldə olunmuşdur.

Hesabat dövrünün ən mühüm hadisəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin himayəsi və iştirakı ilə 4-6 may tarixində Bakı şəhərində "Mədəniyyətlərarası dialoqun inkişafı: İnsan təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanlar" mövzusunda YUNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, BMT-nin Ümumdünya Turizm Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası, İSESKO-nun tərəfdaşlığı ilə 4-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsidir.

Foruma müxtəlif ölkələrdən və nüfuzlu beynəlxalq təşkilatlardan ən yüksək səviyyədə böyük maraq göstərilmişdir. Belə ki, Malinin Prezidenti İbrahim Boubakar Keita, Bolqarıstanın vitse-prezidenti İliana Malinova İotova, Efiopiya, Cibuti, Mali, Ruanda kimi ölkələrin birinci xanımları, YUNESKO-nun Baş direktoru İrina Bokova, BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Nassir Abdulaziz Al-Nasser, BMT-nin Dünya Turizm Təşkilatının Baş katibi Taleb Rifai, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif Əl-Osaymin, ISESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri, NATO Baş katibinin müavini Tacan İldem, Avropa Şurası Baş katibinin müavini xanım Qabriella Battaini Draqoninin iştirak etdiyi tədbirə parlament rəhbərləri, vitse-spikerlər, deputatlar, nazirlər, nazir müavinləri və digər yüksək səviyyəli nümayəndələr də daxil olmaqla 120-dən artıq ölkə və 38 beynəlxalq qurumdan 800 xarici qonaq, ümumilikdə isə 1500-dən artıq iştirakçı qatılmışdır. Forum dünyada ilk beynəlxalq tədbirlərdən sayıla bilər ki, BMT-nin birbaşa öz konfransı olmamasına baxmayaraq BMT TV vasitəsilə canlı yayımlanmışdır.

Qeyd edilməlidir ki, Forumun açılış mərasimində Prezident İlham Əliyev tərəfindən səslənən fikirlər və tövsiyələr tədbirin müzakirələrinə çox mühüm istiqamət vermişdir. Tədbirdə çıxış edən beynəlxalq tərəfdaş təşkilatların rəhbərlərinin "Bakı Prosesi"nə və onun beynəlxalq əhəmiyyətinə öz inamlarını bir daha ifadə etmələri ölkəmizin beynəlxalq proseslərdə, mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun təşviqində aparıcı rolunu bir daha təsdiqləmişdir.

Forum çərçivəsində cənab İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın dəstəyi və tərəfdaş qurumların təklifləri ilə bir sıra digər yeni beynəlxalq təşəbbüslərin əsası qoyulmuşdur.

Birinci vacib təşəbbüs Azərbaycan tərəfinin təklifi ilə Forum çərçivəsində ilk dəfə Beynəlxalq Təşkilatların Yüksək Səviyyəli Toplantısının keçirilməsi olmuşdur. Toplantının keçirilməsində məqsəd ölkəmizin təşəbbüsü ilə dünyanın siyasi, mədəni, hərbi, iqtisadi, sosial, maliyyə və digər beynəlxalq təşkilatlarını "mədəniyyətlərarası dialoq, sülh, insan təhlükəsizliyi və davamlı inkişaf" mövzusunda ilk dəfə bir araya gətirərək birgə fəaliyyət mexanizmlərini müəyyənləşdirmək idi. Tədbirdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın və YUNESKO, BMTSA, BMÜTT, İƏT, İSESKO və Avropa Şurasının rəhbər şəxslərinin, həmçinin digər beynəlxalq təşkilatların rəsmilərinin çıxışları bu mühüm təşəbbüsün yeni beynəlxalq görüş formatı kimi formalaşmasını təmin etmişdir.

İkinci vacib təşəbbüs Forum çərçivəsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın Efiopiya, Cibuti, Mali, Ruandanın birinci xanımları, habelə YUNESKO-nun Baş direktoru ilə birgə "Qızların təhsili vasitəsilə zorakı ekstremizmə qarşı" adı altında qızların təhsili vasitəsilə zorakı ekstremizmin qarşısının alınması, miqrant və qaçqınların problemlərini ehtiva edən "Qlobal Çağırış"ın təsis edilməsi olmuşdur. Daha sonra bununla bağlı yüksək səviyyəli toplantı keçirilmiş və həmin toplantıda qızlar təhsilinin zorakı ekstremizmin qarşısının alınmasında rolu, münaqişə və ekstremizmin qızlar təhsilinə verdiyi zərər, qaçqın və miqrant qızların təhsil problemləri kimi konsepsiyalar müzakirə olunmuşdur.

Üçüncü mühüm təşəbbüs Bakı Prosesi və Forum çərçivəsində ilk dəfə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ilə birgə "Ərzaq təhlükəsizliyi və dayanıqlı cəmiyyət naminə mədəniyyətlərarası dialoq: Davamlı inkişaf və sülhün təmin olunması üçün əsas elementlər" mövzusunda xüsusi plenar sessiyanın təşkili olmuşdur. Bu sessiyada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının rəsmiləri, BMT Svilizasiyalar alyansının ali nümayəndəsi və digər rəsmilər çıxış etdilər. Sessiyada qərara alınmışdır ki, 2017-ci ilin oktyabr ayında BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş qərargahında bu mövzuda Azərbaycanın dəstəyi ilə beynəlxalq tədbir təşkil edilsin.

Dördüncü əhəmiyyətli təşəbbüs ilk dəfə olaraq "Bakı Prosesi"ndə yeni bir element kimi Parlamentlərin mədəniyyətlərarası dialoqun ekstremizmlə mübarizədə roluna xüsusi yer verilməsi olmuşdur. Bu məqsədlə Forum çərçivəsində "Sivilizasiyalar arasında mədəni körpülərin qurulmasında parlamentlərin rolu?" mövzusunda xüsusi sessiya keçirilmişdir. Bununla da ölkəmiz Bakı Prosesi platformasına, dünyada mədəniyyətlərarası dialoqun təşviqinə parlamentlərin də cəlb edilməsinin vacibliyini nümayiş etdirmişdir.

Beşinci mühüm təşəbbüs Azərbaycan Respublikasının Prezidenti tərəfindən BMT-nin Sivilizasiyalar Alyansı ilə birgə "Mədəniyyətlərarası dialoqda liderlik naminə Bakı Prosesi mükafatı"nın elan edilməsi olmuşdur. "Bakı Prosesi"nin 10 illik yubileyi şərəfinə veriləcək bu mükafat beynəlxalq səviyyədə elan ediləcək və 2018-ci ildə beynəlxalq jüri heyətinin qərarı ilə dünyanın bu sahədə çox nüfuzlu bir şəxsinə təqdim olunacaqdır.

Altıncı vacib təşəbbüs Forum çərçivəsində Azərbaycanın təklifi ilə ənənə halını almış mədəniyyət və turizm sahələrinə cavabdeh olan nazirlərin görüşünün 3-cü dəfə keçirilməsi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində ölkəmiz dünyanın mədəniyyət və mədəniyyətlərarası dialoq mərkəzlərindən birinə çevrilmiş və bu siyasətin nəticəsi olaraq xalqımızın çoxəsrlik tolerant və mehriban birgəyaşama mədəniyyəti dünya sivilizasiyaları arasında münasibətlərin tənzimlənməsində və inkişafında nümunə kimi göstərilir. Bu istiqamətdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən tədbirlər bəşəriyyətin təhlükəsiz gələcəyi və birgəyaşama ənənələrinə, dialoq və mədəni çeşidliliyə dəstəyin bariz nümunəsidir.

"Bakı Prosesi"nin elan edilməsindən ötən on il ərzində ölkədə bu çərçivəsində bir sıra beynəlxalq tədbir və layihələr həyata keçirilmişdir. YUNESKO, BMT-nin Sivilizasiyalar Alyansı,

Ümumdünya Turizm Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası və İSESKO-nun tərəfdaşlığı ilə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları, 2016-cı ilin aprelində Bakıda təşkil olunmuş BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu bu uğurlu proses və fəaliyyətin nəticəsidir.

Bununla bağlı olaraq, "Bakı Prosesi"nin 10-cu ildönümünün qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 17 noyabr 2017-ci il tarixli, 3392 nömrəli Sərəncamı imzalanmışdır. Məsələ ilə əlaqədar, Mədəniyyət və Turizm Nazirliyinə aidiyyəti dövlət qurumları ilə birlikdə və tərəfdaş beynəlxalq təşkilatların təklifləri nəzərə alınmaqla "Bakı Prosesi"nin 10-cu ildönümünün qeyd edilməsinə dair Tədbirlər Planını hazırlayıb həyata keçirmək tapşırılmışdır.

Avropa Şurası ilə əməkdaşlıq

Hesabat dövrünün 10-12 may tarixində Fransanın Strasburq şəhərində Avropa Şurasının (AŞ) Mədəniyyət, İrs və Landşaft üzrə Rəhbər Komitəsinin 6-cı görüşündə nazirlik təmsil olunmuş "Mədəniyyət, savadlılıq və demokratiya üzrə geniş məlumat bazasına olan tələbat" üzrə Tövsiyələrin ilkin layihəsi, AŞ-nin Landşaft Mükafatı Alyansı ilə bağlı Tövsiyələrin layihəsi, 21-ci əsr üçün yeni Avropa Mədəni İrs Strategiyasının implementasiyası və "2018 – Avropa Mədəni İrs İli" ilə bağlı Avropa İttifaqı ilə əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

26-29 sentyabr tarixində Avropa Şurası (AŞ) Mədəni Marşrutlarının 30 illiyi: Avropa dəyərləri və irsi vasitəsilə dayanıqlı inkişaf və dialoqun qurulması" adlı 7-ci Məşvərət Forumunda iştirak etmək məqsədilə Nazirliyin Beynəlxalq əməkdaşlıq şöbəsinin nümayəndəsi İtaliyanın Lukka şəhərinə səfər etmişdir.

Azərbaycan qeyd olunan platformanın yaradılması üçün Genişləndirilmiş Hissəvi Sazişi (EPA) imzalayaraq 2011-ci ildən sazişə qoşulan ilk ölkələrdəndir və 2014-cü ildə AŞ Nazirlər Komitəsində sədrliyi çərçivəsində ölkəmiz illik məşvərət forumuna ev sahibliyi etmişdir.

27 sentyabr tarixində AŞ Mədəni Marşrutlar üzrə Sazişin icraçı katibi, Avropa Mədəni Marşrutlar (AMM) İnstitutunun direktorunun sədrliyi ilə AŞ-nın Mədəni Marşrutlarının menecerlərinin ilk iclası, daha sonra VII Məşvərət Forumunun rəsmi açılış sessiyası keçirilmişdir. Forum çərçivəsində Birmingem Universitetinin professoru Mayk Robinsonun moderatorluğu ilə "Mədəni marşrutların 30 illiyi: dəyərlər və gələcək" adlı sessiya təşkil edilmişdir. Forumun son günü İtaliya Mədəni irs, fəaliyyətlər və turizm Nazirliyinin Avropada çoxtərəfli əlaqələr bölməsinin rəhbəri Culiana De Françeskanın moderatorluğu ilə üzv ölkələrin təmsilçiləri təqdimatlarla çıxış etmişlər.

MDB ilə əməkdaşlıq

18-21 may tarixində MDB-yə üzv dövlətlərin Turizm üzrə Şurasının növbəti iclasında iştirak etmək məqsədilə Mədəniyyət və Turizm Nazirliyinin Aparat rəhbər Rafiq Bayramovun rəhbərliyi ilə nümayəndə heyəti Sankt-Peterburq şəhərində səfərdə olmuşdur. İclasda çıxış edən Rafiq Bayramov təşkilatçılara minnətdarlığını bildirərək, Azərbaycanda son illər keçirilən qlobal tədbirlər, Bakı Şoppinq Festivalı, 6 MDB ölkəsinin də iştirakı ilə baş tutan IV İslam Həmrəylik oyunları barədə məlumat vermişdir. "MİCE" turizmi üçün müasir infrastrukturdan danışaraq artıq ölkəmizin bu sahədə yüksək təcrübə qazandığı vurğulamış, qarşıdan gələn ikinci "ЖАРА" festivalına xeyli sayda sənət adamının qatılacağını və bunun MDB məkanında böyük turizm hadisəsi olduğunu tədbir iştirakçılarının nəzərə çatdırmışdır.

MDB Dövlət Başçıları Şurasının 2016-cı il 16 sentyabr tarixli qərarı ilə Azərbaycanın Gəncə şəhəri 2017-ci il üçün MDB-nin mədəniyyət paytaxtı elan olunmuşdur. 18 mart tarixində Gəncə şəhərində mədəniyyət ilinin açılış mərasimi keçirilmiş, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, MDB iştirakçı dövlətlərinin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun idarə heyətinin həmsədri, Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoyun rəhbərlik etdiyi nümayəndə heyəti, Azərbaycanın dövlət və hökumət nümayəndələri, Rusiyanın ölkəmizdəki səfiri Vladimir

Doroxin, eləcə də digər yerli və xarici qonaqlar açılış mərasimində iştirak etmişdir. 21 dekabr tarixində mədəniyyət ilinin rəsmi bağlanış mərasimi keçirilmişdir.

QDİƏT ilə əməkdaşlıq

14 iyun tarixində Türkiyə Respublikasının İstanbul şəhərində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Mədəniyyət sahəsində İşçi Qrupunun növbəti iclasında nazirlik təmsil olunmuşdur. İclasda QDİƏT Şurasının qərar və qətnamələri, həmçinin QDİƏT üzv dövlətlərinin mədəniyyət nazirlərinin birgə bəyanatlarının icra vəziyyəti, mədəni marşrutlar üzrə layihələr, QDİƏT regionunda milli qonaqpərvərlik ənənələri, "QDİƏT-in mədəniyyət ayı" proqramı, XX əsr klassik yazıçılarının əsərlərindən ibarət toplunun nəşri kimi məsələlər müzakirə olunmuşdur. Tədbir zamanı müzakirə olunmuş mühüm məsələlərdən biri də Arxeoloji, tarixi və etnoqrafik irsə və incəsənətə məxsus mədəniyyət nümunələrinin qeyri-qanuni alveri ilə mübarizədə əməkdaşlıq üzrə QDİƏT üzv dövlətləri arasında Anlaşma Memorandumunun layihəsi olmuşdur.

Tvinninq layihəsi çərçivəsində görülən işlər

Hesabat ilin 29 may - 1 iyun tarixində Tvinninq layihəsi çərçivəsində təlim səfərində iştirak etmək məqsədilə Mədəniyyət və Turizm Nazirliyinin Aparat rəhbəri Rafiq Bayramovun rəhbərliyi ilə nümayəndə heyəti İtaliyanın Liquriya və Toskana regionlarında səfərdə olmuşdur. Səfər mədəni landşaftla bağlı planlaşdırma, ərazi planlaşdırma qaydalarına transformasiya yolları, eləcə də yerli turizm və mədəniyyətin idarəedilməsi, yerli davamlı iqtisadi inkişafa töhfə verən digər mədəni məhsullar, regionlarda marketinq və brendinq üzrə İtaliya təcrübəsinin öyrənilməsini əhatə etmişdir. Səfər çərçivəsində ölkənin müxtəlif şəhərlərində bir neçə nüfuzlu təşkilat və mədəniyyət müəssisələrinin rəhbərləri ilə görüşlər keçirilmişdir. Belə ki, Liquriya regionunda Cinque Terre Milli Parkının direktoru, Monterosso yerli administrasiyasının rəhbəri, Vernazza şəhərsalma administrasiyasının rəhbəri, Porto Venere şəhərinin meri ilə görüşlər keçirilmiş və fikir mübadiləsi aparılmışdır.

5-23 iyun tarixində Tvinninq layihəsi çərçivəsində nazirliyin iki əməkdaşı üçün İtaliyanın Florensiya şəhərində fəaliyyət göstərən və Vecchio Sarayının idarəetməsinə cavabdeh olan Mus.E Assosiasiyasında təlim-təcrübə proqramı həyata keçirilmişdir. Poqramda nazirliyin Mədəniyyət müəssisələri və xalq yaradıcılığı şöbəsi və Hüquq sektorunun əməkdaşları iştirak etmişdir. On doqquz günlük təcrübə çərçivəsində Vecchio Sarayı və digər mədəni irs abidələri, muzeylər və kitabxanaların idarəolunmasına dair ən qabaqcıl təcrübələr barədə biliklər təqdim olunmuşdur.

3-10 noyabr tarixində Tvinninq layihəsi çərçivəsində İtaliyanın Lombardiya regionuna "Mədəniyyət üzrə rayonların inteqrasiyalı idarəetmə modelinə dair İtaliya təcrübəsi" mövzusunda tədqiqat səfəri baş tutmuşdur. Səfər proqramına əsasən Val Kamonika Mədəniyyət Rayonu (Qayaüstü Rəsmlər - 1979-cu ildə YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir), Valtellina Mədəniyyət Rayonu (Terraslı Üzüm bağları marşrutu - Abidələrin, landşaftın, kənd təsərrüfatının, şərab-qastronomiyasının birləşməsi) və Kremona Mədəniyyət Rayonunda (Ənənəvi skripka sənətkarlığı - 2012-ci ildə Ümumdünya Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmişdir) görüşlər və sahə səfərləri təşkil olunmuşdur. Nazirliyin nümayəndə heyəti tədqiqat səfərində iştirak etmişdir.

15 dekabr Sabirabad şəhər Heydər Əliyev Mərkəzində mədəniyyət və turizm naziri və 15 Regional mədəniyyət və turizm idarə rəhbərlərinin iştirakı ilə görüş keçirilmişdir. Həmçinin hesabat dövrü ərzində Tvinninq layihəsi çərçivəsində Azərbaycanın Mədəniyyət Konsepsiyasına əsaslanan mədəniyyət sektorunun yeni işlək idarəetmə modelinin Konsepsiya sənədi; Konsepsiyanın və inzibati islahatlar planının tam implementasiyası üçün yol xəritəsinə dəstək sənədi; Qeyri-maddi mədəni irsin qorunması haqqında Azərbaycan Respublikasının yeni Qanun layihəsi; Milli mədəni irsin idarə olunma və rəhbərlik modelinə tövsiyələr; Mədəniyyətə dair Azərbaycanın mövcud qanunvericiliyinin müqayisəli analizi. Əsas normativ-hüquqi aktlar və normativ xarakterli aktlara dəyişiklər barəsində lahiyə sənədləri hazırlanmışdır.

TÜRKSOY ilə əməkdaşlıq

Hesabat dövrünün 4-5 dekabr tarixində Qazaxıstanın Türküstan şəhərində TÜRKSOY mədəniyyət nazirləri Daimi Şurasının 35-ci toplantısı keçirilmişdir. Toplantıda Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycanda Atatürk Mərkəzinin müdiri Nizami Cəfərov və Mədəniyyət və Turizm Nazirliyinin nümayəndə heyəti iştirak etmişdir. İclasda TÜRKSOY-un 2017-ci il üzrə fəaliyyətinin yekunları dinlənilmiş, 2018-ci il üçün fəaliyyət planı müzakirə edilmişdir. Azərbaycanın da dəstəyi ilə Düsen Kaseinov səs çoxluğu ilə 2017-2020-ci illər üzrə yenidən TÜRKSOY-un baş katibi seçilmişdir. Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təklifi ilə Türkiyənin Kastamonu şəhəri TÜRKSOY Daimi Şurası tərəfindən 2018-ci il üçün Türk Dünyasının Mədəniyyət Paytaxtı elan olunmuşdur.

TÜRKSOY Daimi Şurası 2018-ci ildə Azərbaycanın görkəmli bəstəkarı Qara Qarayevin 100 illik, Qazax şairi Magjan Cumabayevin 125 illik və Qırğız yazıçısı Çingiz Aytmatovun 90 illik yubileylərinin qeyd olunmasını qərara almışdır. Qeyd edək ki, 2018-ci ildə təşkilatın tarixində ilk dəfə üç görkəmli şəxsiyyətin yubileyi qeyd olunacaqdır.

İkitərəfli əməkdaşlıq

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Gürcüstanın Mədəniyyət və Abidələrin Mühafizəsi Nazirliyi arasında İşçi qrupun Tbilisi şəhərində keçirilən ikinci iclasında iştirak etmək məqsədilə nazir müavini Sevda Məmmədəliyevanın rəhbərliyi ilə nümayəndə heyəti yanvarın 29-dan fevralın 1-dək Gürcüstanda səfərdə olmuşdur. Səfər çərçivəsində yanvarın 30-da Nəriman Nərimanovun Tbilisi şəhərindəki Ev-Muzeyinə baxış keçirilmiş, muzey rəhbərliyi tərəfindən görülmüş işlər barədə nazir müavininə məlumat verilmişdir. Daha sonra nümayəndə heyəti Gürcüstanın məşhur rəssamı Yelena Axvledianinin Ev-Muzeyini ziyarət etmiş, müəssisənin fəaliyyəti ilə tanış olmuşdur. Sevda Məmmədəliyeva tədbiri işıqlandıran Gürcüstanın "İmedi" telekanalına müsahibə vermiş, Gürcüstan ilə Azərbaycan arasında mədəniyyət sahəsində mövcud olan yüksək səviyyəli əməkdaşlıq barəsində danışmışdır.

Eyni zamanda, həmin gün Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Gürcüstanın Mədəniyyət və Abidələrin Mühafizəsi Nazirliyi arasında İçi qrupun 2-ci iclası keçirilmişdir. İclasda iki ölkə arasında mədəniyyət sahəsində əlaqələrin mövcud vəziyyəti və gələcək perspektivləri, həmçinin gündəlikdə duran digər məsələlər müzakirə olunmuşdur. Sevda Məmmədəliyeva ölkəmizdə mədəniyyət sahəsində aparılan islahatlar, yeni layihə və tədbirlər barədə iclas iştirakçılarına məlumat vermiş, mütəmadi olaraq qarşılıqlı məlumat mübadiləsinin aparılmasının, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində iki ölkə arasında əməkdaşlığın daha da genişləndirilməsinin önəmini vurğulamışdır.

İclasdan sonra Sevda Məmmədəliyeva Gürcüstanın mədəniyyət və abidələrin mühafizəsi naziri Mixeil Qiorqadze ilə görüşmüşdür. Mədəniyyət sahəsi üzrə fəaliyyət göstərən beynəlxalq təşkilatlar, xüsusilə YUNESKO çərçivəsində Azərbaycan ilə Gürcüstan arasında əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. Görüş əsnasında həmçinin Cənubi Qafqazda alman yaşayış məntəqələrinin salınmasının 200 illik yubileyinin beynəlxalq səviyyədə birgə qeyd olunması imkanları nəzərdən keçirilmişdir. Yanvarın 31-də nazir müavini Sevda Məmmədəliyevanın rəhbərliyi ilə nümayəndə heyəti Gürcüstan Milli Muzeyini ziyarət etmiş, muzeyin direktoru David Lordkipanidze rəhbərlik etdiyi müəssisənin fəaliyyəti barədə məlumat vermiş və "Gürcüstanın Daş Dövrü" və "Orta Əsrin Xəzinəsi" ekspozisiyaları ilə tanışlıq keçirilmişdir.

Nümayəndə heyəti səfər çərçivəsində XIX əsrin ortalarından başlayaraq Qafqazda məskunlaşmış almanların yaşayış məntəqələrinin vaxtilə mövcud olduğu Bolnisi şəhərinə səfər etmiş və orada yeni tikilmiş muzeydə aparılan tərtibat işləri ilə tanış olmuşdur. Burada baş tutan görüşdə muzey sahəsində müvafiq innovasiyaların tətbiqi və bu müəssisələrin cəmiyyətin, xüsusilə gənc nəslin maarifləndirilməsindəki roluna dair fikir mübadiləsi aparılmışdır. Müzakirələr zamanı Bolnisidə azərbaycanlıların kompakt yaşadıqlarını nəzərə alaraq, həmin

muzeydə Azərbaycan mədəniyyətinə aid eksponatların nümayiş etdirilməsinə dair razılıq əldə olunmuşdur.

Fevralın 1-də Gürcüstan səfəri çərçivəsində nazir müavini Sevda Məmmədəliyeva Heydər Əliyev adına Tbilisi Azərbaycan Dövlət Teatrının yaradıcı kollektivi ilə görüşmüş, müəssisənin fəaliyyəti və mövcud problemlər barədə fikir mübadiləsi aparmışdır. Sevda Məmmədəliyeva Gürcüstanın görkəmli heykəltəraşı, Şota Rustaveli, Pyotr Baqration və Aleksandr Qriboyedovun abidələrinin müəllifi Merab Merabişvilinin emalatxanasını ziyarət etmiş və Nizami Gəncəvinin heykəlinin mövcud olduğu emalatxananın ekspozisiyasına baxış keçirilmişdir. Həmin gün Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin abidəsi ziyarət edilmiş, abidənin yerləşdiyi parkın vəziyyəti ilə tanış olunmuşdur.

İran İslam Respublikasında Azərbaycan Respublikasının Mədəniyyət Günləri ilə bağlı qarşı tərəfin müvafiq qurumları ilə danışıqlarda, təşkilati məsələlərin müzakirəsində iştirak etmək məqsədilə mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyev 23 -28 aprel tarixində İran İslam Respublikasında səfərdə olmuşdur. Səfərin ilk günü Azərbaycan nümayəndə heyəti Tehranda yerləşən “Vəhdət” konsert salonu, İran İncəsənət Akademiyası və Milli kitabxanaya baxış keçirmişdir. Mədəniyyət obyektlərinin rəhbərləri tərəfindən məkanların texniki imkanları və ümumi fəaliyyəti barədə məlumat verilmişdir. Aparılan danışıqlar zamanı nazir müavini tərəfindən həmin müəssisələr ilə Azərbaycanda yerləşən mədəniyyət müəssisələri arasında əməkdaşlığın qurulmasının vacibliyi qeyd edilmişdir. Səfər çərçivəsində nazir müavini Ədalət Vəliyev ilə İranın İslami Mədəniyyət və Əlaqələr Təşkilatının Sədri Abuzər İbrahimi, İncəsənət Akademiyasının rektoru və digər rəhbər şəxslər arasında görüş keçirilmişdir.

Nazir müavini Ədalət Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti 25 aprel tarixində İsfahan şəhərinə, 26-27 aprel tarixində isə Təbriz şəhərinə səfər etmişdir. Səfər çərçivəsində İslami Mədəniyyət və Əlaqələr Təşkilatının İsfahandakı Baş idarəsinin müdiri və ölkəmizin İrandakı Səfirliyinin nümayəndəsinin iştirakı ilə vilayətin qubernatoru Rəsul Zərgərpur ilə keçirilən görüşdə vilayətin, o cümlədən İsfahan şəhərinin mədəni irsi, turizm imkanları və başlıca inkişaf istiqamətləri, ölkəmizdə gedən dinamik inkişaf, yüksək səviyyədə keçirilən beynəlxalq tədbirlər, Mədəniyyət və Turizm Nazirliyinin strukturu, fəaliyyət istiqamətləri, həyata keçirilən islahatlar, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun nəticəsində Ermənistan tərəfindən Azərbaycan və İslam dünyası irsinə aid olan abidələrin dağıdıldığı barədə müzakirələr aparılmışdır. Eyni zamanda səfər çərçivəsində Təbriz vilayətinin bələdiyyə başçısı ilə keçirilmiş görüşdə Təbriz şəhərinin 2018-ci il üçün İslam Dövlətlərinin Turizm Paytaxtı elan edildiyi və bu istiqamətdə hazırlıq işlərinin aparıldığı qeyd olunmuşdur. Öz növbəsində, nazir müavini ölkəmizin dəfələrlə beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini və bu sahədə təcrübə mübadiləsinin mümkünlüyünü qeyd etmiş və görüşün sonunda Təbrizin "Səhəmd" televiziyasına müsahibə vermişdir.

İranda Azərbaycan Mədəniyyət Günlərində iştirak etmək məqsədilə Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 2-dən 7-dək İran İslam Respublikasında səfərdə olmuşdur. Geniş tərkibli Azərbaycan nümayəndə heyətinin tərkibinə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri və Azərbaycan Dövlət Musiqili Teatrının kollektivləri, turizm sənayesi nümayəndələri və media işçiləri daxil edilmişlər.

Hesabat dövründə Türkmənistan Prezidentinin Azərbaycana səfəri çərçivəsində 8 avqust tarixində “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş” və “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Türkmənistanın turizm üzrə Dövlət Komitəsi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş” imzalanmışdır.

24 oktyabr tarixində Ukraynanın Kiyev şəhərində keçirilmiş turizm üzrə Azərbaycan-Ukrayna Birgə Komissiyasının birinci iclasında Mədəniyyət və Turizm Nazirliyinin nümayəndə heyəti iştirak etmişdir. İclasın nəticəsi olaraq, hər iki ölkədə keçirilən beynəlxalq turizm sərgilərində, turizm sənayesi nümayəndələrinin iştirakı ilə B2B formatında keçirilən tədbirlərdə qarşılıqlı iştirak, Birləşmiş Millətlərin Ümumdünya Turizm Təşkilatı və digər beynəlxalq

təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin göstərilməsi, BM ÜTT-nin İpək Yolu proqramı çərçivəsində əməkdaşlığın davam etdirilməsi və digər məsələlər üzrə razılıq əldə edilmişdir.

27 oktyabr tarixində Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında İkitərəfli Əməkdaşlıq üzrə Komissiyanın 5-ci iclasında iştirak təmin olunmuşdur. İclasın sonunda Azərbaycan ilə Litva arasında ikitərəfli əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 5-ci iclasının yekunlarına dair Protokol imzalanmışdır.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən Abu-Dabi Luvr muzeyinin açılış mərasimində iştirak etmək məqsədilə mədəniyyət və turizm naziri Əbülfəs Qarayev 8 noyabr tarixində Birləşmiş Ərəb Əmirliklərində səfərdə olmuşdur. Səfər çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin yüksək vəzifəli şəxsləri ilə ikitərəfli görüşlər keçirilmişdir. Bununla yanaşı nazir Əbülfəs Qarayev Sağlamlıq Turizmi Sərgisində iştirak etmək məqsədilə 9-10 noyabr tarixində Bəhreyn Krallığında səfər etmişdir.

28 noyabr tarixində Bakı şəhərində Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlığa dair Birgə Komissiyanın 28 noyabr tarixində keçirilmiş birinci iclasında və 5-7 dekabr tarixində Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 14-cü iclasında Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələri iştirak etmişdir. Həmçinin, 15 dekabr tarixində Bakıda Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında iqtisadi sahədə əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 2-ci iclasında iştirak təmin olunmuşdur.

Hesabat dövründə Çexiya, İsveçrə, Polşa, Fransa, Xorvatiya, Qazaxıstan, Tacikistan, Estoniya, Birləşmiş Ərəb Əmirlikləri, İsrail, Macarıstan, Latviya, Litva, Səudiyyə Ərəbistanı, Türkmənistan, Böyük Britaniya, Rusiya Federasiyasının Sankt-Peterburq şəhəri, Vyetnam ilə Hökumətlərarası Komissiyanın iclaslarında iştirak təmin olunmuş, iclas protokollarının mədəniyyət və turizm sahələrində əməkdaşlığa dair müvafiq bəndlərinin razılaşdırılması, növbəti iclaslara hazırlıq məqsədilə məlumat və təkliflərin təqdim olunması istiqamətində tələb olunan müvafiq işlər həyata keçirilmişdir.

İNVESTİSİYA VƏ ƏMLAKIN İDARƏ EDİLMƏSİ

Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 2017-ci il tarixli, 2607 nömrəli Sərəncamı ilə Bakı şəhərindəki Azərbaycan Milli İncəsənət Muzeyinin təmir-bərpası və yenidən qurulması üçün 6.000,0 min manat və 11 may 2017-ci il tarixli, 2852 nömrəli Sərəncamı ilə Qusar rayonunda "Şahdağ" Turizm Kompleksində kanat yolunun və xizək enişi yollarının layihələndirilməsi və tikintisi məqsədilə 15.000,0 min manat vəsait ayrılmışdır.

Hesabat dövründə “Şahdağ” Turizm Kompleksində kanat yolunun və xizək enişi yollarının tikintisi üçün layihə sənədləri hazırlanmışdır. Hazırda tikinti işlərinin həyata keçirilməsi məqsədilə hazırlıq işləri davam etdirilir. “Doppelmayr Seilbahnen GmbH” şirkəti tərəfindən 5 nömrəli kanat yolu üçün lazım olan avadanlıqlar Kompleksə çatdırılmışdır. Azərbaycan Respublikası Prezidentinin 14 avqust 2017-ci il tarixli, 3168 nömrəli Sərəncamına əsasən Sabunçu rayonu Maştağa qəsəbəsindəki H.Abbasov adına, Qaradağ rayonu Qızıldaş qəsəbəsindəki və Xəzər rayonu Şağan qəsəbəsindəki Mədəniyyət mərkəzlərinin və Nərimanov rayonu, 21 nömrəli Musiqi Məktəbinin tikintisinin, Bərdə şəhərində "Allah-Allah" türbəsinin bərpa işlərinin tamamlanması üçün 6.987,0 min manat vəsait ayrılmışdır. 21 nömrəli Musiqi Məktəbinin və H.Abbasov adına Mədəniyyət Mərkəzinin tikintisi başa çatdırılmış və hər iki bina istifadəyə verilmişdir.

Gələcək illər üzrə dövlət büdcəsində dövlət investisiya xərclərinin vəsaiti hesabına tikintisi, təmiri və yenidən qurulması nəzərdə tutulmuş obyektlərin siyahısının layihəsi hazırlanmış və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin “Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında” 6 iyun 2007-ci il tarixli, 586 nömrəli Fərmanının icrası ilə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsi davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı bəzi tədbirlər haqqında" 19 iyul 2016-cı il tarixli, 1003 nömrəli Fərmanının və Nazirlər Kabinetinin 21 oktyabr 2016-cı il tarixli, 550s nömrəli Sərəncamının icrası ilə bağlı Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən Mədəniyyət və Turizm Nazirliyi üzrə özəlləşdirilməyə açıq elan olunan dövlət müəssisə və obyektlərinin siyahısı Nazirliyə təqdim edilmişdir. Nazirliyin aidiyyəti şöbə və sektorlarının, Regional mədəniyyət və turizm idarələrinin rəyi nəzərə alınmaqla özəlləşdirilməyə açıq elan olunması təklif edilən müəssisələrin siyahısı hazırlanmış və Əmlak Məsələləri Dövlət Komitəsinə təqdim olunmuşdur.

İş planına əsasən Nazirliyin və digər müəssisə və təşkilatların balansında olan daşınmaz əmlakın siyahısı və vəziyyəti barədə sənədlər hazırlanaraq Kollegiyanın müzakirəsinə təqdim olunmuşdur. Həmin sənədlərdə nazirliyin tabeliyində olan mədəniyyət müəssisələrinin və təşkilatlarının yerləşdiyi binaların balans mənsubiyyətinə dair məlumat bazası, digər qurumların balansında olan bir sıra binaların nazirliyin balansına verilməsi, son illər ərzində mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, Azərbaycan Respublikası Prezidentinin "Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı bəzi tədbirlər haqqında" 19 iyul 2016-cı il tarixli, 1003 nömrəli Fərmanının 1.1.1-ci bəndinin icrası ilə bağlı orta müddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq və özəlləşdiriləcək müəssisələr barədə Nazirliyin aidiyyəti şöbələri, Regional mədəniyyət və turizm idarələri ilə razılaşdırılmış təkliflər öz əksini tapmışdır.

Respublikada fəaliyyət göstərən bəzi mədəniyyət müəssisələrinin yerləşdiyi binaların Mədəniyyət və Turizm Nazirliyinin balansına verilməsi istiqamətində işlər davam etdirilmişdir. Belə ki, Zaqatala Rayon İcra Hakimiyyətinin balansında olan Heydər Əliyev Mərkəzinin binası nazirliyin balansına qəbul edilmiş, Sumqayıt Bələdiyyəsinin balansında olan, Sumqayıt şəhərindəki Heydər Əliyev Mərkəzi və S.Rüstəmov adına Uşaq İncəsənət Məktəbi binalarının isə nazirliyin balansına qəbul edilməsi üçün Əmlak Məsələləri Dövlət Komitəsindən razılıq alınmışdır.

Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsinin Göygöl Rayonlararası Mühafizə Bölməsinin yerləşdiyi Göygöl şəhəri Heydər Əliyev prospekti, 22 ünvanındakı bina Göygöl Tarix-Diyarşünaslıq Muzeyinin təşkili üçün nazirliyin balansına qəbul edilmişdir.

Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişi ilə Mingəçevir şəhəri ərazisində, Sabirabad rayonu Güdəcühür bələdiyyəsi ərazisində və Zaqatala rayonu Aşağı Tala kəndi ərazisində məcburi köçkün ailələri üçün salınmış yeni yaşayış məhəlləsində klub-icma mərkəzi binalarının nazirliyin balansına götürülməsi üçün işlər aparılmışdır.

"Şahdağ" Qış-Yay Turizm Kompleksinin müdiriyyəti tərəfindən tikintisi başa çatmış obyektlərin "Şahdağ Turizm Mərkəzi" QSC-nin balansına verilməsi üzrə işlər davam etdirilmişdir. Nazirlər Kabinetinin 27 oktyabr 2017-ci il tarixli, 470 nömrəli qərarı ilə Kompleksin tikintisinin 1.1.1 mərhələsinə aid olan obyektlərin dəyəri "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin nizamnamə kapitalına yönəldilmişdir.

2016-cı ildə Mədəniyyət və Turizm Nazirliyi üzrə Azərbaycan Respublikasının Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuş layihələr üzrə ayrılmış və istifadə olunmuş vəsaitlər barədə illik və layihələrin icrasının monitorinqinə dair rüblük xüsusi hesabatlar və 2017-ci ildə Azərbaycan Respublikasının Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuş layihələr üzrə ayrılmış və istifadə olunmuş vəsaitlər barədə rüblük və layihələrin icrasının monitorinqinə dair rüblük xüsusi hesabatlar hazırlanaraq Azərbaycan Respublikasının İqtisadiyyat və Maliyyə nazirliklərinə təqdim olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2014-cü il tarixli, 232 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" üzrə Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli, 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" üzrə Mədəniyyət və Turizm Nazirliyinə aid tədbirlərin 30 dekabr 2016-cı il tarixinədək icra vəziyyəti barədə məlumatlar

Azərbaycan Respublikasının Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, İqtisadiyyat Nazirliyinə və Dövlət Statistika Komitəsinə təqdim edilməsi üçün hazırlanmışdır. Hər iki dövlət proqramının hər rübün sonunda icra vəziyyəti barədə Nazirlər Kabinetinə, İqtisadiyyat Nazirliyinə və Dövlət Statistika Komitəsinə məlumat verilmişdir.

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 18 və 20-ci maddələrinə, "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinə əsasən 2016-cı ildə Dövlət əsaslı vəsait qoyuluşundan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə ayrılan vəsaitlərin istifadəsinə dair Nazirliyin müvafiq şöbələrinin iştirakı ilə tələb olunan məlumatlar hazırlanaraq Hesablama Palatasına təqdim olunmuşdur.

Hesabat dövründə Bakı şəhərində yerləşən bir sıra respublika əhəmiyyətli mədəniyyət müəssisələrinin binalarında avadanlıqlara texniki servis xidmətlərinin göstərilməsi təmin edilmişdir.

Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən mədəniyyət və turizm obyektlərində yanğın təhlükəsizliyi ilə əlaqədar aparılmış yoxlamalar və onların nəticələri ilə bağlı müraciətdə qeyd olunmuş mədəniyyət müəssisələri ilə əlaqədar şöbə tərəfindən müəssisələrin dəqiqləşdirilmiş siyahısı hazırlanmışdır. Həmin nöqsanların tezliklə aradan qaldırılması üçün nazirliyin regional strukturlarının rəhbərlərinə tapşırıq verilmişdir.

Mədəniyyət müəssisələrinin balans mənsubiyyəti haqqında məlumat bazasında ləğv olunmuş müəssisələrlə əlaqədar müntəzəm olaraq müvafiq dəyişikliklər aparılır.

İQTISADİYYAT

Mərkəzləşdirilmiş xərclər üzrə büdcə vəsaitindən maliyyələşdirilən büdcə təşkilatlarının xərclər smetaları Maliyyə Nazirliyinin Xəzinə Əməliyyatları şöbəsi tərəfindən qeydiyyatdan keçirilmişdir.

2017-ci ildə yeni yaradılmış Bakı Şəhər Regional Mədəniyət və Turizm Baş İdarəsi və 15 Regional Mədəniyət və Turizm idarəsi üçün xəzinə hesabı açılmış, onların büdcə və büdcədənkənar fərdi smetaları hazırlanaraq təsdiq edilmişdir.

"Mərkəzi Aparat", "Mədəniyyət", "Turizm" və "Təhsil" bölmələri, Bakı şəhər Regional Mədəniyət və Turizm Baş İdarəsi və 15 Regional Mədəniyət və Turizm idarəsi üzrə müəssisələrə açılan vəsait Dövlət Xəzinədarlıq Agentliyinin müvafiq xəzinə orqanlarından müəyyən olunmuş qaydada alınmış və müəssisələrə çatdırılmışdır.

"Mərkəzi Aparat", "Mədəniyyət", "Turizm" və "Təhsil" bölmələri, həmçinin Bakı şəhər Mədəniyət və Turizm Baş İdarəsi və 15 Regional Mədəniyət və Turizm idarəsi üzrə mərkəzləşdirilmiş xərclərdən maliyyələşən müəssisələrin büdcə vəsaitinin, habelə mərkəzləşdirilmiş "Mədəniyyət" və "Turizm" xərcləri üzrə vəsaitin açılması təmin olunmuşdur.

Mədəniyyət və Turizm Nazirliyinə 2017-ci il üçün ayrılan büdcə vəsaitinin təşkilatlar və müəssisələr arasında bölgüsünün təhlili aparılmışdır.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin "Mərkəzi Aparat", "Mədəniyyət", "Turizm", "Təhsil" bölmələri, həmçinin Bakı Şəhər Regional Mədəniyət və Turizm Baş İdarəsi və 15 Regional Mədəniyət və Turizm İdarəsi üzrə 2017-ci il üçün büdcə və büdcədənkənar xüsusi vəsait smetaları təsdiq olunaraq müəssisələrə göndərilmişdir.

"Mərkəzi Aparat", "Mədəniyyət", "Turizm", "Təhsil" bölmələri, həmçinin Bakı Şəhər Regional Mədəniyət və Turizm Baş İdarəsi və 15 Regional Mədəniyət və Turizm idarəsi və "Milli Kulinariya Mərkəzi" üzrə ştat cədvəlləri və xərclər smetası hazırlanmışdır.

Teatr-tamaşa müəssisələrinin əsas proqnoz göstəricilərinin və büdcədən ayrılan vəsaitinin bölgüsü və ştat cədvəlləri hazırlanmış, təsdiq olunmuş və yerlərə çatdırılmışdır.

Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kitabxanaların, klub müəssisələrinin, uşaq musiqi məktəblərinin 2016-cı il üzrə toplu (yekun) hesabatları, Mərkəzi Aparat üzrə 4 əmək (yekun) işçilərinin sayı və əmək haqqı fondu hesabatı, rüblər üzrə 5 istehlak (elektrik və istilik enerjisi, təbii qaz və rabitə xidmətləri), 11 yanacaq nömrəli hesabatlar qəbul edilərək,

onların toplusu hazırlanmış və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə təqdim olunmuşdur.

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11.6-cı maddəsinə müvafiq olaraq Mədəniyyət və Turizm Nazirliyinin, o cümlədən, "Mərkəzi Aparat", "Mədəniyyət", "Turizm" və "Təhsil" bölmələrinin, həmçinin, Bakı Şəhər Regional Mədəniyət və Turizm Baş İdarəsi və 15 Regional Mədəniyət və Turizm idarəsinin xərc maddələri nəzərə alınmaqla mərkəzləşdirilmiş xərclərdən maliyyələşən müəssisə və təşkilatlar üzrə 2018-ci il və sonrakı 3 il üzrə büdcə və büdcədənkənar layihələr hazırlanmış, son təhlil aparılmış, ona uyğun hazırlanmış proqramlar, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim olunmuşdur.

Növbəti ilin büdcə layihəsinin təsdiqi ilə əlaqədar komissiyalarda iştirak və onun müəyyən olunmuş qaydada müdafiəsi təmin edilmişdir.

"Mərkəzi Aparat", "Mədəniyyət", "Turizm", "Təhsil", Kapital Qoyuluşu və Qeyri-hökumət təşkilatları üzrə vəsaitin açılması təmin edilmişdir.

"Mədəniyyət" və "Turizm" bölmələrində, xüsusən də, Bakı Şəhər Regional Mədəniyət və Turizm Baş İdarəsi və 15 Regional Mədəniyət və Turizm idarəsində istehsalat zərurəti ilə bağlı cari ilə təsdiq olunmuş büdcə vəsaiti daxilində maddələr arasında Azərbaycan Respublikası Maliyyə Nazirliyinin razılığı əsasında bir neçə dəfə dəyişikliklər aparılmışdır

Mədəniyyət və Turizm Nazirliyinin 2017-ci il büdcəsində maddələr üzrə yerdəyişmələrlə əlaqədar "Mədəniyyət", "Turizm" və "Təhsil" bölmələri, həmçinin Bakı Şəhər Regional Mədəniyət və Turizm İdarəsi və 15 Regional Mədəniyət və Turizm idarəsi üzrə yeni xərclər smetası hazırlanaraq təsdiqə təqdim edilmiş və müəssisələrə çatdırılmışdır.

Teatr-konsert, sirk, təsərrüfat təşkilatları üzrə əsas proqnoz göstəricilərinin yerinə yetirilməsi haqqında, teatrlarda dövlət sifarişi yolu ilə və öz vəsaitləri hesabına hazırlanan yeni və əsaslı bərpa olunmuş tamaşalar və aktyorların tamaşalarda məşğulluğu barədə rüblər üzrə məlumat və arayışlar hazırlanaraq ümumiləşdirilmiş və rəhbərliyə təqdim edilmişdir.

2017-ci il ərzində rüblər üzrə "Mərkəzi Aparat"ın, "Mədəniyyət", "Turizm" və "Təhsil" bölmələrində dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşən müəssisələrin və təsərrüfat təşkilatlarının balanslarının müvafiq bölmələri yoxlanılmışdır.

"Mərkəzi Aparat", "Mədəniyyət", "Turizm" və "Təhsil" bölmələri, həmçinin Bakı Şəhər Regional Mədəniyət və Turizm İdarəsi və 15 Regional Mədəniyət və Turizm idarəsi üzrə öhdəlik sənədləri hazırlanmış və Dövlət Xəzinədarlıq Agentliyinə və müvafiq xəzinədarlıq idarələrinə təqdim olunmuşdur.

Mühüm iqtisadi məsələlər ilə əlaqədar sənədlər hazırlanaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə göndərilmişdir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin, İqtisadi İnkişaf, Maliyyə, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Dövlət Statistika Komitəsinin, Dövlət Sosial Müdafiə Fondunun, Həmkarlar İttifaqları Konfederasiyasının və s. orqanların sənədlərini icra etmək üçün müəssisələrə məktublar göndərilmiş, müxtəlif məsələlər ilə əlaqədar regional mədəniyyət və turizm idarələri ilə yazışmalar aparılmışdır.

Respublikamızda mədəniyyət siyasətinin və qeyri-maddi mədəni irs sahəsinin səmərəli təşkili məqsədilə və Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən aparılmış monitorinq nəticəsində aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması üçün yeni normativ sənədlərin layihələri hazırlanaraq müvafiq nazirliklərə təqdim olunmuşdur. Təqdim olunan layihələrdən "Heydər Əliyev Mərkəzlərinin nümunəvi strukturu və ştat vahidləri" layihəsi əlaqədar nazirliklərlə razılaşdırılaraq Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq olunmuşdur.

Azərbaycan Dövlət Filarmoniyasının Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinə "Akademik" statusunun verilməsi ilə əlaqədar maliyyə nazirliyi ilə birlikdə müxtəlif hesablamalar aparılmış və nəticədə noyabr ayından status təsdiq olunaraq, malıyyə təminatı ilə tam həyata keçirilmişdir.

İNSAN RESURSLARI

Mədəniyyət və turizm sahəsində dövlət kadr siyasətinin həyata keçirilməsi istiqamətində Mədəniyyət və Turizm Nazirliyi öz fəaliyyətini Azərbaycan Respublikası Əmək Məcəlləsinin, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun, "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun, dövlət qulluğuna və əmək qanunvericiliyinə aid digər normativ-hüquqi aktların tələblərinə uyğun həyata keçirir.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli, 569 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydaları"nın, 2002-ci il 28 yanvar tarixli, 665 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları"nın, 2006-cı il 21 iyun tarixli, 420 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrinin aparılması Qaydaları"nın, 2007-ci il 5 fevral tarixli, 522 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluqçusunun şəxsi işinin aparılması Qaydaları"nın, "Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 mart 2016-cı il tarixli, 1932 nömrəli Sərəncamının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli, 183 nömrəli qərarı ilə təsdiq edilmiş "Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə gücləndirilmiş elektron imza vasitəsilə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar"nın, 2017-ci il 10 mart tarixli, 86 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası"nın icrası ilə əlaqədar, Maliyyə Nazirliyinin təqdim etdiyi "Büdcə təşkilatları üçün Maliyyə və Mühasibatlıq Hesabatları" avtomatlaşdırılmış informasiya sistemi ilə bağlı zəruri işlər həyata keçirilir.

Dövlət qulluğuna qəbul üzrə müsabiqələrdə müvəffəqiyyət qazanmış namizədlərdən 34 nəfər müvafiq olaraq nazirliyin strukturunda staj, sınaq müddətinə və daimi dövlət qulluğuna qəbul edilmişdir.

Hesabat dövründə vakant inzibati vəzifələrin tutulması məqsədilə Nazirliyin aparatında, Dövlət Xidmətində və regional mədəniyyət və turizm idarələrində 14 vəzifə daxili və ya ümumi müsahibəyə təqdim edilmişdir:

Azərbaycan Respublikası Prezidentinin 29 mart 2016-cı il tarixli, 1932 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə görülən işlərin davamı olaraq, regional mədəniyyət və turizm idarələrində 46 nəfər müvafiq vəzifələrə təyin edilərək, onlarla əmək müqavilələri bağlanılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 iyun 2014-cü il tarixli, 183 nömrəli Qərarının icrası ilə əlaqədar əmək müqavilələrinin bağlanılmasının, ona dəyişiklik edilməsinin və xitam verilməsinin elektron qaydada qeydiyyata alınması məqsədi ilə 300-dən yuxarı əmək müqaviləsi bildirişi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Elektron İnformasiya Sisteminə daxil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2006-cı il tarixli, 420 nömrəli Fərmanının icrası ilə bağlı "Dövlət Qulluqçuları Reyestrinin aparılması Qaydaları"na əsasən, Nazirliyin aparatında, Dövlət Xidmətində, Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsində və Regional Mədəniyyət və Turizm idarələrində çalışan dövlət qulluqçuları barəsində 190-a yaxın məlumat Dövlət Qulluqçularının Reyestri İnformasiya Sisteminə (DQRİS-ə) göndərilmişdir.

Hesabat dövründə Maliyyə Nazirliyinin təqdim etdiyi "Büdcə təşkilatları üçün Maliyyə və Mühasibatlıq Hesabatları" avtomatlaşdırılmış informasiya sisteminə (SERP) İnsan resursları şöbəsi tərəfindən Nazirliyin aparatının işçiləri barədə 260-aqədərmüvafiq məlumat (işçilərin

əmək fəaliyyəti, əmək haqqı, məzuniyyətlər, ixtisas dərəcələrinə və qulluq stajlarına görə əlavə haqların verilməsi, əmək qabiliyyətinin olmaması barədə məlumatlar və s.) daxil edilmişdir.

Çalışmanın yaş həddi ilə bağlı Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş müddəaların icrası ilə əlaqədar 32 nəfər işçinin çalışma müddəti uzadılmışdır.

Nazirliyin Aparatında, Dövlət Xidmətində, Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsində və Regional Mədəniyyət və Turizm idarələrində çalışan 47 nəfər dövlət qulluqçusuna müvafiq ixtisas dərəcələri verilmişdir.

Hesabat dövrü ərzində Nazirliyin aparatının 27 əməkdaşına dövlət qulluğundakı qulluq stajlarına görə vəzifə maaşlarına əlavə haqqın ödənilməsi təmin edilmişdir.

"Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları"na əsasən, dövlət qulluqçularının 2016-cı il üçün qiymətləndirilməsinin yekunlarına dair məlumatlar cari ilin əvvəlində aidiyyəti üzrə təqdim edilmişdir. Məlumatlara əsasən, xidməti fəaliyyəti qiymətləndirilən dövlət qulluqçularından 105 nəfər 3.6-4.5, 2 nəfər isə 3.6-3.9 arası qiymətlər almışdır. 2017-ci il üçün müvafiq işlərin görülməsi davam etdirilir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 2017-ci ilin 1-ci yarımili üçün İş planının 6.29-cu bəndinə uyğun olaraq İnsan resursları şöbəsinin əməkdaşları regional idarələrin məsul işçiləri üçün kadr işinin təşkili ilə bağlı seminarlar keçirmək məqsədi ilə 30 may - 2 iyun tarixində Lənkəran və Masallı, 22-25 noyabr tarixində Kürdəmir və Ağdaş rayonlarına ezam edilmişdir. Qeyd edilən rayonlarda olan Regional Mədəniyyət və Turizm idarələrində kadr işinin təşkili ilə bağlı sənədləşmə işi, o cümlədən şəxsi işlərin, əmək kitabçalarının tərtibi, əmək müqavilələrinin hazırlanması, məzuniyyət qrafikinin tərtib olunması, yaş həddi ilə əlaqədar qanunvericiliyin tələblərinə əməl edilməsinin icra vəziyyəti ilə tanış olunmuş, mövcud nöqsanlarla bağlı müvafiq tövsiyələr verilmişdir.

Nazirliyin və onun tabeliyində olan təşkilat və müəssisələrində işləyən və brona alınmış (təxsislənmiş) hərbi mükəlləfiyyətlilərin sayı haqqında 1 yanvar 2017-ci il tarixinə olan hesabatlar (49297 nəfər üzrə) Forma 6-ya uyğun olaraq ümumiləşdirilərək, cari ilin əvvəlində aidiyyəti üzrə təqdim edilmiş, cari il üçün müvafiq işlər qanunvericiliyə uyğun davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının təşkil etdiyi "Dövlət qulluğu sistemi və beynəlxalq təcrübə istiqaməti üzrə qısamüddətli ixtisasartırma kursu"nda, "Azərbaycanda dövlət qulluğunun aktual problemləri" mövzusunda elmi-praktik konfransda, Fövqəladə Hallar Nazirliyinin "Fəlakətlərə qarşı mübarizədə mülki müdafiə sahəsində qarşılıqlı fəaliyyət" mövzusunda elmi-praktiki konfransında, Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən "Hüquqpozmalarla bağlı məlumat verən şəxsin müdafiəsi", "Dövlət qulluğuna dair qanunvericiliyin tətbiqində dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi" mövzularında keçirilən seminarlarda, həmçinin, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən Avropa İttifaqının Tvinninq yardım aləti çərçivəsində həyata keçirilən "Azərbaycan dövlət qulluğu sistemində islahatların davam etdirilməsinə dəstək" Layihəsi ilə bağlı 11 aprel, 26-27 aprel, 8 iyun, 28 avqust, 14 sentyabr, 1-2 noyabr, 4 dekabr tarixlərində keçirilən görüş və seminarlarda Nazirliyin aparatının 4 əməkdaşının iştirakı təmin olunmuşdur. Məlumat üçün bildiririk ki, Tvinninq layihəsinin əsas məqsədi Azərbaycanda Avropanın qabaqcıl təcrübəsinə uyğun peşəkar və dayanıqlı dövlət qulluğu sisteminin daha da inkişaf etdirilməsinə töhfə vermək, dövlət qulluğu vəzifələrinin yeni təsnifat sisteminin yaradılması (məzmun əsasında qruplaşdırlması) və bu sistemin dövlət qulluğuna qəbul, dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi və əməyin ödənilməsi sistemi ilə əlaqələndirilməsidir. Layihənin əsas tərəfdaş qurumları Litva Respublikasının Dövlət Katibliyi, Litva Respublikasının Dövlət Qulluğu Departamenti və Avropa Sosial Fond Agentliyidir.

Hesabat dövrü ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən fəxri adlarla təltif olunmuş mədəniyyət və turizm sahəsində çalışan 56 əməkdaşa nazir Əbülfəs Qarayev tərəfindən fəxri adlar, orden və medallar təqdim edilmişdir.

2017-ci il ərzində Mədəniyyət və Turizm Nazirliyinin Kollegiyasının Qərarı ilə mədəniyyət və turizm sahəsində səmərəli fəaliyyətlərinə görə ümumilikdə 75 nəfər Nazirliyin "Fəxri Mədəniyyət İşçisi" və 19 nəfər isə "Fəxri Turizm İşçisi" döş nişanları ilə təltif edilmişdir.

İNFORMASİYA VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR

Hesabat dövründə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı və iştirakı ilə həyata keçirilən tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmiş, müxtəlif təhlillər və analizlər aparılmışdır. Dövr ərzində ümumilikdə qeyd olunan əlamətdar günlər, anım mərasimləri, yubileylər, film təqdimatları, turizm və kitab sərgiləri və digər tədbirlər barədə çoxsaylı məlumatlar hazırlanmış, onların müxtəlif mətbuat vasitələrində yayımlanması təmin edilmiş və həmin informasiyaların aylıq hesabatı aparılmışdır.

Ümumilikdə il ərzində informasiya saytlarında mədəniyyət üzrə 99940, turizm üzrə 54326, televiziya kanallarında mədəniyyət üzrə 17720, turizm üzrə 6084, qəzetlərdə mədəniyyət üzrə 26379, turizm üzrə 13008 dəfə məlumat yayımlanmışdır. Mədəniyyət və Turizm Nazirliyinin rəsmi saytına il ərzində 2597-ə qədər xəbər yerləşdirilmişdir ki, bu da sayt vasitəsi ilə 1 iş günü ərzində orta hesabla 10-a qədər xəbərin yayılması deməkdir.

Hesabat dövründə Azərbaycanın turizm potensialının təbliğ olunması məqsədilə 1-6 iyul tarixində Argentina və Paraqvay ərazisində yayımlanan "Səyahətlər və talelər" ("Viajes y Vidas") verilişinin yaradıcı heyəti Azərbaycana səfər etmişdir. Səfərin nəticəsi olaraq Argentinanın "Telefe", habelə ölkənin müxtəlif əyalətlərinə məxsus "Canal 8", "Canal 11", "Teleocho", "Canal 7" və Paraqvayın "Paraguay TV" telekanallarında yayımlanan, yerli tamaşaçıları müxtəlif ölkələr, onların tarixi, mədəniyyəti, mətbəxi, turizm imkanları ilə tanış edən "Səyahətlər və talelər" ("Viajes y Vidas") verilişinin avqust ayında Azərbaycanla bağlı iki hissədən ibarət buraxılışı efirə getmişdir. Reportaj Bakı şəhərində və Quba rayonunun Xınalıq kəndində çəkilmiş materiallar əsasında hazırlanmışdır. Veriliş zamanı çəkiliş qrupu Bakı şəhərində gördükləri ilə bağlı heyranlıqlarını dəfələrlə ifadə etmiş, paytaxtımızın tarixi və müasirliyi özündə birləşdirən nadir gözəlliyə malik bir şəhər olması xüsusi qeyd olunmuşdur. Xalqımızın qonaqpərvərliyi, ölkəmizdəki sabitlik və təhlükəsizlik, habelə Azərbaycanın əcnəbilərin ən rahat şəkildə viza ala biləcəkləri ölkələrdən biri olduğu önə çəkilmiş, bu xüsusda Azərbaycan mühüm turizm məkanı kimi tövsiyə olunmuşdur.

28-30 iyul tarixində ölkəmizin Türkiyədəki turizm nümayəndəliyi olan "Gateway" şirkətinin təşkilatçılığı ilə bir qrup KİV nümayəndəsi Azərbaycana səfər etmişdir. Səfər çərçivəsində Bakı şəhərində həftə sonu ilə bağlı reportajlar və məqalələr hazırlanmışdır.

1-12 avqust tarixində Azərbaycanın Rusiyadakı turizm nümayəndəliyi olan "Tour A Vent" şirkətinin təşkilatçılığı ilə Rusiyada Azərbaycan haqqında məlumatlılığın artırılması məqsədilə rusdilli bələdçi kitabının nəşr olunması ilə əlaqədar 4 nəfər nümayəndə heyəti Azərbaycana səfər edərək, 12 günlük müddət ərzində Bakı şəhərində yerləşən mədəniyyət və turizm obyektlərinə, eləcə də Şamaxı, İsmayıllı, Qəbələ, Şəki, Gəncə, Göygöl, Naftalan, Altıağac, Qalaaltı, Quba, Qusar, Şahdağ Turizm Kompleksi, Nabran, Şirvan, Lənkəran və Abşeronda olmuş və bələdçinin hazırlanması üçün lazımi məlumatlar əldə etmişdir.

Azərbaycanın Türkiyədəki turizm nümayəndəliyi olan "Gateway" şirkətinin təşkilatçılığı ilə 6-13 avqust tarixində Türkiyə incəsənət xadimlərindən ibarət bir neçə qrup "Azad Azərbaycan" telekanalında veriliş hazırlanması üçün Azərbaycana səfər etmişdir. Səfər çərçivəsində qonaqların Bakı şəhəri üzrə ekskursiyası təşkil olunmuşdur.

15-20 noyabr tarixində Yaponiyanın "Nippon TV" telekanalında yayımlanan "Let's Challenge the World İTTEQ" verilişinin çəkiliş qrupu Azərbaycana səfər etmişdir. Səfər çərçivəsində Heydər Əliyev Mərkəzi, Dənizkənarı Bulvar, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğuna ziyarətlər təşkil olunmuşdur.

Azərbaycanın turizm potensialına dair verilişin hazırlanması məqsədilə Küveytdə fəaliyyət göstərən "Prismic Media Co." şirkətinin çəkiliş qrupu 25-30 noyabr tarixində ölkəmizə

səfər etmişdir. Verilişdə Heydər Əliyev Mərkəzi, Dənizkənarı Bulvar, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğundakı çəkilişlər geniş işıqlandırılmışdır.

Son illərdə sağlamlıq turizmi məkanlarının, o cümlədən, təbii üsulla müalicə sanatoriyalarının yenilənməsi istiqamətində bir sıra tədbirlər görülmüşdür. Turistlərin sağlamlıq məqsədilə qəbul etdikləri Naftalan neft vannaları Rusiya, Qazaxıstan və digər MDB ölkələrindən olan turistlər üçün xüsusilə unikal sağlamlıq turizmi məkanıdır. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”nin 7.3.1. bəndinə əsasən Naftalan neftinin müalicəvi əhəmiyyətini təsdiqləyən sertifikatın alınması nəzərdə tutulmuşdur. Naftalanın və təbii müalicə ehtiyatlarının Avropa və digər region ölkələrindən olan turistlər üçün cəlbediciliyini artırmaq məqsədilə bu sahəyə beynəlxalq səviyyəli aidiyyəti sertifikatın alınması və Beynəlxalq SPA Assosiasiyaları ilə əməkdaşlığın qurulmasının təmin olunması məqsədilə Avropa SPA Assosiasiyasının nümayəndəsi Teodor Stofiranın 9-16 dekabr tarixində Azərbaycan Respublikasına səfəri təşkil olunmuşdur.

2017-ci il üçün ən böyük mədəniyyət hadisəsi olan 4-6 may tarixində "Mədəniyyətlərarası dialoqun inkişafı: insan təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanlar" devizi altında təşkil edilən, Azərbaycanın ev sahibliyi etdiyi IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində keçirilən tədbirlərin hərtərəfli işıqlandırılması təmin olunmuşdur. Forum başa çatdıqdan sonra forumun yekun monitorinqi aparılmış, ümumilikdə Forumla bağlı müxtəlif saytlarda 3185 dəfə məlumat yayımlanmış, 10 televiziya kanalında 439 dəfə material efirdə getmiş, qəzetlərdə 720 dəfə məlumat dərc olunmuşdur.

Hesabat dövrünün növbəti böyük tədbirləri 10 aprel - 10 may tarixində Azərbaycanda ilk dəfə olaraq keçirilmiş Ticarət Festivalı (Baku Shopping Festival) və oktyabrın 15-dən noyabrın 15-dək keçirilmiş ikinci Ticarət Festivalı ilə bağlı mətbuatda müntəzəm olaraq gün ərzində 3-4 xəbər yerləşdirilmişdir. Ölkəmiz də daxil olmaqla, ümumilikdə 54 ölkədə TV, radio, onlayn media, sosial şəbəkələr və internet televiziyası vasitəsilə festival haqqında məlumatlar yayımlanmışdır.

Cari ildə mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin Sumqayıt, Ağdaş, İsmayıllı, Lənkəran, Gəncə, Xaçmaz, Şəmkir, Şəki, Kürdəmir, Biləsuvar, Yevlax, Sabirabad rayonlarında bölgələr üzrə keçirdiyi səyyar qəbullar barədə ictimaiyyətə ətraflı məlumat çatdırılmışdır.

Mədəniyyət və Turizm Nazirliyi və ASAN Radionun birgə layihəsi olan “Mədəni turizm” verilişi 2017-ci ildə də işini uğurla davam etdirlimişdir. 2016-cı ilin iyun ayından efirdə olan veriliş həftənin cümə günü, saat 17:00-da “100 FM” dalğasında yayımlanır. Verilişdə Azərbaycanın zəngin mədəni irsi, incəsənəti haqqında geniş müzakirələr aparılır. “Mədəni turizm”in vacib xüsusiyyətlərindən biri də odur ki, dinləyicilər Mədəniyyət və Turizm Nazirliyinə aid sual və müraciətini canlı efir vasitəsilə ünvanlaya bilərlər. Verilişdə maraqlı süjetlərə və vətəndaş sorğularına da yer verilir. Qeyd edək ki, 2017-ci ilin ilk verilişi 27 yanvar tarixində efirə getmişdir. Verilişdə Azərbaycan turizminin 2016-cı ildəki uğurlarından söz açılmış, eyni zamanda 2017-ci ildə turizmin prioritet inkişaf istiqamətlərindən danışılmışdır.

Hesabat dövründə “Mədəniyyət” qəzetinin 102 sayı, “Mədəniyyət.AZ” jurnalının 6 sayı, “Baku Guide” bələdçi kataloqunun 6 sayı nəşr olunmuşdur.

Azərbaycan Respublikasının ilk interaktiv elektron xəritəsi olan “www.GoMap.Az” portalının, bütün aparıcı platformalarda (“Android”, “İos”, “Bada”, “Windows”) işləyən mobil versiyası istifadəyə verilmişdir. “GoMap.Az” xəritəsindən başqa internet resurslarının istifadəsini asanlaşdırmaq üçün xüsusi “GoMap” proqram interfeysi (“API GoMap”) hazırlanmışdır ki, indi artıq bu funksionalın köməyi ilə “GoMap” xəritəsindən və funksionallığından “www.egov.az”, “www.data.gov.az”, “www.asan.gov.az” və “www.customs.gov.az” kimi dövlət portallarında da uğurla istifadə olunur.

Ötən rüb ərzində “Baku Guide” bələdçi kataloqunun “android” və “ios” platformaları üzərində işləyən “BAKU GUIDE” tətbiqi hazırlanıb istifadəyə verilmişdir. Mobil tətbiq əsasən turistlər üçün nəzərə tutulmasına baxmayaraq, yerli əhalinin də asudə zamanını rahat və faydalı şəkildə keçirməsinə yardım göstərir. Proqram rus və ingilis dillərində yaradılmış, özündə

Bakı şəhərinin aparıcı istirahət məkanları, tarix-mədəniyyət ocaqları, konsert, teatr və muzey müəssisələri, kinoteatrları, alış-veriş məkanları, gəzməli və görməli yerləri haqqında məlumatı birləşdirmişdir. Eyni zamanda, sistemə quraşdırılmış interaktiv xəritə vasitəsi ilə istənilən məkandan marşrut qurmaq, obyektlərin yerini tapmaq mümkündür. "Afişa" bölməsində daim yenilənən repertuarın köməyi ilə paytaxtın ictimai həyatında baş verəcək hər bir tədbirlə tanış olmaq mümkündür.

Yeniliklərdən biri də Azərbaycanda ilk dəfə "genişləndirilmiş reallıq" ("augmented reality") texnologiyası ilə hazırlanmış "Virtual Travel Guide" kataloqudur. Belə ki, kataloqda qeyd olunan qrafik məlumatları izləmək (baxmaq və dinləmək) mümkündür. Bunun üçün sadəcə müəyyən şəkli (üzərində təsvir olunmuş barkodu) dəstəkləyən "Addvisions" mobil proqramının olması kifayətdir ki, onun da harada və necə yüklənməsi barədə kataloqda məlumat verilir. Hal-hazırda kataloqun beta-versiyası buraxılmışdır. Yaxın günlərdə "Virtual Travel Guide" məhsulu tam hazırlanaraq istifadəyə veriləcəkdir.

Daha bir İnteraktiv Bələdçi olan "GoGuide" layihəsi də il ərzində hazırlanmış və istifadəyə verilmişdir. Layihənin əsas məqsədi, ölkəmizə gələn turistlərə proqram vasitəsilə olduqları yerin öyrənilməsinə, qarşılarına çıxan obyektlər haqda məlumat almalarına, yaxınlıqda olan maraqlı yerlərin tapılaraq hansı istiqamətdə yerləşmələrini öyrənməyə və ora qədər yolun xəritəyə çıxarılmasına yardım göstərməkdir. Proqram həmçinin Azərbaycanın əhalisinə də yaşadıqları kənd, rayon və ya şəhərdə yerləşən tarix-mədəniyyət obyektləri haqda maraqlı tərzdə, qabaqcıl texnologiyalar vasitəsilə daha müfəssəl biliklərin əldə olunmasına yardım göstərə bilər.

Nazirliyin rəsmi "Facebook" səhifəsini bəyənən istifadəçilərin sayının artırılması üçün müntəzəm olaraq yeni məlumatlar (xəbərlər, elanlar və s.) yüklənmişdir. Hazırda səhifəni bəyənən istifadəçilərin sayı 17 100 nəfərə çatdırılmışdır.

Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəsmi internet saytı "heritage.gov.az"ın yeni proqram təminatı yaradılaraq yenilənmişdir.

Həmçinin Azərbaycan mədəniyyətinin bütün sahələrini özündə əks etdirən və daha geniş tərkibdə fəaliyyət göstərən "azculture.az" internet portalına müvafiq bölmələr üzrə məlumatlar toplanılmış və yerləşdirilmişdir. Portalda yer almış Musiqi, Kinematoqrafiya, Teatr sənəti, Təsviri sənət, Ədəbiyyat bölmələri vasitəsilə istifadəçi Azərbaycan Mədəniyyəti barədə məlumat əldə edə biləcək. Həmçinin portal vasitəsilə ölkəmizdə yerləşən Tarix və Mədəniyyət abidələri, Tarix və Mədəniyyət Qoruqları, Muzeylər və Teatr və Konsert zalları barədə məlumat əldə etmək mümkündür. Mütəmadi olaraq portala mədəniyyət xəbərləri də yüklənilir.

Yanvarın 26-da Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında "Folklor Ənənələrinin İnkişafına Dəstək" İctimai birliyinin "Gəncləşən Sazım" adlı tədbiri keçirilmişdir. Tədbir Mədəniyyət və Turizm Nazirliyinin maliyyə dəstəyi ilə baş tutmuşdur. Layihə gənclərin aşıq sənətinə gəlişinə dəstək olmaq, stimullaşdırmaq üçün müxtəlif tədbirlər həyata keçirir.

Layihənin ərsəyə gəlməsində əsas məqsəd və nəticə aşıq sənətinin böyük mənəvi dəyər olaraq qorunub saxlanılmasıdır. Bu sənətin bölgələrdə geniş şəkildə yayılmasını təşkil etməklə sənətə yeni simalar gətirilmiş, gənclərin aşıq sənətinə marağı artırılmış və gənc istedadlar üzə çıxarılmışdır.

Gənclərin yaradıcılıq potensialından istifadə edərək Azərbaycanın qədim misgərlik sənətini təbliğ etmək məqsədi ilə Mədəniyyət və Turizm Nazirliyinin maliyyə dəstəyi ilə Yeniliyə Doğru Gənclər Fondu İsmayıllı rayonunun Lahıc qəsəbəsində "Misgərlik maddi mədəni irsimizdir!" adlı layihə həyata keçirmişdir.

Layihə çərçivəsində Lahıc qəsəbəsində gənclərin iştirakı ilə "forum-teatr" üslubunda tədbir və misgərlərin əl işlərindən ibarət fotosərgi təşkil olunmuşdur. "Forum-teatr"da 25 gənc tərəfindən "Usta və onun şagirdləri", "Misgərlik sənəti zirvələri fəth edir", "Toxuculuq - Lahıc xalçaçılıq sənəti", "Misgər və onun övladları" və "Mis qabların məişətdə istifadəsi və sağlamlığımıza xeyri" mövzularında 5 tamaşa səhnələşdirilmişdir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 26 avqust 2014-cü il tarixli, 292 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qeyri-hökumət təşkilatları tərəfindən mədəniyyət sahəsində keçirilən tədbirlərin dövlət maliyyələşdirilməsi Qaydası"nın 3-cü bəndinə uyğun olaraq, mədəniyyət sahəsində qeyri-hökumət təşkilatlarının fəaliyyətinin dəstəklənməsi məqsədi ilə 1 may 2016-ci il tarixinədək elan olunan müsabiqəyə təqdim edilmiş 56 layihə Nazirliyinin Müsabiqə Komissiyası tərəfindən təhlil edilərək 7 qalib layihə seçilmişdir.

Hesabat dövrünün 21-23 iyun tarixində Mədəniyyət və Turizm Nazirliyinin QHT-lərlə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi və bu əməkdaşlığın səmərəliliyinin artırılması məqsədilə "Qeyri-hökumət təşkilatlarının mədəniyyətin davamlı inkişafında rolu" mövzusunda İsmayıllı şəhərində regional müşavirə keçirilmişdir. Müşavirə zamanı mədəniyyətimizin təbliğində QHT potensialının təhlili, mədəniyyət məsələləri üzrə ixtisaslaşmış QHT-lərə Nazirlik tərəfindən göstərilə biləcək dəstək istiqamətləri, birgə əməkdaşlıq istiqamətlərinin araşdırılması, Nazirlik tərəfindən gələcəkdə elan edilə biləcək müsabiqə mövzularının müzakirəsi, fəaliyyətin çevikliyini təmin etmək üçün zonal koordinasiya qruplarının yaradılması, gənclərin QHT-lərdə fəallığının artırılması, mövcud istiqamətdə qanunvericilik bazası, Regional Mədəniyyət və Turizm idarələri ilə birgə əməkdaşlığın qurulması və s. məsələlər müzakirə olunmuşdur. Eyni zamanda, QHT nümayəndələri üçün mədəniyyət müəssisləri ilə tanışlıq təşkil edilmişdir.Tədbir zamanı QHT-lərin maarifləndirici və kreativ ideyalarının formalaşması potensialından çıxış edilərək milli mədəniyyətimizin inkişafı və təbliği kimi məsələlər müzakirə olunmuşdur.

Mədəniyyət və Turizm Nazirliyinin maliyyə dəstəyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ), Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının və Azərbaycan Milli Konservatoriyasının təşkilati dəstəyi ilə "Muğamın müasir dinləyiciləri" layihəsinin konserti keçirilmişdir.

Bakı Musiqi Akademiyasının yanında Opera Studiyasının konsert salonunda 30 iyun tarixində baş tutan konsert proqramının keçirilməsində məqsəd muğamın digər musiqi janrları ilə sintez olunaraq ifa edilməsi və muğama gənc nəsil nümayəndələrində marağın oyadılmasıdır. Layihə çərçivəsində musiqiçi mütəxəssislərin iştirakı ilə müxtəlif çalğı alətləri ilə ifa ediləcək 10 muğam parçası seçilmiş və bu parçaları ifa etmək üçün komandalar yaradılmışdır. Muğam digər musiqi janrları ilə sintez edilərək tar, kamança və qavaldan əlavə digər xalqlara mənsub musiqi alətləri ilə ifa edilmişdir.Qeyd edək ki, yalnız tələbələrin cəlb olunduğu layihənin sonunda iştirak edən komandalar sertifikatlar ilə təltif olunmuşdur.

Mədəniyyət və Turizm Nazirliyinin maliyyə dəstəyi ilə "Sosial-İqtisadi və Ekoloji İnkişaf" İctimai Birliyi tərəfindən 11 iyul tarixdə Dağlıq Qarabağ münaqişəsi zamanı məhv olmuş maddi və mənəvi mədəniyyət, tarix və mədəniyyət abidələri haqında təbliğat işləri" layihəsi çərçivəsində Quba və Qusar rayonlarında tədbir keçirilmişdir. Keçirilən tədbirlərdə gənclər, Qarabağ müharibəsi iştirakçıları, rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişdir. Layihənin məqsədi Dağlıq Qarabağ ərazisində olan və münaqişə zamanı məhv olmuş maddi və mədəniyyət nümunələri, tarix və mədəniyyət abidələri haqqında məlumatları gənclər arasında daha geniş yaymaqdan ibarət olmuşdur. Azərbaycanın işğal edilmiş ərazilərində 13 dünya əhəmiyyətli — 6 memarlıq və 7 arxeoloji, 292 ölkə əhəmiyyətli — 119 memarlıq və 173 arxeoloji və 330 yerli əhəmiyyətli — 270 memarlıq, 22 arxeoloji abidə, 23 bağ, park, monumental və xatirə abidəsi, 15 dekorativ sənət nümunəsi olan tarix və mədəniyyət abidəsi qalmışdır. Ermənistanın işğal altındakı Azərbaycan ərazilərində mədəni irsi məhv etməyə yönələn siyasətinin bir hissəsi də bu ərazilərdə qalan muzeylərdə saxlanılan misilsiz tarixi eksponatları, qiymətli incəsənət və mədəniyyət nümunələrini talan etməsidir.

Hesabat dövrünün 18 iyul tarixdə "Sağlam Yaşa" Gənclərin Maarifləndirilməsi İctimai Birliyi Mədəniyyət və Turizm Nazirliyinin maliyyə dəstəyi ilə Xaçmaz rayonunda "Regionlarda yeni formalaşmış mədəniyyət müəssisələrində Azərbaycanda yaşayan müxtəlif xalqların mədəniyyətlərinin təbliği" mövzusunda tədbir keçirmişdir. Tədbirdə Azərbaycanda yaşayan azsaylı xalqların folkloru, adət-ənənələri, musiqiləri haqqında geniş məlumat verilmişdir. Dövlətimiz tərəfindən bu xalqların maddi və mənəvi mədəniyyətlərinin öyrənilməsi və

qorunması məqsədi ilə yaradılmış Mədəniyyət Mərkəzlərinin fəaliyyətləri haqqında geniş fikir mübadiləsi aparılmış və onların bu sahədə gördüyü müsbət işlər qeyd edilmişdir. Qeyd olunan layihə 27 iyul tarixdə Lənkəran rayonunda keçirilən tədbir ilə yekunlaşdırılmışdır.

28-29 sentyabr tarixində Rusiya Federasiyası Rabitə və Kütləvi İnformasiya Vasitələri Nazirliyinin dəstəyi ilə Həştərxanda üçüncü Xəzər Mediaforumu baş tutmuşdur. Tədbirdə Xəzəryanı ölkələrin – Azərbaycan Respublikasının, İran İslam Respublikasının, Qazaxıstan Respublikasının və Rusiya Federasiyasının nümayəndə heyətləri iştirak etmişdir. Forumda Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı iştirak etmişdir.

REGİONLARLA İŞ

Hesabat dövrü ərzində Mədəniyyət və Turizm Nazirliyinin Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin və Regional Mədəniyyət və Turizm idarələrinin Əsasnamələri və ştat cədvəlləri təsdiq edilmişdir.

Mədəniyyət sahəsinin 2017-ci ilin yanvar ayının 1-dən mərkəzləşdirilmiş maliyyələşməyə keçirilməsi ilə əlaqədar yeni yaradılmış Regional İdarələrin baş mühasibləri üçün 17-18 yanvar tarixində Nazirliyin Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzi tərəfindən təlimlər təşkil edilmişdir.

Martın 18-də Bakı şəhərində keçirilmiş Novruz bayramı şənliklərində Nazirliyin Regional Mədəniyyət və Turizm idarələrinə daxil olan şəhər və rayonların “Şərq bazarı”, milli mətbəx və tədbirin bədii hissələrində iştirakı təmin olunmuşdur.

Milli Turizm Təbliğat Bürosu tərəfindən 20-26 mart tarixində Sabir bağında təşkil edilən Novruz Festivalında Azərbaycanın müxtəlif bölgələrindən olan incəsənət kollektivlərinin və sənətkarların iştirakı təmin edilmişdir.

Regional Mədəniyyət və Turizm idarələrinin rəhbərlərinin beynəlxalq təcrübəsinin artırılması məqsədilə onların bir qrupunun 24-29 aprel tarixində Belarus Respublikasına, 27 avqust - 2 sentyabr tarixində Rusiya Federasiyasına səfəri təşkil edilmişdir.

Mərkəzi İcra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri tərəfindən 26 yanvar tarixində Sumqayıt, 24 fevral tarixində Ağdaş, 29 mart tarixində İsmayıllı, 21 aprel tarixində Lənkəran, 30 may tarixində Xaçmaz, 23 iyun tarixində Gəncə, 18 iyul tarixində Şəmkir, 1 avqust tarixində Şəki, 22 sentyabr tarixində Kürdəmir, 20 oktyabr tarixində Biləsuvar, 28 noyabr tarixində Yevlax, 15 dekabr tarixində Sabirabad şəhərlərində qəbul və Regional İdarələrin fəaliyyətinə həsr olunmuş müşavirələrin keçirilməsi ilə bağlı müvafiq təşkilati işlər görülmüşdür.

Regionlarda keçirilən vətəndaşların qəbulu

Mərkəzi İcra Hakimiyyəti orqanları rəhbərlərinin 2017-ci ilin on iki ayı ərzində respublikanın şəhər və rayonlarında vətəndaşların səyyar qəbulu cədvəlinə əsasən mədəniyyət və turizm naziri tərəfindən 26 yanvar tarixində Sumqayıt şəhərində, 24 fevral tarixində Ağdaş rayonunda, 29 mart tarixində İsmayıllı rayonunda, 27 aprel tarixində Lənkəran rayonunda, 30 may tarixində Xaçmaz rayonunda, 22 iyun tarixində Gəncə şəhərində, 18 iyul tarixində Şəmkir rayonunda, 1 avqust tarixində Şəki şəhərində, 22 sentyabr tarixində Kürdəmir rayonunda, 20 oktyabr tarixində Biləsuvar rayonunda, 28 noyabr tarixində Yevlax şəhərində, 15 dekabr tarixində Sabirabad rayonunda vətəndaşların qəbulu keçirilmişdir.

Ümumilikdə, 2017-ci ilin 12 ayı ərzində 12 rayonda səyyar qəbul keçirilmiş, həmin qəbullarda respublikanın 60-dan artıq şəhər və rayonundan olan vətəndaşlar iştirak etmişdir.

Qəbulla əlaqədar öncədən KİV-lərdə müvafiq məlumatın verilməsi təşkil edilmiş və müraciət etmək istəyən vətəndaşların qeydiyyatı aparılmışdır.

Belə ki, vətəndaşlar əvvəlcədən Nazirliyin mct@mct.gov.az elektron poçt ünvanı, e-services.mct.gov.az elektron xidmətlər saytı, telefon məlumat sistemi (qaynar xətt-147)

vasitəsilə Nazirliyə, eləcə də müvafiq Regional Mədəniyyət və Turizm idarələrinə müraciət etməklə qəbula yazılmışlar.

Nazirliyin məsul işçilərinin də iştirak etdikləri görüşlərdə 250-dən artıq vətəndaş qəbul edilərək diqqətlə dinlənilmiş, onların xahiş və təklifləri nəzərə alınmışdır.

Müraciətlərin icrasını vaxtında və keyfiyyətlə təmin etmək üçün hər bir ərizə xüsusi nəzarətə götürülmüş və qeydiyyata alınmışdır.

Hər bir vətəndaşın müraciətinin diqqətlə araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyə uyğun surətdə həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verilmişdir.

SƏNƏDLƏRLƏ VƏ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ (28.12.2017 tarixinə)

2017-ci il ərzində Mədəniyyət və Turizm Nazirliyinə ümumi 7812 sənəd daxil olmuşdur. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından daxil olmuş 306 sənəddən 286-sı, Azərbaycan Respublikasının Milli Məclisindən daxil olmuş 15 sənəddən hamısı, Azərbaycan Respublikası Nazirlər Kabinetindən daxil olmuş 1002 sənəddən 959-u, xarici ölkələrdən daxil olmuş 843 sənəddən 809-u, müxtəlif yerli təşkilatlardan daxil olmuş 3764 sənəddən 3522-i, vətəndaşlardan daxil olmuş 1882 müraciətdən 1817-si icra edilmişdir.

İl ərzində nazirlikdən 6694 məktub göndərilmişdir ki, onlardan 265-i Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, 223-ü Nazirlər Kabinetinə, 12-si Milli Məclisə, 471-i xarici ölkələrə, 5723-ü müxtəlif yerli təşkilatlara və ayrı-ayrı şəxslərə ünvanlanmışdır.

Hesabat dövrü ərzində Nazirlik üzrə 1107 əmr (əsas fəaliyyət üzrə 309, ezamiyyələr üzrə 239, kadrlar üzrə 559), 319 sərəncam, 9 qərar qeydiyyata alınmışdır.

2017-ci ilin ikinci yarımilliyindən etibarən idarələrarası elektron sənəd dövriyyəsi sistemi test qaydasında fəaliyyətə başlamışdır.